Xalqın qəzeti!

# Xalq qəzeti

№ 44 (30738) 27 fevral 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## “O zaman Heydər Əliyev hakimiyyətdə olsaydı...”



Səhifə ⇨ 5

## Xocalı harayı – ədalətə çağırış!



Səhifə ⇨ 2

## Bu, dostluq, qardaşlıq və sədaqət zirvəsidir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana ad günü münasibətilə təbriklərini çatdırıb, qardaş Türkiyənin inkişafı naminə prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib. Dövlət başçıları ölkələrimiz arasında “Bir millət, iki dövlət” prinsipinə əsaslanan dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirərək, əlaqələrimizin perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

*Prezidentin Mətbuat Xidməti*

## İkiüzlülük sülhə yaraşmır



Səhifə ⇨ 4

## Brüssel İrəvanı tələyə salır?



Səhifə ⇨ 4

## Ermənistanın xilas yolu Azərbaycandan keçir



**Ermənistanın Qərb dəyərlərinə söykəndiyi bildirilən Avropa İttifaqına inteqrasiya istəkləri fiaskoya uğramaqdadır. Artıq bununla bağlı Cənubi Qafqazın ictimai rəyində oturuşmuş mövqe var. Əslində, mövcud istiqamətdəki düşüncələr lap əvvəldən də yaranmışdı. ABŞ-da hakimiyyət dəyişikliyi və Prezident Donald Trampın tutduğu mövqe, o cümlədən, onun anti-Avropa kursu bu qənaətləri möhkəmləndirdi.**

Bəli, hazırda “Köhnə qitə”də yaşanan hadisə və proseslərə nəzər salanda, ortaya belə bir sual çıxır: Ermənistanın Qərbə inteqrasiyası nə dərəcədə əsaslıdır və bu, indiki halda ölkə üçün vacibdirmi? Hərçənd, bəri başdan “Avropa sevdasının” ona risklər yaratdığını söyləyə bilərik. Rəsmi İrəvanın siyasi kurs dəyişikliyi, Rusiyanı Qərblə əvəzləməsi öz yerində. Ən böyük risk budur ki, Ermənistanın Avropaya inteqrasiyası şüurlu deyil, kortəbii prosesdir. Rəsmi İrəvan qitəni erməni avantürizmi üçün sipər kimi görür, Avropaya özü ilə problem aparır. Bəs ikinciyə problem lazımdırmı? Onsuz da çətinliklər içərisindədir. Hələ ac-yalavac ermənilərin Avropaya qaraçı köçünə bənzər axınından danışmırıq.

Ermənistanın “Avropa sevdası” həm də ona görə əhəmiyyətsiz məsələyə çevrilir ki, ikincinin tapındığı sistem sıradan çıxır. O sistem ki, erməni təəssübkeşliyini də özündə yaşadırdı. Diqqət yetirək, kanslar Olaf Şolts Almaniyada seçkilərdə məğlubiyyətə uğrayıb. Bunun özü Aİ-nin siyasi mənzərəsinin gözümüzün qarşısında necə dəyişdiyinin bariz nümunəsidir. Hələ Şolts, müəyyən qədər, abırlıdır. Çünki seçkiləri səssizcə uduzdu və istefasını etiraf etdi. Qalib isə Fridrix Merzin Xristian Demokratlar Partiyası oldu. Merz kanslerliyə hazırlaşır. Ölkədə seçkilərdə ikinci yeri ABŞ-da dəstəklənən sağçı AFD tutdu. Yeri gəlmişkən, Şoltsun partiyası prosesdə üçüncülüklə kifayətləndi.

*(ardı 3-cü səhifədə)*

## Avropa qoşunları Ukraynaya gedəcəkmi?



**Avropa qoşunlarının Ukraynaya göndərilməsi Avropa İttifaqı (Aİ) və NATO-nun müdafiəsini zəiflədəcək. Bu iddia ilə Qərb mediası çıxış edir.**

Fransa iqtisadiyyat və maliyyə naziri Erik Lombard bildirir ki, Paris Birləşmiş Ştatların Avropa qoşunlarının Ukraynada müvəqqəti yerləşdirilməsinə dəstək verməsini gözləyir. “Bloomberg” daha əvvəl Paris və Londondan iri şəhərlərdə, limanlarda və mühüm infrastruktur obyektlərində 30 minə qədər əsgərin yerləşdirilməsini tələb edən plan haqqında məlumat vermişdi. Fransa prezidenti Emmanuel Makronla görüşdən sonra Tramp bildirdi ki, Rusiya Prezidenti Vladimir Putin Ukraynada sülhməramlıların yerləşdirilməsinə qarşı deyil. Lakin fevralın 25-də Kreml bu məlumatı təkzib etdi.

*(ardı 15-ci səhifədə)*

## Aqrar sığortanın əhatə dairəsi genişlənir



Səhifə ⇨ 10

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı soyqırımı abidəsini ziyarət ediblər




**XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 33-cü ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib.

Xocalı soyqırımından 33 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə-yeksan etdi. Erməni təcavüzkarların Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi amansızlıqla qətlə yetirildi, 1275 dinc sakin əsir götürüldü, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi.

Uzun illərdir ki, Azərbaycan dövləti Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması istiqamətində sistemli iş aparır. Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız Ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra açıqlanıb, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verib.

Prezident İlham Əliyev Xocalı soyqırımını törədənlərin ifşa olunmasını və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılmasını Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib və bu istiqamətdə ardıcıl addımlar atılır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub.

Bu gün Xocalı şəhidlərinin ruhları şaddır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə çoxəsrlik tariximizdə bənzəri olmayan Vətən müharibəsi, eləcə də uğurlu antiterror tədbirləri nəticəsində respublikamızın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub, Xocalı şəhəri separatçılardan təmizlənib. 2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində 2024-cü ilin mayında Xocalıya ilk köç baş tutub.

Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının beynəlxalq səviyyədə tanıdılması və Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə "Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" 2025-ci il fevralın 25-də Sərəncam imzalayıb.

# Dövlət və hökumət rəsmiləri soyqırımı qurbanlarını ehtiramla yad ediblər



**Xocalı faciəsinin 33-cü ildönümü ilə əlaqədar fevralın 26-da Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri Xocalı soyqırımı abidəsini ziyarət ediblər.**

Dövlət və hökumət rəsmiləri soyqırımı abidəsinin önünə gül dəstələri düzərək, faciə qurbanlarının əziz xatirələrini ehtiramla anıblar.

Qeyd edək ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə-yeksan edib. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi amansızlıqla qətlə yetirilib, 1275 dinc sakin əsir götürülüb, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib.



***AZƏRTAC***

# Leyla Əliyeva və Arzu Əliyeva Bəhreyndə



**Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifə Bəhreyn Krallığında səfərdə olan Heydər Əliyev Fondunun nümayəndə heyətini qəbul edib. Leyla Əliyeva və Arzu Əliyeva ilə görüşdə iki ölkə arasında mövcud əlaqələr, dostluq və əməkdaşlıq münasibətləri, bu əlaqələrin genişləndirilməsi üzrə layihələr, o cümlədən Heydər Əliyev Fondunun beynəlxalq layihələri müzakirə olunub.**

Leyla Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını və ölkəmizə səfərə dəvətini bir daha Kral Həməd bin İsa Al Xəlifəyə çatdırıb.

Kral Həməd bin İsa Al Xəlifə Azərbaycanın və Azərbaycan Prezidenti İlham Əliyevin regionda və dünyadakı nüfuzunu xüsusi qeyd edərək ölkəmizdə həyata keçirilən bərpa-quruculuq işlərini yüksək qiymətləndirib.

Həməd bin İsa Al Xəlifə Bakıda keçirilən COP29 tədbirinin uğurla təşkili münasibətilə bir daha Azərbaycanı təbrik edib və ölkəmizin beynəlxalq tədbirlərə daim yüksək səviyyədə ev sahibliyi etdiyini, bu beynəlxalq layihələrin həyata keçirilməsinə Azərbaycanın göstərdiyi müntəzəm dəstəyi xüsusi vurğulayıb.

Görüşdə Azərbaycan və Bəhreyn arasında davam edən siyasi dialoqun iqtisadiyyat və mədəniyyət sahələrində də əməkdaşlığa təkan olduğu bildirilib.

Qeyd edilib ki, MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsinin bir aya yaxın müddətdə paytaxt Manamada təqdim olunması ölkələrimiz arasında sıx mədəni əlaqələrin mövcudluğuna bariz nümunədir. 2024-cü ildə Bakıda Heydər Əliyev Mərkəzindəki təqdimatından sonra Bəhreyn bu beynəlxalq layihəyə ev sahibliyi edən ilk ölkədir. Bildirilib ki, mədəni layihələr Azərbaycan və Bəhreyn arasında dövlət səviyyəsində mövcud əlaqələrin daha da genişlənməsinə, xalqlarımız arasında münasibətlərin dərinləşməsinə öz töhfəsini verəcək. Bu istiqamətdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun müxtəlif sahələri əhatə edən beynəlxalq layihələrinin əhəmiyyəti qeyd olunub.

Görüşdə Heydər Əliyev Fondunun digər ölkələrdə həyata keçirdiyi humanitar layihələr, o cümlədən Leyla Əliyeva və Arzu Əliyevanın Fondun təhsil və mədəniyyətin inkişafı üzrə layihələrdəki fəaliyyətləri xüsusi vurğulanıb.

***XQ***



# DTX-nin əməkdaşları ümumxalq anım mərasimində



**Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və Xidmətin əməkdaşları soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış "Ana harayı" abidəsini ziyarət etmişlər.**

Abidənin önünə gül dəstələri düzülmüş, faciə zamanı həlak olanların əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

***XQ***

# Azərbaycan–Səudiyyə Ərəbistanı əməkdaşlığının yeni hədəfləri

**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri şahzadə Feysəl bin Fərhan Əl Səud ilə görüşüb.**

Görüşdə Azərbaycan və Səudiyyə Ərəbistanı arasında ikitərəfli və çoxtərəfli münasibətlər gündəliyində duran, habelə qarşılıqlı maraq doğuran digər məsələlər, həmçinin regional, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və Yaxın Şərqdə vəziyyət müzakirə olunub.

İki ölkə arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, energetika, humanitar sahələr üzrə əməkdaşlıq məsələlərinin müzakirə olunduğu görüşdə nazirlər alternativ enerji istehsalı sahəsində Azərbaycanla Səudiyyə Ərəbistanı arasında əməkdaşlıqdan məmnun olduqlarını bildiriblər. "ACWA Power" şirkətinin rəhbərlik etdiyi konsorsiumun Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı zavodu layihəsinin əməkdaşlığa əlavə töhfə verəcəyi diqqətə çatdırılıb.

Söhbət zamanı Qəzza ətrafında vəziyyət barədə də fikir mübadiləsi aparılıb, Qəzza zolağında əldə edilmiş atəşkəsin qorunmasının vacibliyi vurğulanıb.

**XQ**

# İrəvanın uydurma gündəmləri

## Paşinyan iqtidarının yeni-köhnə manipulyasiyaları sülhə qarşıdır

**Azərbaycan və Ermənistan arasında sülh gündəmi aktuallığını saxlasa da, məsələ ilə bağlı irəliləyiş yoxdur. Ötən ilin sonuncu rübündə mövcud istiqamətdə müəyyən cəhdlər qeydə alınsa da, 2025-ci il tam sönük başlayıb. Yalnız iki gün əvvəl Ermənistanın Xarici İşlər Nazirliyi məlumat yaydı ki, Azərbaycan sülh müqaviləsi ilə bağlı bəzi məqamlara aydınlıq gətirən cavablar verib. Cavabların mahiyyəti açıqlanmır. Amma Ermənistan XİN-in məlumatında o da bildirilir ki, Bakının cavabları içərisində regional kommunikasiyaların açılmasına və qarşılıqlı şəkildə silahlanmaya nəzarət mexanizmlərinin yaradılmasına dair heç nə yoxdur.**

Bəribaşdan deyək ki, Ermənistan həmişə olduğu kimi, reallığa qarşı çıxır. Bu səbəbdən sülhdən yayınır. Reallıq budur ki, Azərbaycan müharibənin qalibidir və buna görə də şərtlərini irəli sürməyə ixtiyarı var. Ermənistana gəldikdə, baş nazir Nikol Paşinyan və komandasının üzvləri özlərini elə aparır ki, sanki, müharibə olmayıb, ölkələri rüsvayçı və acınacaqlı məğlubiyyətlə üzləşməyib. Belə bir məntiq isə onlara sülhdən yayınmaq yönümlü gündəmlər uydurmağa "əsas" verir. Yazımızda həmin saxta gündəmlər barədə söz açacağıq. Əlbəttə, digər əlaqəli məqamlara da diqqət yetirəcəyik.

*

Əslində, Azərbaycan Ermənistana onun gözlədiyi tərzdə cavab verə bilməz və verməməlidir. Birincisi, regional kommunikasiyaların açılması ilə bağlı hər şey aydındır və məsələ barədə söz açacağıq. Silahlanmaya birgə nəzarətə gəldikdə, bu, rəsmi İrəvan tərəfindən ortaya atılıb. Aydındır ki, belə bir şey mümkünsüzdür. Buna ehtiyac da yoxdur. Ehtiyacı qondaran Ermənistan çalışır ki, özünün sürətli silahlanmasına bəraət qazandırsın. Təxminən belə: Azərbaycan silahlanmaya nəzarət mexanizminin mövcud olmasına razı deyil və bu, təcavüzkarlıq niyyətidir, ona görə Ermənistan özünü müdafiə etməlidir, müdafiə qabiliyyətinin artırmalıdır.

Aydındır ki, silahlanmaya birgə nəzarət mexanizmlərinin formalaşdırılması bəsit erməni hiyləsindən başqa bir şey deyil. Habelə, silahlanma təkcə Ermənistan rəhbərliyinin düşüncə məhsulu, erməni avantürizminin gerçəkləşməsi vasitəsi yox, eyni zamanda, ölkə qarşısında "regional məqsədlər" gerçəkləşdirmək üçün ölkə qarşısında qoyulan tələbdir. Rəsmi İrəvan belə tələblərdən özünü sığortalayacaq iradə və qətiyyətdən uzaqdır. Ermənistanın müdafiə qabiliyyətinin gücləndirilməsində isə məqsəd müdafiədə yox, hücumdur ki, hücumun nəyin gerçəkləşməsinə xidmət etdiyini sonda vurğulayacağıq.

*

Regional kommunikasiyalarla əlaqədar məsələnin üzərində dayanaq. Qeyd edək ki, mövcud məqam əvvəldən də sülh gündəmində olub. Amma mütləq əhəmiyyət daşımayıb. O anlamda ki, əgər Ermənistan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda yer alan Naxçıvana maneəsiz yol tələbini yerinə yetirməsə, regional kommunikasiyalar açılmayacaq. Bununla əlaqədar ölkəmizin rəhbərliyinin, xüsusən Prezident İlham Əliyevin də qəti mövqeyi var.

Deməli, regional kommunikasiyaların açılmaması sülh müqaviləsinin imzalanmaması üçün səbəb ola bilməz. Nəzərə alaq ki, sülh üçün iki başlıca şərt var. Daha doğrusu, rəsmi Bakı tərəfindən irəli sürülmüş iki şərt. Birincisi, Ermənistan qanunvericiliyinin Azərbaycana, bütövlükdə qonşulara qarşı ərazi iddiası aradan qalxsın, ikincisi, ATƏT-in Minsk qrupunun ləğvi üçün Bakı və İrəvan müştərək müvafiq müraciət ünvanlasın. Nəzərə alaq ki, ATƏT-in Minsk qrupu da Ermənistanın Azərbaycana ərazi iddiasının mövcudluğu kasuzunu daşımaqdadır. Ancaq nədənsə, Ermənistanda bu barədə söz açan yoxdur, halbuki hər iki məsələ, kifayət qədər, prinsipialdır. Bilavasitə Naxçıvana yol məsələsində Azərbaycanın istəyinin nəzərə alınması isə daha çox etimadın artmasına köməkdir.

Digər tərəfdən, bir halda ki, Ermənistan Azərbaycanla razılaşmır, yəni, Naxçıvana yolun "Azərbaycandan Azərbaycana yol" məntiqinə qarşıdır, deməli, həm də özünün dalanda qalma aqibəti ilə barışmalıdır. Çünki sözügedən yolun İran ərazisindən keçmə trayektoriyası realdır. Ancaq o da görünür ki, Ermənistan nə üçtərəfli bəyanatı yerinə yetirmək barədə düşünür, nə də Naxçıvana yolun özündən yan ötməsini istəyir. Ona görə də cidd-cəhdlə regional kommunikasiyaların açılmasını sülh gündəmi baxımından əldə saxlamağa cəhd göstərir. Lakin məsələni tamam fərqli tərzdə qoyur.

Diqqət yetirək, son günlər Ermənistanın ayrı-ayrı rəsmiləri xarici nümayəndələrlə görüşlərində özlərinin Azərbaycanın Zəngəzur dəhlizi təşəbbüsünə qarşı ortaya atdıqları "Dünyanın kəsişməsi" ideyalarının reklamını gücləndiriblər. Müvafiq olaraq, Naxçıvana yolun maneəsizliyi məntiqinə cavab olaraq Ermənistanın suverenliyi və ərazi bütövlüyü klişeləri də mütəmadi tirajlanmaqdadır. Elə təqdimat var ki, guya, regional kommunikasiyaların vacib seqmenti sayılan Naxçıvana yol (Zəngəzur dəhlizi – red.) Ermənistanın ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığına ziddir. Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfindən keşik çəkən Avropa İttifaqının mülki müşahidə missiyasının aktivləşdirilməsi, xarici diplomatların sərhədə gətirilməsi haqqında söz açdığımız klişeni möhkəmləndirmək, reallığı təhrif etmək yolunda atılmış addımlardır. Sanki, İrəvanın Bakının işğalçılıq niyyətlərindən qorunmasına ehtiyacı var imiş...



Paşinyan administrasiyası regional komminikasiyaların blokdan çıxarılmasında "Dünyanın kəsişməsi" gündəmini əsas tutmaqla Ermənistanı Cənubi Qafqazda açar fiqura çevirməyə çalışır. Elə bir fiqur ki, gələcək avantürist niyyətlər naminə dünyanı şantaj etmək, fakt qarşısında qoymaq dividendi qazansın. Ermənistan rəhbərliyi hesab edir ki, "Dünyanın kəsişməsi" gerçəkləşsə, rəsmi İrəvan nə vaxtsa beynəlxalq aləmi Bakıdan güzəşt, o cümlədən, ərazi güzəşti qoparmaq üçün məcbur duruma gətirməyi bacaracaq. Paşinyan iqtidarı üçün itirilmişlərin bərpasına nail olmaq yolundakı stratejilik məhz budur. Başqa bir yandan, "Dünyanın kəsişməsi" məntiqi ilə hərəkət Ermənistana, eyni zamanda, Qərbin anti-Rusiya siyasətində iştirak baxımından da üstünlük qazandırmaq məqsədi daşıyır.

*

Ermənistan rəsmilərinin son günlər regional sülh baxımdan qaldırdıqları məsələlərdən biri də "Azərbaycanda saxlanılan erməni məhbuslar"ın durumudur. Bu, rəsmi İrəvanın anti-sülh xəttinin humanitar anlayışları sipərə çevirmə seqmentidir. Başqa sözlə desək, baş nazir Nikol Paşinyan administrasiyası çalışır ki, özünə sərfəli sülhü humanitar məsələlərə nəzərən dünyanın Azərbaycana təzyiqi kontekstində əldə etsin. Ermənistanda elə zənn edirlər ki, "Azərbaycanda saxlanılan erməni məhbuslar"la əlaqədar Bakıya təsir olsa, bu, sülh sazişinin məzmununda da özünü göstərəcək. Yoxsa, Nikol və komandasının üzvləri nəyə görə Azərbaycanda məhkəməsi davam edən ermənilərin azadlığa çıxmalarını istəsinlər ki? Axı bu şəxslər erməni iqtidarı üçün əsl problem, hətta təhdiddirlər.

Ermənistan rəhbərliyinin humanitar məsələlər müstəvisində üzərində dayandığı ikinci xətt Qarabağ erməniləridir. Daha dəqiq desək, onların bölgəyə qayıtmaları. İstər N.Paşinyan və tərəfdarları, istərsə də onların xaricdəki havadarları yaxşı anlayırlar ki, Azərbaycan dövləti Qarabağ ermənilərinin əraziyə dönüşü ilə bağlı erməni gündəmini əsla qəbul etməyəcək. Yəni, heç bir halda, qayıdış üçün beynəlxalq təminat məsələləri nəzərə alınmayacaq. Qarabağ ermənilərinin Azərbaycan vətəndaşı statusunda olmaları isə Ermənistana sərfəli deyil. Çünki bu, Qarabağ avantürasının perspektivini heçə endirir. Elementar məntiq var: Qarabağın erməni əhalisi bölgədə Azərbaycan vətəndaşı kimi qalmaq istəsəydi, qalardı.

Əlqərəz, Ermənistan hakimiyyəti Azərbaycan üçün qəbuledilməz qayıdış gündəmini beynəlxalq platformalarda ona görə tirajlayır ki, bu da sülh müqaviləsi baxımından Azərbaycana təzyiq vasitəsinə çevrilsin. Heç şübhəsiz, plan təkcə Paşinyanın deyil, ən əsası Fransa Prezidenti Emmanuel Makronun düşüncə tərzinin məhsuludur.

*

Bəli, Azərbaycanda məhkəməsi davam edən ermənilər kimi, Qarabağ ermənilərinin taleyi də nə Paşinyanın, nə də Makronun vecinədir. Hər ikisi yalnız alətdir. Əvvəldə haqqında söz açdığımız silahlanmaya birgə nəzarət mexanizmi isə Ermənistanın sərfəli sülh müqaviləsi yolundakı bəhanəsidir.

O zaman gələk, əvvəldə haqqında söz açdığımız hücum məntiqinə. Daha doğrusu, Ermənistanın silahlanma ilə əslində, təcavüzkar niyyət güdməsinə. Reallıq budur ki, Ermənistan və havadarları özlərinə sərf etməyən, avantürizm üçün perspektiv tanımayan, yuxarıda qeyd etdiklərimizin baş tutmayacağı barış mühiti ilə razılaşmadıqları üçün silahlanırlar. Silahlanmaya nəzarətlə bağlı mexanizm təklifi isə əsl niyyəti pərdələmək, həmçinin Ermənistanı mütərəqqi, sülhsevər göstərmə cəhdi və hiyləgərlikdir.

Sonda bir daha etimad quruculuğu barədə. Bəli, Ermənistan 2020-ci ildən indiyədək etimad qazanmaq üçün heç bir tədbir görməyib, əməli addım atmayıb. Halbuki, özünün işğalçı keçmişini aradan qaldırmaq üçün, ilk növbədə, məhz buna çalışmalı, səmimi mövqe tutmalı idi. Ölkə savaşdan ötən müddətdə həm çalışıb ki, yenidən güc toplayaraq itirilmişləri bərpa etsin, həm Qarabağ avantürasını saxlasın, həm də Qərbin Cənubi Qafqaz müstəvisindəki sifarişlərini yerinə yetirsin. İrəvan yenə də eyni ampluadadır. Bakı – İrəvan sülh sazişi məhz buna görə imzalanmır. Nəticədə Cənubi Qafqaz hərbi eskalasiya potensialını saxlayır. Deməli, Ermənistan regionun sosial-iqtisadi inkişafını əngəlləyir. Böyük layihələrin önünə çıxmaq, obrazlı desək, hərəkətə başlamış qatarın çarxlarına çomaq salmaq isə ölkənin yerində güclə dayanan başı üçün deyil.

**Ə.CAHANGİROĞLU**
**XQ**





# Ermənistanın xilas yolu Azərbaycandan keçir

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, Avropanın əsas ölkəsi sayılan Almaniyada sağçıların və avroskeptiklərin yüksəlişi Aİ-nin birliyini və onun yeni ölkələrə inteqrasiya imkanlarını sual altına alır. Əgər yaxın vaxtlara qədər Brüsseldə kursu avropapərəst siyasətçilər diktə edirdilərsə, indi fərqli mənzərənin şahidiyik. Seçicilər getdikcə daha çox sərt miqrasiya siyasətini, milli maraqların müdafiəsini və milli yönümlü liderləri seçirlər.

Avropanın daha bir mühüm ölkəsi və Ermənistanı müdafiə edən Fransaya gəldikdə, tam qətiyyətlə demək olar ki, hazırda ölkə prezidenti Emmanuel Makronun şəxsində bütövlükdə Makronizmin iflası yaşanmaqdadır. Sadə fransızlar hazırkı iqtidarın yeritdiyi siyasətin əlindən təngə gəliblər. Bunu onların həyata keçirdikləri çoxsaylı etiraz aksiyaları və nümayişlər də təsdiqləməkdədir. İndidən deyə bilərik ki, Makron qarşıdan gələn seçkilərdə uğur qazanmayacaq. Onun partiyasının Avropa Parlamentinə seçkilərdəki məğlubiyyəti də bunu söyləməyə əsas verir.

Bəli, bu hadisələr fonunda Ermənistanın Aİ-nin orbitində möhkəmlənmək cəhdləri, yumşaq desək, nəticəsizdir. Avropaya sözdə açıq olan qapılar, əslində, sualtı qayığın kupeləri kimi hermetik qapalıdır. Artıq aydındır ki, Aİ Ermənistanın tam inteqrasiyasını müzakirə etməyə belə hazır deyil. Xatırladaq ki, qurumun xarici siyasət xidmətinin rəsmi nümayəndəsi Piter Stano da bildirib ki, Ermənistan–Aİ danışıqlarının təşkilata üzvlüyə namizədlik ehtimalı ilə heç bir əlaqəsi yoxdur. Hətta namizədlik ehtimalı belə yoxdursa, deməli, hər şey baş nazir Nikol Paşinyan iqtidarının səs-küylü təqdimatlarındakı kimi pozitiv deyil. Digər tərəfdən, daha real namizədlər, o cümlədən, Ukrayna və Moldova artıq ciddi maneələrlə üzləşirlərsə, Ermənistandan söz açmağa belə dəyməz.

Əslində, Brüsseldə keçirilən Aİ xarici işlər nazirlərinin Ukraynaya dəstək sammiti də təşkilatda daxili böhranın mövcudluğunu göstərdi. Qurumun ali nümayəndəsi Kaja Kallas Ukrayna bayrağının rənglərinə bürünərkən, Hollandiyanın xarici işlər naziri Kaspar Veldkamp gözlənilmədən münaqişənin sülh yolu ilə həllinə ehtiyacın duyulduğunu bəyan etdi. Avropalıların getdikcə daha çox sülhdən danışmaları isə təəccüblü deyil. Xüsusən Rusiya Prezidenti Vladimir Putinlə ABŞ Prezidenti Donald Trampın telefon danışıqlarından və Ər-Riyaddakı Rusiya–Amerika məsləhətləşmələrindən sonra Avropa üçün qırmızı işıq görünür. İndi qitə dövlətləri obrazlı desək, möhkəm döyülmüş, amma hikkəsindən döyüldüyünü etiraf edib məğlubiyyətlə barışmayan balaca uşağa bənzəyirlər. "Uşaqların" sırasında isə ermənipərəstlər yetərincə çoxdur. Deməli, Ermənistan iqtidarı üçün də siyasi aqoniya qaçılmazdır. Paşinyan və komandası kimdən, hansı dövlətdən dəstək alacaq? Avropalıların özünə dəstək lazımdır. Nikol sadə ermənilərə hansı müqəddəsliyi təlqin edəcək? Axı Avropa dəyərləri yerlə birdir.

Onu da deyək ki, Ukrayna İrəvan üçün ciddi siqnala çevrilməlidir. Uzun illərdir ki, Kiyev iqtisadi və hərbi dəstəyə arxalanaraq, Qərblə əlaqələr qururdu. Amma indi yeni siyasi reallıq bu ittifaqın perspektivlərini sual altına alır. Donald Tramp açıq şəkildə bəyan edir ki, Vaşinqton ya Kiyevə yardımı əhəmiyyətli dərəcədə azaldacaq, ya da onu dəstək üçün yüzlərlə dəfə çox ödəməyə məcbur edəcək. İndi Ukraynanın Amerikaya bütün sənayesini və mineral ehtiyatlarını verəcəyini söyləmək mümkündür. Ekspert dairələri bunu Prezident Volodimir Zelenski üçün itirdiyi müharibənin bəraəti kimi qiymətləndirirlər. Belə olan durumda əminliklə vurğulaya bilərik ki, hazırkı Ermənistan hakimiyyətinin dünya düzənində baş verən əsaslı dəyişikliklər fonunda Aİ-yə inteqrasiya istəyi adi yox, ölkəyə çox baha başa gələ biləcək strateji səhvdir.

Ən acınacaqlısı isə budur ki, Ermənistan öz xilas yolunu görə bilmir. Onun xilas yolu isə Azərbaycanla səmimi münasibətlərin qurulmasında, avantürizmdən əl çəkərək ölkəmizin bütün şərtlərini qəbul etməsindədir. Nəzərə alaq ki, İrəvanın rəsmi Bakı ilə münasibətləri qaydasına salması onun bütövlükdə regional əməkdaşlıq konturlarını normallaşdıracaq, oturuşmuş məcraya salacaq. Paşinyan iqtidarı anlamalıdır ki, erməni xalqına Avropaya vizasız gedib bulka yemək yox, sistemli və dayanıqlı gəlir, bir sözlə insan kimi yaşamaq lazımdır.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Milli Məclisin Xocalı soyqırımı ilə əlaqədar müraciəti

**Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Milli Məclis tərəfindən xarici ölkələrin parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının rəhbərlərinə, parlamentlərin beynəlxalq komitələrinin sədrlərinə və beynəlxalq parlament təşkilatlarına müraciət ünvanlanıb.**



Müraciətlərdə deyilir ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalı şəhərinə hücum edərək onu bir gecədə yerlə-yeksan ediblər. Etnik mənsubiyyətlərinə görə 613 mülki şəxs, o cümlədən 106 qadın, 63 uşaq və 70 yaşlı insan qəddarcasına qətlə yetirilib. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə bir valideynini itirib. Qurbanlara misilsiz qəddarlıqla yanaşılıb. Xocalının daha 1,275 sakini girov götürülüb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi hələ də naməlumdur.

Bu soyqırımı aktının təşkilatçıları Ermənistanın siyasi və dövlət rəhbərliyi olsa da, birbaşa icraçıları Ermənistanın silahlı qüvvələrinin üzvləri, erməni terrorçu qruplaşmaları və Xankəndidə yerləşən keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının hərbçiləri olublar.

Müraciətlərdə qeyd olunur ki, Azərbaycan 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra bu gün azad edilmiş bütün ərazilərdə, o cümlədən Xocalıda genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Digər bölgələrin sakinləri kimi, doğma torpaqlarına qayıtmağa başlayan Xocalı əhalisi də öz evlərində sülh və təhlükəsizlik şəraitində yaşayacaq.

Lakin Xocalı soyqırımı qurbanları hələ də ədalətin bərpasını gözləyir. Təəssüf ki, Ermənistan bu qətliamın və digər çoxsaylı müharibə cinayətlərinin icraçılarını ədalət qarşısına çıxarmaqdan imtina edir. Ermənistanın bu fəaliyyətsizliyi və törətdiyi qanun pozuntularına görə heç bir tədbir görməməsi beynəlxalq hüququn açıq şəkildə pozulmasıdır, cəzasızlığı möhkəmləndirir və regionda çoxdan gözlənilən sülh və sabitliyə ciddi təhdid yaradır.

Həmçinin vurğulanır ki, Xocalı soyqırımı təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş bir cinayətdir. Sivil dünyanın bu soyqırımı qətiyyətlə pisləməsi gələcəkdə belə cinayətlərin törədilməsinin qarşısını almağa kömək edə bilər.

**XQ**

# İkiüzlülük sülhə yaraşmır




**Bu barədə bir dəfə yazmışdıq: əgər həkimin qoyduğu diaqnoz "hay xəstəliyi"dirsə, pasiyentin sağalacağına ümid çox azdır. Elə xəstəliklər var ki, tibb elmi onların yaranma səbəblərini tam öyrənə bilmədiyi kimi, müalicə üsullarını da kəşf etməyib. İki əsrdir hayların beynini iflic etmiş "miatsum"u da sağalmaz xəstəliklər "kateqoriyasına" aid etmək olar. Xəstəliyin görünən əlaməti odur ki, pasiyent normal, praqmatik, sağlam düşüncəli addım atmaq qabiliyyətlərini itirir.**

Sözdə özünü Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmağın, əlaqələri bərpa etməyin tərəfdarı kimi qələmə verən Ermənistan hakimiyyəti Avropaya, xüsusilə də okeanın o tayına adlayan kimi tam fərqli "mahnılar oxumağa" başlayır. Bu dəfə də eyni mənzərəni müşahidə edirik.

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan** BMT-nin İnsan Haqları




Şurasının Cenevrədə keçirilən iclasında "maraqlı" çıxış edib. Onun çıxışının maraq doğuran tərəfi odur ki,hayların baş diplomatı "Azərbaycanı Ermənistana qarşı ərazi iddialarından əl çəkmədiyini" deyib. Güman edirik ki, Mirzoyanın insan haqlarına "konseptual yanaşmasını" dinləyən avropalıların, heç olmasa, az qismində belə bir sual yaranmalı idi: 30 ilə yaxın Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayan, öz torpaqlarımızda etnik təmizləmə aparıb bir milyon azərbaycanlını qaçqın və məcburi köçkünə çevirən dövlət olaraq Ermənistan hansı üzlə insan haqlarından dəm vurur? Bu mövzunun müzakirə olunduğu tədbirdə rəsmi İrəvanın təmsilçisinin çıxışı, yumşaq desək, həyasızlıq nümunəsi sayılmalıdır.

Biz hayların izahagəlməz həyasızlığına birinci dəfə deyil ki, şahidlik edirik. İşğal dönəmində müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də Qarabağ xuntasının liderləri olmuş, əli dirsəklərinə qədər dinc əhalimizin qanına bulaşmış Ermənistanın ikinci və üçüncü prezidentləri Robert Koçaryan və Serj Sarkisyanın çıxışlarını da unutmamışıq. Koçaryanın "ermənilərlə azərbaycanlıların genetik uyğunsuzluğu" ifadəsini, Sarkisyanın britaniyalı jurnalist Tom de Vaala müsahibəsində Xocalıda törətdikləri soyqırımı ermənilərin dinc azərbaycanlıları da öldürməyə hazır olduqlarını etirafını da dana bilməzlər.

İndi də məhz Ermənistanın xarici işlər nazirliyinin rəhbəri nəinki BMT-nin İnsan Hüquqları Şurasının iclasında iştirak edir, həm də bu beynəlxalq tribunadan Azərbaycanın ünvanına açıq-aşkar yalan və təxribat xarakterli bəyanatlar səsləndirir. Bəli, Mirzoyan bəyan edib ki, Azərbaycanın Ermənistana qarşı ərazi iddiaları var.

* * *

Bu, primitiv və asanlıqla təkzib olunan yalandır. Azərbaycan Ermənistana heç bir ərazi iddiası irəli sürməyib. Azərbaycanın hüquqi aktlarında qonşu dövlətə qarşı ərazi iddiaları ilə bağlı heç bir müddəa yoxdur. Halbuki Ermənistanın Konstitusiyasında və qanunvericiliyində Azərbaycana qarşı ərazi iddiaları hələ də aradan qaldırılmayıb.

Üstəlik, Ermənistanın Türkiyəyə qarşı da ərazi iddiaları var. Amma Mirzoyan təbii ki, bu aşkar faktları dilə gətirmir. Erməni nazir qaranlıq otaqda qara pişiyi tapmağa çalışır, halbuki o, olmayıb və yoxdur. Yəni, olmayanı icad etməklə əsl problemi görməzliyə vurmağa çalışır.

Ədalət ondan ibarət olmalı idi ki, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana qarşı silahlanmaya ciddi məhdudiyyətlər qoyulmalı idi. İkinci dünya müharibəsindən sonra Almaniya və Yaponiyaya tətbiq edilən eyni şeylər. Bu prinsip konstitusiya-hüquqi aktlarında hələ də Azərbaycana qarşı ərazi iddiaları olan Ermənistan üçün vacibdir.

Amma istisna etmək olmaz ki, bu müddəalara əsaslanaraq gələcəkdə Ermənistan rəhbərləri Azərbaycana qarşı təcavüzə cəhd etməyəcəklər. Bu, belə deyil. Amma Ermənistanın törətdiyi cinayətlərin cəzasız qalması fonunda biz BMT tribunasından Mirzoyanın yalançı bəyanatlarını eşidirik. O cümlədən Qərbi Azərbaycan İcmasına qarşı. Amma burada da Mirzoyan qaçırdı. İcmanın məqsədi azərbaycanlıların 1980-ci illərin sonlarında zorla qovulduqları ərazilərə dinc yolla qayıtmasını təmin etməkdir. Bununla bağlı oxuculara Azərbaycan Prezidenti İlham Əliyevin bu il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibədən bir epizodu xatırladaq: "Ermənistanın indiki ərazisi vaxtilə bu torpaqlarda mütləq əksəriyyəti təşkil edən azərbaycanlıların tarixi torpaqlarıdır. Bu gün biz deyirik ki, 300 min Qərbi azərbaycanlı həmin rayonlara qayıtmalıdır", – deyə dövlətimizin başçısı vurğulayıb. Gördüyümüz kimi, Prezident İlham Əliyev tarixi ədalətin təntənəsi, yüz minlərlə azərbaycanlının hüquqlarına hörmət edilməsinin vacibliyini önə çəkir. Həmin müsahibəsində cənab Prezident Ermənistan baş nazirinin Qərbi Azərbaycan İcmasının nümayəndələrini qəbul etməsinin düzgün olacağını dedi: "Mən bildiyimə görə, onlar İrəvana getməyə hazırdırlar. Onları qəbul etsin, problemlərini özlərinin dilindən eşitsin. Onlar haqsız yerə oradan qovuldular. Onların ora qayıtmaq hüququ var. Bunu etməsə, o zaman hansı Avropa demokratiyasından danışmaq olar? Axı Ermənistan bu gün özünü Avropa demokratiyası yolu ilə gedən ölkə kimi göstərir. Qoy bunu əyani olaraq göstərsin".

İntəhası, Nikol Paşinyan Ermənistanın demokratik ölkə iddialarının gülünc olduğunu sübut edən bu təklifə cavab verməyə özündə cəsarət tapmadı.

* * *

Qərbi Azərbaycan İcmasının tarixi vətənlərinə sülh yolu ilə qayıtmaq haqqı beynəlxalq hüquqda təsbit olunub. Burada Ermənistana qarşı heç bir ərazi iddiasından söhbət gedə bilməz. Yəni, A.Mirzoyanın BMT toplantısındakı çıxışı "qara məni basınca mən qaranı basım" avantürasından başqa bir şey deyil.

**Mövzu ilə bağlı XQ-yə danışan Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxova** görə, yalan



və böhtan Ermənistanın həm daxili, həm də xarici siyasətinin əsas seqmentlərindən birinə çevrilib: "Onlar birinci dəfə deyil ki, ikiüzlü, riyakar davranaraq, şərləmək, şantaj üsullarına əl atırlar. Maraqlı vəziyyət yaranıb. 250 min azərbaycanlını Ermənistandan kim deportasiya edib? Bunu başqa planetdən gələnlər ediblər? Nə tez yadlarından çıxdı. Yaxud, Qarabağdan kənarda işğal etdikləri yeddi rayonumuzdan qovduqları yüz minlərlə soydaşımızın taleyi onları maraqlandırırdımı? Bəlkə bundan da xəbərləri yox idi? Rəsmi İrəvan Qərbi Azərbaycan məsələsini birinci dəfə deyil ki, qaldırır. Doğma yurdlarından çıxarılmış, indi isə halal torpaqlarına qayıtmaq istəyən soydaşlarımızın timsalında "hücuma hazırlaşan ordunu" görən hayların baş diplomatı yalan və feyk-məlumatlarla beynəlxalq ictimaiyyətdə xof yaratmaq məqsədini güdür.

Xaricdən kütləvi qırğın silahları alan Ermənistanın hərəkətləri bizim kimi, dünyanı da narahat etməlidir. Qərbi azərbaycanlılar isə öz yurdlarına qayıdacaqlar. Çünki onların ata-babaları əsrlər boyu İrəvan xanlığında yaşayıblar və hesab edirəm ki, bundan sonra da yaşamalıdırlar. Əlbəttə, biz qayıdışın silahsız, top-tüfəngsiz, dinc yolla reallaşmasının tərəfdarıyıq. Onların əks-arqument kimi irəli sürdükləri Azərbaycanın kənardan müasir silahlar alması məsələsinə gəldikdə isə bizim torpaqlarımızın 30 il işğal altında olduğunu bütün dünya bilir. Ona görə də hər zaman ərazimizə yeni işğal planlarına hazır olmalı, bunda ötrü hərbi gücümüzü artırmalıyıq. Bu reallığı təhrif etmək, dezinformasiya yaymaq üçün Ermənistanın başqa arqumenti yoxdur. Yəni, özlərinə bəraət qazandırmaq, vəziyyəti baş-ayaq göstərməkdən ötrü belə üsullara əl atırlar. Bu yolla Azərbaycana təzyiq etmək, yeni ideoloji zərbələr endirməyi düşünürlər. İrəvanın heç vaxt çatmayacağı məqsədi bundan ibarətdir".

Məsələnin daha bir maraqlı tərəfi odur ki, BMT-nin İnsan Haqları Şurasının iclasında çıxış edən Mirzoyan, mahiyyət etibarilə, yüz minlərlə azərbaycanlını qanuni hüquqlarından məhrum etməyə çalışıb. Onun arqumentsiz və primitiv fərziyyələri bunun sübutu sayılmalıdır. Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsi dağıtması və təhrif etməsi ilə bağlı vəziyyəti izləmək üçün UNESCO-nun faktaraşdırıcı missiyasının ölkəyə səfərinə icazə verməlidir. İrəvan bunu etmir. Bunun əvəzində hayların xarici siyasət idarəsinin rəhbəri 30 il ölkəmizin müvəqqəti işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşdırılmış gəlmə ermənilərlə bağlı mövzu ətrafında spekulyasiya etməyə çalışır. Həmin ərazilərin vəhşicəsinə talana, milli-mədəni irsin dağılmaya məruz qaldığını sübuta yetirən kifayət qədər fakt, sənədli sübut və şahidlər var.

* * *

Ermənistan 30 il BMT və digər beynəlxalq təşkilatların faktaraşdırma missiyalarının Azərbaycanın işğal olunmuş ərazilərinə baş çəkmələrinin qarşısını alıb. Bunun niyə baş verməsinin səbəbi indi hamıya aydındır. A.Mirzoyanın özü də hər şeydən yaxşı xəbərdardır, amma buna baxmayaraq ağ yalan danışır. Yeri gəlmişkən, BMT missiyaları 2023-cü ildə keçirilən antiterror tədbirindən sonra Qarabağ bölgəsinə iki dəfə səfər edib və hesabatlarında bölgədə etnik təmizləmə və zorakılıq aktlarının qeydə alınmadığını qeyd ediblər.

Daha bir məqamı qeyd etməyi vacib sayırıq. Rəsmi İrəvanın beynəlxalq platformalarda "Dağlıq Qarabağ" hekayətini təbliğ etməsi sülhə xidmət etmir, əksinə, erməni siyasi isteblişmentində hələ də revanşist əhval-ruhiyyənin qorunub saxlandığını göstərir. Əgər Ermənistan, həqiqətən də, davamlı sülhə can atırsa, öz ərazisində keçmiş qondarma rejimin nümayəndələrinin iştirakı ilə tədbirlərin keçirilməsinə, o cümlədən onun "prezidenti" və "parlamenti" adından bəyanatların səsləndirilməsinə, İrəvanda bu rejimin "bayrağının" dalğalanmasına, "ofislərinin" saxlanmasına imkan verməməlidir. O da aydındır ki, Ermənistan sülh prosesi kontekstində Qarabağda insanlığa qarşı törətdikləri cinayətlərə görə məsuliyyət daşıyan Levon Ter-Petrosyan, Robert Köçəryan, Serj Sarkisyan, Seyran Ohanyan və başqalarını özü məsuliyyətə cəlb etməlidir.

Özünü demokratik adlandıran ölkədə birinci prezidenti Ter-Petrosyanın azərbaycanlılara qarşı etnik təmizləmə ilə bağlı son etiraflarından sonra cinayət işi açılmalı idi. Fəqət, Ermənistan hüquq-mühafizə orqanları bu videolara məhəl qoymur, heç nə olmayıbmış kimi davranır.

Bütün bunların fonunda Ararat Mirzoyanın BMT-nin tribunasından Qarabağ xuntasının hərbi cinayətlər törətməkdə təqsirləndirilən keçmiş liderlərinin Bakıda davam edən məhkəmə prosesini hansısa formada şərh etmək cəhdi riyakarlığın bariz nümunəsidir. Əslində, bu xətt Ermənistan XİN rəhbərinin Cenevrədəki çıxışının leytmotivini təşkil edirdi. Yalan və ikiüzlülük heç vaxt ölkələr arasında sülhün bərqərar olmasına kömək etməyib. İndi elə məqam yetişib ki, İrəvan rəsmiləri belə mötəbər məclislərdə özləri danışıb özləri də eşidirlər.

Məşhur lətifədə deyildiyi kimi, çəlləyin üstündə alovlu natiqdən hamı bezib dağılışır, amma bir "dinləyici" getməyib gözləyir. Sonda məlum olur ki, yalançının çıxışına dözən çəlləyin sahibi imiş.

Əvvəldə yazdığımız kimi, sağalmaq perspektivi olmayan pasiyenti həkim uzun müddət ətraf aləmdən təcrid edir. Ermənistan özü-özünü dalana salıb. Haylar bunun fəsadlarını həyatın bütün sahələrində hiss edirlər.

***İmran BƏDİRXANLI***
***XQ***

# Brüssel İrəvanı tələyə salır?

**Qərb Ermənistanı Rusiyadan uzaqlaşdırmağa çalışır. Bunun üçün müxtəlif şirnikləndirici vədlər verməkdən də çəkinmir. Belə vədlərin sayı isə hər gün artır. "Brüssel Ermənistanın Avropa İttifaqına (Aİ) daxil olmaq üçün cəsarətli addımını dəstəkləməli və İrəvanın tək qalmamasına təminat verməlidir". Bunu ispaniyalı deputat Con İnarritu deyib. Onun sözlərinə görə, Ermənistanın yeri Avropadır: "Mən inanıram ki, istər mədəni, istərsə də tarixi əlaqələr baxımından Ermənistanın yeri həmişə Avropada olub. Aİ Ermənistana Avropa ailəsində öz layiqli yerini bərpa etməsi üçün dəstək verməlidir".**

Millət vəkilinin sözlərinə görə, Ermənistanın Aİ-yə üzvlüyü prosesinin vətəndaş imzalarının toplanması yolu ilə irəli sürülməsi və mühüm ictimai dəstək alması çox önəmlidir: "Bu, vətəndaş cəmiyyətinin Ermənistanın milli siyasətinin formalaşdırılmasında, eyni zamanda, Avropa ilə əlaqələrinin inkişafında artan rolunu göstərir".



Onun sözlərinə görə, Ermənistanın Aİ-yə üzvlüyü regionda təhlükəsizliyi təmin edəcək, müxtəlif sahələrdə əməkdaşlığı artıracaq.

İlk baxışdan hər şey gözəl görünür. Sanki, Aİ-yə üzv ölkələr Hayastanı öz sıralarında görmək üçün sinov gedirlər. Amma reallıq tamamilə başqadır. Əslində, heç bir ölkə Ermənistanı bu qurumda görmək istəmir. Bunun da bir sıra sıra səbəbləri var. Birincisi, Aİ ölkələri ilə heç bir sərhədi olmayan, imkanları məhdud, təbii resursları zəif, hər il dövlət borcu artan, ixrac üçün dünya standartlarına uyğun gəlməyən iqtisadiyyatı Rusiyanın monopoliyasında can verən bir ölkəni niyə üzv qəbul etsin ki? İrəvan zəif iqtisadiyyatı ilə onlara əlavə yükə çevrilə bilər. Hayastanda istehsal olunan keyfiyyətsiz mal Aİ-də kimə lazımdır?

İkincisi, qanunvericilik sahəsində də ciddi fərqlər var. Ona görə də İrəvan idarəetmə, qanunun aliliyi və iqtisadi inkişaf kimi sahələrdə əhəmiyyətli islahatlar aparılmalıdır. Bu, vaxt tələb edir, İrəvan isə buna hazır deyil.

Üçüncüsü, Aİ qonşuları ilə problemləri olan ölkəni sıralarında görmək istəməz. Bu səbəbdən də Ermənistan həm Azərbaycan, həm də Türkiyə ilə problemlərini həll etməli, Azərbaycanla sülh müqaviləsi bağlamalıdır. Bundan sonra ixrac və idxal məsələləri üçün Ermənistanın dünyaya yolu açıla bilər. Söhbət həm də Zəngəzur dəhlizinin işə düşməsindən gedir.

Amma qonşularla problemin həlli də Ermənistanı dərhal Aİ-yə qəbul edəcəkləri anlamına gəlmir. Yada salaq ki, Aİ genişlənmə baxımından kifayət qədər ləng və həvəssiz hərəkət edir. Qərarlar da mürəkkəb və uzun müddət ərzində, fikir ayrılıqları fonunda qəbul edilir. Ermənistanın Aİ-yə namizəd statusu alması çox uzun illər apara bilər. Brüsselin bu qərarı çox uzun müddət təxirə salacağı, geosiyasi oyunlarına davam edəcəyi istisna deyil. Türkiyə, Ukrayna və Gürcüstan uzun illərdir Aİ-yə üzv qəbul edilmir.

Digər tərəfdən, Ermənistan – Rusiya münasibətləri və bu kontekstdə Moskvanın mümkün reaksiyasını da unutmaq olmaz. Onu da xatırlamaq lazımdır ki, Rusiya Ermənistanla Aİ arasında daha sıx əlaqələrə mane olmaq üçün genişmiqyaslı kampaniyaya başlayacaq. Bu da sonda Hayastanın xeyrinə olmayacaq. Çünki Hayastan iqtisadiyyatı Aİ ilə deyil, Avrasiya İqtisadi İttifaqı (Aİİ) ilə sıx bağlıdır. Ölkənin aparıcı şirkətlərində Rusiya əsas pay sahibidir. Əgər İrəvan Aİ-yə üzvlükdə israrlı olarsa, Aİİ-yə üzvlüyün verdiyi bütün üstünlüklərini itirəcək. Bundan başqa, Aİ-yə daxil olmaq Ermənistandan Rusiya və onun əsas tərəfdaşları olan İrana qarşı sanksiyalar tətbiq etməsini tələb edəcək. Nəticədə Ermənistan həm strateji müttəfiqlərini itirəcək, həm də iqtisadi və geosiyasi problemlərlə üzləşəcək. Ermənistan da bunu istəməz. Qısası, onun Aİ-yə üzvlük məsələsi inandırıcı deyil. Heç kim onu bu qurumda gözləmir.

Aİ-yə daxil olmaq üçün təşəbbüsün müəllifləri və təşkilatçıları da hazırda quruma üzvlüyün mümkün olmadığını yaxşı başa düşürlər. Onların məqsədi Ermənistanın Avrasiya İqtisadi İttifaqından çıxartmaqdır. Bununla gələcək böyük oyuna baza yaratmaq istəyirlər.

Yada salaq ki, Ermənistan parlamenti fevralın 12-də keçirilən növbəti iclasında ölkənin Aİ-yə daxil olması prosesinin başlanması ilə bağlı qanun layihəsini birinci oxunuşda qəbul edib. Qanunun lehinə 63 deputat, əleyhinə isə 7 deputat səs verib. Sənədin qəbulunu yalnız hakim "Mülki müqavilə" fraksiyasının nümayəndələri dəstəkləyiblər. Müxalif "Ermənistan" fraksiyası səsvermədə iştirak etməyib, digər müxalifətçi – "Mənim şərəfim var" əleyhinə səs verib.

**Milli Məclisin deputatı Elşad Musayev deyir:** "Ermənistan hökuməti bir neçə



istiqamətdə fəaliyyət göstərməyə çalışır. Bir vaxtlar Rusiyadan hərbi, Avropadan isə iqtisadi dəstək alırdı. Sonra vəziyyət dəyişdi. İndi haylar Avropadan hərbi dəstək alırlar. 2024-cü ildə Avropa İttifaqı Şurası Avropa Sülh Fondu hesabına Ermənistana 10 milyon avro məbləğində hərbi yardım göstərib. Aİ yaxın zamanda Ermənistana müdafiə qabiliyyətini artırmaq üçün növbəti tranş ayırmağa hazırlaşır. Artıq vəsaitin ayrılması ilə bağlı ilkin razılıq da var. Bu vəsaitin də Ermənistanın silahlanması üçün istifadə olunacağı şübhə doğurmur. Avropa İttifaqı tərəfindən belə saxavət açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır.

Yada salaq ki, haylar Fransadan və Hindistandan silah-sursat alırlar. Buna parallel olaraq ABŞ-dan da hərbi yardım almağa çalışırlar. Haylar Aİ-yə daxil olmaqdan da dividend götürmək istəyirlər. Unutmayaq ki, qurumun xristian təəssübkeşliyi də diqqəti cəlb edir.

Amma nəzərə alaq ki, Hayastan Rusiyanın forpostudur və ondan həm iqtisadi, həm də siyasi cəhətdən asılıdır. Ermənistan iqtisadiyyatının əsas rıçaqları Moskvanın əlindədir. Ermənistan nə qədər çalışsa da Aİ-yə daxil ola bilməyəcək, Rusiya buna imkan verməyəcək. Avropanın aparıcı ölkələri də heç vaxt Ermənistanı Aİ-yə üzv qəbul etməyəcəklər. Çünki Aİ ölkələri arasında da Qərbin özündən narazılıqlar artmaqdadır.

Hər halda hesab edirəm ki, birmənalı şəkildə Hayastanın Avropa İttifaqına üzvlüyü mümkün deyil. Çünki Aİİ-dən çıxış və Aİ ilə daha yaxın münasibətlərin qurulması halında İrəvan çox ağır vəziyyətə düşəcək. Bundan başqa, Avropa İttifaqına üzvlük olduqca uzunmüddətli prosesdir və təşkilatın müxtəlif sahələrdə müəyyənləşdirdiyi çoxsaylı meyarlara tam uyğunlaşmaq tələb olunur".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# "O zaman Heydər Əliyev hakimiyyətdə olsaydı..."

**Müsahibimiz Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, şair-dramaturq Hidayət Orucovla bügünkü söhbətimizin mövzusu ümummilli lider Heydər Əliyevin 1987-ci ildə Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçov tərəfindən hakimiyyətdən uzaqlaşdırıldıqdan dərhal sonra keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndinin (keçmiş Stepanakert) separatçılıq və terrorizm meydanına çevrilməsi və bu bölgədə baş verən hadisələr haqqındadır.**



***– Hidayət müəllim, bəzən tarix, baş verən hadisələri uzun illər sonra qələmə alan tədqiqatçı alimlərin yazdıqları əsərlərdən çox, o tarixi yaşamış insanların xatirələrdə daha obyektiv və daha dəqiq mənzərə yaradır. Bu mənada uzun illər Ermənistanda yaşayıb fəaliyyət göstərmiş, Bakıya köçəndən sonra da doğma yurdu Qərbi Azərbaycanın taleyini taleyində yaşamış şair-dramaturq Hidayət Orucovun xatirələri gələcək nəsillər, elə tarixçi alimlər üçün də çox qiymətli mənbə ola bilər. Erməni separatizmi 1980-ci illərin sonlarından, xüsusilə Ulu öndər Heydər Əliyev hakimiyyətdən məqsədli şəkildə uzaqlaşdırıldıqdan sonra nədən yeni bir dalğa ilə məhz Xankəndidə od püskürməyə başladı? Bununla bağlı xatirələriniz varmı?***

– Olmaya bilərmi? Əlbəttə var, həm də çoxdur. Onların içində şirin xatirələr də var, bu gün yada düşəndə içimi yandıran, yanlışlarımızın nədən irəli gəldiyini təkrar-təkrar düşündürən, gələcək nəsillərə çatdırılması vacib olanlar da.

Vaxtı ilə yazdığım publisistik qeydlərimdən biri belə idi ki, həyatda heç kəs mübarizəsiz təslim olmaq istəmirdi. O yazı bizim Qərbi Azərbaycandakı soydaşlarımızın, buradakı qeyrətli ziyalılarımızın, xüsusilə yazıçı və şairlərimizin mübarizəsinin bir rəmzi idi. Yəni mən onları nəzərə alaraq o qeydlərimi qələmə almışdım.

Qərbi Azərbaycanda, Ermənistanda baş verənlər uzun müddət publika üçün, xüsusilə burda, Azərbaycanda yaşayan ictimaiyyət üçün qapalı bir mövzu idi və Moskva bunu belə saxlayırdı. Bu, sanki sonradan işə düşəcək güclü bir partlayıcıya bənzəyirdi. Buna bizim içimizdən olanlar da, o dövrdə sovet hakimiyyətinin yuxarı eşalonlarından tutmuş, bir çox səviyyələrdə çalışan məmurlar da imkan vermirdilər. Amma bu məsələ uzandıqca onun partlayıcı gücü də artırdı. Bunu başa düşən çox az adam vardı. Ən əsası 1987-ci ilin noyabrından sonra isə bu məsələləri bütün incəlikləri ilə bilən, lazımi vaxtda lazımi müdaxilələrlə onları lokallaşdırmağı bacaran ümummilli liderimizi Mixail Qorbaçov böyük erməni hiyləsi ilə hakimiyyətdə uzaqlaşdırıb təqib altında saxlayırdı.

Konkret məsələlərlə bağlı hadisələrə keçmək istərdim. Ömürdən gedən, amma izi içimdə hələ də dərin yaralar buraxan 1988-ci ilin bu vaxtları, yəni fevral ayı yadıma düşür. Çox bəlalı günlərimiz başlamışdı. Fevralın 16-17-si olardı. O vaxt Azərbaycan KP MK-nın təbliğat-təşviqat şöbəsində sektor müdiri vəzifəsində çalışan məşhur şairimiz Vahid Əziz mənə telefon açdı. Hal-əhval tutandan sonra dedi: "Bizimlə Stepanakertə (indiki Xankəndi) gedərsən?" Mən də eynən onun tərzində, bir qədər də ciddi tonda dedim: "Sizsiz də gedərəm, niyə getmirəm!..."

Vahidin bu sözlərinin altında başqa bir məna vardı. Artıq Stepanakertdə separatçı, mən deyərdim terror və iğtişaşlar başlamışdı. Digər tərəfdən də Vahid yaxşı bilirdi ki, mənim yaradıcılığımda Qərbi Azərbaycan, bu regionda baş verən hadisələr, qatı erməni millətçiliyindən irəli gələn təqib və təzyiqlər gizli, açıq həmişə xüsusi yer tutub. O vaxt əlbəttə sovet senzurasını yarıb keçmək çox çətin idi, amma buna baxmayaraq, imkan düşən kimi müxtəlif ədəbi-bədii priyomlarla buna müyəssər olmağa çalışırdım. Vahid onu da bilirdi ki, Ermənistanda da, o vaxtkı Dağlıq Qarabağda da məni qeyri-rəsmi persona-non-qrata elan etmişdilər.

Evdə Aran rayonlarından birinə, səhv etmirəmsə, Kürdəmirə getdiyimi söyləyəndə soruşdular ki, niyə gedirsən? Dedim, oxucularla görüşlərimiz var. İstəmirdim ki, evdə narahat olsunlar. Səhər tezdən diqqət çəkmədən lazımi pal-paltarı çantama yığıb evdən çıxdım və işə yola düşdüm. Axşam da işdən birbaşa dəmiryol vağzalına. Baxdım ki, Bakı-Ağdam qatarının demək olar bir vaqonu elə Vahid Əzizin rəhbərliyi ilə toplanan bizim nümayəndə heyətidir. Dövlət Mətbuat Komitəsindən sədrin müavini Boris Nikolayev və müvafiq idarənin rəisi də bizimlə idi. Onları da ona görə nümayəndə heyətinin tərkibinə salmışdılar ki, erməni şovinistləri Stepanakertdə çıxan yerli qəzetin nəşrini dayandırmışdılar və nəşriyyatı işləməyə qoymurdular.

Boris Nikolayev poliqrafiya üzrə müavin idi, onu Qazaxstandan Bakıya gətirib bura qoymuşdular ki, guya Azərbaycanda bir poliqrafiya mütəxəssisi yetişdirə bilmirdilər.

Azərbaycan Teleradio Komitəsinin çəkiliş qrupu da bizimlə idi. Sonralar – 1993-cü ildən Azərbaycan Teleradio Komitəsinin sədri işləyən Babək Hüseynoğlu qrupun rəhbəri idi. Hətta Mərkəzi Komitənin, Ali Sovetin və Nazirlər Sovetinin orqanı olan və erməni dilində çıxan "Kommunist" qəzetinin redaktoru da burada idi. Bu redaktor da qatı millətçi erməni idi. Ona görə də həmin qəzet o hadisələr başlayandan demək olar, ermənilərin əleyhinə heç nə dərc etmirdi. Demək olar bir vaqonun sərnişinləri bizim nümayəndə heyətindən ibarət idi.

***– Hidayət müəllim, yadımdaykən soruşum, ümumiyyətlə, ermənilərin Bakıda yaşayan vəzifəliləri arasında belə, millətçi olmayan var idimi?***

– Mən bu sualınızla bağlı düşüncələrimi bir neçə dəfə yazılarımda bildirmişəm. Uzun illər Ermənistanda da çalışdığım üçün onların ən sayılıb-seçilən ziyalıları ilə münasibətim olub. Qəti deyə bilərəm ki, ermənilərin arasında millətçi olmayanı mən görməmişəm. Elə erməni görməmişəm ki, onun içində Qarabağa sahib olmaq istəyi olmasın, Naxçıvanı istəməsin, müasir Türkiyənin ərazisinin ən azından 5-dən birini istəməsin: Qars, Van, Sarıqamış və s. Yeri düşəndə "dənizdən dənizə Ermənistan" xülyasından dəm vurmayan erməni belə görməmişəm. Belə erməni demək olar ki tapmaq mümkün deyil, çünki yoxdur.

Amma deməliyəm ki, bu ermənilərin iki kateqoriyası var. İçərilərində elələri var ki, öz ürəklərindən keçən o xülyaları, arzuları açıq bildirmirdilər. Bu amalları naminə işlədiklərini və yaşadıqlarını əsla büruzə vermirdilər.

Bilirsiniz ki, mən 39 yaşına qədər Qərbi Azərbaycanda yaşamışam. 18 il bu respublikanın paytaxtı İrəvanda yaşayıb fəaliyyət göstərmiş, quzu libasına bürünmüş "canavar"ların içində olmuşam. Əlbəttə mənim orada normal münasibətdə olduğum adamlar da olub. Normal o mənada deyirəm ki, onlar, əvvəldə dediyim kimi ikinci kateqoriyadan olan ermənilər olublar, yəni xislətlərini açıq büruzə verməyiblər. Etiraf edim ki, aralarında o xülyaların baş tuta biləcəyinə inanmayanlar da var idi. Bilirdilər ki, zaman keçdikcə bu istəkləri baş tutmayacaq. Xüsusilə ulu öndər Heydər Əliyev Moskvaya Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə gedəndən sonra Ermənistan böyük bir matəm yaşadı. Sanki bütün arzuları daşa dəymişdi. Ulu öndəri vəzifədən uzaqlaşdırandan sonra isə bütün ermənilər bayram edirdi...

Qayıdaq əvvəlki hadisələrə. Qatarla getdik Ağdama, oradan da avtomobillərlə yola düşdük Stepanakertə. Çatanda bildik ki, Azərbaycan KP MK-nın bir sıra üzvləri, hətta birinci katib Kamran Bağırov da artıq burdadır.

Səhər saat 8:30 olardı, DQMV Partiya Komitəsinə çatdıq. Hələ iş saatı başlamamışdı. Birinci mərtəbənin foyesinə toplaşıb söhbət edirdik, bu məqamda Kamran Bağırov gəldi və ümumi şəkildə hamıyla salamlaşdı. Bundan 1 saat keçməmiş vilayət Partiya Komitəsinin qarşısındakı o böyük meydan, indi bizim Ali Baş Komandanımız İlham Əliyevin parad qəbul etdiyi həmin meydan, bir anın içində insanlarla doldu və böyük bir izdiham yarandı. Mən çox izdihamların, çox kütləvi toplantıların şahidi olmuşdum, ancaq elə izdiham, coşqu, qana susamış ehtiraslı insan kütləsi görməmişdim. İlk ağlıma gələn bu oldu ki, bunlar təlimsiz, başıpozuq halda belə mütəşəkkil şəkildə bura toplaşa bilməzlər. Bu insanları, görünür, çox ciddi şəkildə buna hazırlayıblar, təlimatlandırıblar və düşünülmüş şəkildə idarə edirlər.

Həqiqətən də müəyyən vaxt keçəndən sonra müəyyən olundu ki, bunların ideoloji mərkəzi bir neçə il əvvəl açılmış Stepanakertdəki universitet və Stepanakert Dövlət Dram Teatrı olub. Bu məşqlər, təlimlər məhz Dram Teatrın səhnəsində baş tutub. Separatçı terrorçuların rəhbərlərinin əsas qərargahı da məhz teatr binası olub və bütün hazırlıqlar əsasən burada planlaşdırılıb. Meydanda açıq görürdüm ki, bu kütlə kimlərinsə əl işarələri ilə hərəkətlər edir, eyni şüarları bağırır və fasiləsiz, dayanmadan meydan sulayırlar. Ən çox qışqırdıqları da "miatsum", bir də "razum" sözləri idi.

"Razum" sözünü təsadüfi işlətmirdilər. Çünki o vaxtı Sov.İKP MK-dan Razumovski gəlmişdi və elə ona işarə idi ki, düşünün, qərar verin, deyə hakimiyyətə təzyiq edirdilər. Bəzən yaxınlığımdan keçən ermənilərdən eşidirdim ki, "Razumovski gəlib, işlər düzəlir. Söz verib". Sevinclərini büruzə verirdilər. Əlbəttə erməni dilində danışırdılar, mən də başa düşürdüm. Belə bir vəziyyətdə bu sözləri eşitdikcə içimdə bir tufan qalxırdı, az qalırdı bağıram ki, "bunu yuxuda görərsiniz"...

Oradakı bütün yazıçı və şairləri tanıyırdım. "Gənclik" nəşriyyatının baş redaktoru idim və hamısı ilə əlaqələrim var idi, gəlib gedirdilər, kitab nəşr etdirirdilər. Bakıdan gedəndə öz düşüncəmlə yaxşı tanıdığım, xüsusi münasibətim olan erməni yazıçı və şairlərindən 2 nəfərin telefonunu yazıb götürdüm. Onlardan biri uşaq yazıçısı və şairi Qurgen Qabrielyan idi. Qərbi Azərbaycanda da yaxşı tanınırdı. Hələ mən İrəvanda yaşayanda erməni yazıçıları onun haqqında mənə çox danışmışdılar.

Biri də Sokrat Xanyan. O da şair idi. Bu ikisinin telefonunu yazıb götürdüm, fikirləşdim birdən lazım olar. Çünki onlar da mənə xüsusi münasibət bəsləyirdilər. Hər dəfə Bakıya gələndə mütləq mənə baş çəkirdilər. Söhbət edəndə mənə dostluqdan, qardaşlıqdan, vəfadan, sədaqətdən dəm vururdular. Yanımda Ermənistandakı millətçi hərəkətləri tənqid edirdilər. Gözümdə yaxşı görünürdülər deyə, mən də kitab nəşri ilə bağlı nə xahişləri olurdusa, kömək edirdim. Hətta bəzən Qarabağdan sovqat – tut arağı, bal, çaxır gətirirdilər.

Mitinqləri müşahidə etdiyim elə ilk günü gördüm ki, Qurgen Qabrielyan tribunadadır, odlu-alovlu danışır. Elə ilk sözü bu oldu: "Mənim zülmlərə, əzablara məruz qalmış xalqım." Təsəvvür edirsiz də ilk sözü belə olanın çıxışının sonrası nə olar? Bu məni çox mütəəssir etdi və dərin təəssüf hissi keçirdim ki, mən bunu necə tanımamışam, axı bu mənə Bakıda tamam başqa şeylər danışırdı.

O vaxt da yanımda Dövlət Təhlükəsizlik Komitəsinin vilayətdəki şöbəsinin azərbaycanlı əməkdaşı dayanmışdı. Dedim bu mənim yanıma gələndə tamam başqa şeylər danışırdı. Qayıtdı ki, Hidayət müəllim, bunların hamısı belədir. Soruşdum: "Sokrat Xanyan neyniyir, o haralardadır?" Çünki onun da telefonunu yazmışdım. Bu əməkdaş mənə dedi: "Sokrat dediyiniz bundan da qorxulu adamdır. O saman altından su yeridir, ona görə belə yerlərdə görünməz, amma bundan betərdir".

Sonra mən bizimlə Stepanakertə gələn Respublika Mətbuat Komitəsi sədrinin müavini və idarənin rəisi ilə birlikdə vilayətdəki mətbəəyə baş çəkməyə getdik. Moskvanın nümayəndələrindən də bir-iki nəfər bizə qoşuldu. Mətbəənin direktoru üzə çıxmadı. Direktoru da o zaman Azərbaycan Respublikasının Mətbuat Komitəsi təyin edirdi. Mətbəəni gəzdik, vəziyyətlə tanış olduq. Elə yerindəcə mənə bəzi işlər tapşırdılar. Hətta Moskvadan gələn məmurlara tərcüməçilik də etdim, çünki ermənilərin heç də hamısı rus dilində yaxşı bilmirdi, bilənlər də danışmaq istəmirdilər.

Mənim hörmət etdiyim adamlardan biri də Livon Adyan idi. O, Bakıda yaşayırdı, erməni dilində çıxan "Ədəbi Azərbaycan" jurnalında şöbə müdiri işləyirdi. Mən də o jurnalın redaksiya heyətinin üzvü idim. Livon Adyan mənim yanımda həmişə erməniləri millətçiliyə görə tənqid edirdi. Deyirdi: "Onlar namərddilər, yaramazdılar. Onlar İrəvandan idarə olunurlar və s." Stepanakertdə (Xankəndi) hotelin qarşısında Livon Adyan mənə rast gəldi. Hotel də meydanın başqa bir tərəfindədir. Mən yarızarafat, yarıgerçək, meydanı göstərib dedim: "Levon, bu nə həngamədi burda çıxarmısan?" Bu bir qədər alçaq səslə, kimsənin eşidə bilməyəcəyi tərzdə dedi ki, bu işlərin hamısının başında Vilayət Aqrar Sənaye Kompleksinin sədri durur. Çox imkanlı, varlı-karlı adamdır, bütün bu həngamələri o maliyyələşdirir..."

Bu söz mənim yaddaşıma hopdu. Gecələr Stepanakertdə (Xankəndidə) qalırdıq. Mən Vilayət Partiya Komitəsindən çox az gec çıxdım. Səhəri gün yenə gəldik bura. Saat 2-3 olardı, yoldaşlar mənə dedilər: "Siz gedib bir az dincəlin. Ötən gecə də gec yatmısız". Gəldim hotelə, elə təzə uzanmışdım ki, bir az dincəlim, qəfil meydan tərəfdən xüsusi bir coşqu, gurultu qopdu. Tez durub hotelin meydana baxan eyvanına çıxdım. Burda da bir neçə adam vardı. Soruşdum: "Nə baş verib, nə olub belə?"

Dedilər: "Qarabağı verdilər!" Bu sözlər elə bil ildırım kimi qulaqlarımda çaxdı. Donub qalmışdım. Birtəhər özümə gəlib sürətlə hotelin birinci mərtəbəsinə düşüb qapıdan çıxdım və meydana tərəf getdim. Baxdım ki Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov tribunada dayanıb, meydana toplaşanların bağırtısı, alqışları ona danışmağa imkan vermir. Gördüm Levon yenə burdadır. Soruşdum: "Kamran Bağırov nə deyir?" Dedi: "Kamran Bağırov deyir Vilayət Partiya Komitəsinin Bürosu qərara gəlib ki, bu gün saat 4-5 radələrində Plenum çağırılsın. Büro tövsiyyə edir ki, Gevorkov işdən azad edilsin". Axırı kənardan yenə kiminsə işarəsi ilə kütlə səsini kəsdi və Kamran Bağırov sözünə davam etdi: "Vilayət Partiya Komitəsinin Bürosu məsləhət görür ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsinin birinci katibi Henrik Poğosyan seçilsin". Yenə meydan kükrədi, alqışlar, qışqırıqlar ərşə qalxdı. Levondan soruşdum: "Bu, Poğosyan kimdir?". Gördüm bunun gözləri parıldadı və fəxrlə dedi: "Aqrapromun sədridir..."

Sonra öz-özümə düşündüm ki, yaxşı mən bir günün içində gəlib Stepanakertdə Poğosyanın kim olduğunu, burada hansı işlər çevirdiyini öyrənə bilirəmsə, bəs onda Mərkəzi Komitə, Azərbaycanın Dövlət Təhlükəsizlik Komitəsi bunu niyə öyrənə bilmir?"

Bundan sonra istirahət yada düşər?! Gəldim Vilayət Partiya Komitəsinə. Yaxından tanıdığım, tanımadığı məmurların hamısına, Mərkəzi Komitənin vəzifəli şəxslərinə Poğosyanın kim olduğunu dedim. Ən yaxşı halda bir çoxları susdu. Amma mənə deyənlər də oldu ki, "əşşi vəzifədi verərik, səsini kəsər. Bu həngamə də aradan qalxar". Bunlar elə bilirdilər ki, vəzifə verəcəklər, bununla da ermənilərin ağzını yumacaqlar. Amma zaman göstərdi ki, heç də belə deyil.

Bundan bir gün qabaq da Vilayət Partiya Komitəsinin birinci katibi oturan mərtəbədə foyenin meydana baxan pəncərəsindən mitinqi müşahidə edir, bu şovinizm və terrorizmin bizi hara apara biləcəyini düşünürdüm. Siqareti tüstülədib acı-acı içimdə danışırdım. Bu məqamda kimlərinsə yaxınlaşdığını hiss etdim. Birdən səs gəldi: "Çto tam kriçat?" Çöndüm ki, Kamran Bağırovdur, mühafizəçilər də kənardan müşahidə edir. Əvvəl elə başa düşdüm ki, o bu sualı mühafizəçilərə verir. Amma mühafizəçilər susduğu üçün düşündüm ki, erməni dilində bilmirlər, ona görə də mən cavab verdim. Meydan "Miatsum, miatsum" deyə dayanmadan qışqırırdı. Dedim: "Deyirlər – "Birləşmək, birləşmək!" Dedi: "Çto to ne poxoj". Təkrar izah elədim, bundan sonra bir az sakitləşdi. Bir qədər sonra elə bil məni tanıdı. Dedi: "Siz bunları yaxşı tanıyırsız. Necə bilirsiniz, biz neyləyək ki, bunların səsi kəsilsin, qan tökülməsin?"

Mən uydurma erməni soyqırımının İrəvanda 50 illiyinin qeyd edildiyi 1965-ci ildən başlamış, erməni millətçilərinin apardıqları gizli təbliğat və təşviqatları, Qərbi Azərbaycanda azərbaycanlılara qarşı təqiblər, repressiylar, fitnə-fəsadları və sairəni icmal şəklində hamısını ona danışdım. Dedim: "1965-ci ildə hökumət 1915-ci il qondarma erməni soyqırımını İrəvanda Opera və Balet Teatrının binasında qeyd edirdi, millətçilər ora dolandan sonra, onlar çıxıb getdilər. Radikal erməni şovinistlər tədbiri daha kəskin çıxışlarla davam etdirdilər. Tədbirdən sonra şəhərə nümayişə çıxdılar. Bundan sonra böyük izdihamla hava limanına gedən yola çıxdılar. Ancaq bundan sonra ordu onların qarşısını kəsib, izdihamı dağıtdı. Bu proseslərdən sonra Ermənistan KP MK-nın birinci katibi Zarubyanı işdən çıxarıb, yerinə Koçinyanı təyin etdilər. Amma bu proseslər yenə gizli şəkildə davam edirdi. Çünki Koçinyan sələfindən daha qatı millətçi idi. Sonra İrəvanda soyqırımı abidəsinin qoyulmasını misal çəkdim və bu siyasətin onların rəsmi orqanları səviyyəsində davam etdiyini bildirdim. Mən danışdıqca o mühafizəçidən siqaret alıb tüstülədirdi. Tez-tez də soruşurdu: "Yaxşı, biz neyləyək ki, qan düşməsin?" Axırda dedim: "Kamran müəllim, bu meydan bu gün dağıdılmalıdır. Belə davam etsə, bunun axırı çox pis olacaq. Onlar bilməlidirlər ki, dövlət onların istəyi ilə oturub-durmaycaq". Fikrimi davam etdirib dedim: "Bu meydanda mənə müsbət təsir edən ən doğru və obyektiv çıxış Zaqafqaziya Hərbi Dairəsinin komandanının çıxışı oldu. O general dedi ki, "mən əsgərəm, bu dəqiqə mənə əmr versinlər, bu meydanı bir saatın içində təmizləyim".

Kamran Bağırova dedim: "Əvvəlcə bu meydan təmizlənməlidir, ikinci- Azərbaycan-Ermənistan sərhədi nəzarətə götürülməlidir, üçüncüsü-Ermənistanda yaşayan azərbaycanlıların təhlükəsizliyi təmin olunmalıdır, fövqəladə vəziyyət elan olunmalıdır..." 15 dəqiqədən artıq danışdıq. Əlbəttə, Kamran Bağırovun çətin bir vəziyyətə düşdüyünü, çıxış yolu tapa bilmədiyini və bundan əzab çəkdiyini görürdüm. Amma onu da hiss edirdim ki, o zəif adamdır. Nəhayət, söhbətimiz başa çatdı. Kamran Bağırov sağollaşıb birinci katibin otağına qayıtdı. Mühafizəçilərdən biri mənə yaxınlaşıb təşəkkür etdi və dedi: "Hidayət müəllim, çox əla danışdınız. Belə demək lazımdır. Cəsarətli fikirlər söylədiniz". Kim idi tanımadım, amma o məni tanıyırmış.

İnsafən, adını çəkdiyim həmin Levon Adyan bu meydanı müşahidə etdiyimiz elə ilk gündə iki dəfə mənə dedi: "Heydər Əliyev burda olsaydı, bir çıxışı ilə bu meydanı dağıdardı. O imkan verməzdi burada şovinistlər meydan sulasın". Görün iş nə yerə çatmışdı ki, erməni özü bunu etiraf edirdi. Əlbəttə, bu yerdə Ulu öndər Heydər Əliyevin iradəsi, qətiyyəti, zəkası, belə hadisələrdə qəti və düzgün qərar vermək bacarığı lazım idi. Amma Qorbaçov onu bütün vəzifələrdən uzaqlaşdırıb, təqib altında saxlayırdı.

Bu yerdə yadıma bir hadisə düşdü və onu DQMV-də məsələlər başlayanda çox tez-tez danışırdılar. Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk hakimiyyəti illərində erməni separatçılarının bütün hərəkətlərinə son dərəcə diqqətlə yanaşır və bir azacıq qığılcım olanda dərhal onu yerindəcə söndürürmüş. Bir gün də ona müxtəlif mənbələrdən məlumat çatır ki, Ermənistanda və Stepanakertdə bəzi dairələrdə söhbət gəzir ki, DQMV-nin Ermənistan SSR-ə birləşməsi məsələsi "həllini" tapmağa yaxındır. Bu söhbətlərin daha geniş yayılmağa başladığı bir zamanda DQMV Partiya Komitəsinin plenumu keçirilir. Həmin plenumda Azərbaycan dövlətinin rəhbəri Heydər Əliyev çıxış edir. Məruzənin sonunda Heydər Əliyev xüsusi bir vurğu ilə deyir: "Şayiələr gəzir ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistan SSR-ə birləşəcək. Sizi əmin edirəm ki, bu şayiələrin heç bir əsası yoxdur. DQMV tarix boyu Azərbaycanın ayrılmaz hissəsi olub və bundan sonra da Azərbaycanın bir parçası olaraq qalacaq. Buna heç kimin şübhəsi olmasın".

Vilayətin erməni rəhbərliyi ulu öndərin bu çıxışından bərk narahat olur ki, indi zalda bir qarışıqlıq düşəcək. Amma Heydər Əliyev bu sözləri elə qətiyyətlə, sərt və əminliklə deyir ki, hətta bu fikri dövrəyə gətirmiş zalda oturan ermənilər belə, qorxularından bütün salondakılarla bərabər ayaq üstə Azərbaycan liderini dayanmadan, az qala bir neçə dəqiqə alqışlayırlar.

Mənim "Burdan min atlı keçdi" pyesimdə bu hadisələr öz bədii əksini tapıb. Orda bir səhnə var ki, Qarabağdan olan bir ağbirçək ana gəlib Azərbaycanın o vaxtkı rəhbərliyi ilə, Kamran Bağırovla görüşür və vəziyyətdən, ermənilərin separatçılığından, terrorçu hərəkətlərindən şikayətlənir, tədbir görülməsini istəyir. Bağırov yenə mülayimlik göstərir, səriştəsizlikdən qətiyyətini ortaya qoya bilmir və ana görüşdən ayrılandan sonra orda haray qaldırır və deyir: "Ay Heydər Əliyev, hardasan? Hardasan, ay Heydər Əliyev?" bütün zal o hissədə ananı ayaq üstə alqışlayır...

***(ardı var)***

***Müsahibəni qələmə aldı:***
***İlqar RÜSTƏMOV***
***XQ***

# Bölgələrdə anım mərasimləri

## Naxçıvan

Fevralın 26-da Naxçıvanda Xocalı faciəsi qurbanlarının xatirəsi yad olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları və ictimaiyyət nümayəndələri Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksini ziyarət ediblər. Abidə önünə güllər qoyulub, Xocalıda soyqırımına məruz qalmış soydaşlarımızın xatirəsinə ehtiram ifadə olunub.

Yeni Azərbaycan Partiyası Naxçıvan şəhər təşkilatı fevralın 26-da Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Naxçıvan şəhərindəki Xatirə Muzeyində anım mərasimi olub. YAP şəhər təşkilatının sədri Elman Cəfərli, Naxçıvan şəhər Xatirə Muzeyinin direktoru Aytən Qasımova çıxış ediblər. Sonra Xatirə Muzeyi ziyarət olunmuşdur.











## Sumqayıt

Gənclik şəhərinin ictimaiyyəti – icra hakimiyyətinin rəhbərliyi, Milli Məclisin deputatları, hüquq-mühafizə orqanları, şəhid ailələri və qazilər, Sumqayıtda yaşayan xocalılılar soyqırımı qurbanlarının xatirəsini hamılıqla anıblar.

Mərasim iştirakçıları Nəsimi parkında Xocalı faciəsi qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət edib, abidə önünə gül dəstələri düzüb, Xocalıda həlak olan soydaşlarımızın xatirəsini ehtiramla yad ediblər. Sonra tədbir iştrakçıları Sumqayıtda məskunlaşan Xocalı sakinləri ilə görüşüb.

Sumqayıt Dövlət Universitetində (SDU) "Xocalı dərsləri" adlı tədbir keçirilib. Daha öncə isə Sumqayıt Dövlət Dram Teatrında Xocalı faciəsinin ildönümü və Milli Qəhrəman Qorxmaz Eyvazovun anım günü qeyd olunub. Hafiz Ataxanlının qələmə aldığı, Xalq artisti Firudin Məhərrəmovun quruluş verdiyi "Missiya" mistik qəhrəmanlıq tamaşası nümayiş etdirilib.

## Lənkəran

Xocalı soyqırımı qurbanlarının xatirəsi Lənkəranda böyük ehtiramla anılıb. Mərasim azərbaycanlıların soyqırımı qurbanlarının xatirə parkındakı "Ana heykəli" qarşısında keçirilib.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov və aparatın kollektivi, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, gənclər və ictimaiyyətin nümayəndələri abidə önünə tər güllər düzüblər.

Daha sonra N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı aktyorlarının ifasında "Xocalı fəryadı" adlı kompozisiya nümayiş etdirilib.

Rayon ərazisində dövlət bayraqları yarıyadək endirilib, gün ərzində əhali xatirə abidəsini ziyarət edib. Rayonun idarə, müəssisə və təşkilatlarında, Heydər Əliyev Mərkəzində anım tədbirləri, məktəblərdə bu qanlı faciəyə həsr olunmuş dərslər keçirilib, mədəniyyət müəssisələrində foto, rəsm və kitab sərgiləri təşkil edilib.

Lənkəran Dövlət Universitetində isə (LDU) "Xocalı soyqırımı – qan yaddaşımız" adlı tədbirdə Tarix və onun tədrisi metodikası kafedrasının müdiri, dosent Kamal Mahmudov "Xocalı soyqırımı xalqımızın qan yaddaşıdır", Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, dosent Qədim Rufullayev "Xocalı qan yaddaşımızda yaşayan faciə kimi", LDU TGT-nın sədri Sara İbadzadə "Xocalı soyqırımı: Gənclərin yaddaşına həkk olunmuş xatirə" mövzusunda məruzə ediblər. Faciədən bəhs edən videoçarx nümayiş olunub.

*

Astara, Masallı, Cəlilabad, Lerik və Yardımlı rayonlarında da faciə qurbanlarının xatirəsi dərin hüznlə yad olunub.

## Quba

Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Qubada keçirilən "Xocalı soyqırımı: insanlıq əleyhinə cinayət" adlı anım mərasimində bildirilib ki, "Əsrin faciəsi" ilə bağlı beynəlxalq səviyyədə məlumatlılığın artırılmasında Heydər Əliyev Fondunun davamlı olaraq həyata keçirildiyi "Xocalıya ədalət!" kampaniyasının mühüm rolu var.

Şəhərdəki Soyqırımı Memorial Kompleksinin təşkil etdiyi tədbirdə faciə qurbanları ehtiramla yad olunub, xalqımıza qarşı törədilmiş cinayətlərin, o cümlədən Xocalı soyqırımının milli kimliyimizə təsiri, dünya ictimaiyyəti tərəfindən tanınması geniş müzakirə olunub. Kompleksinin direktoru Rəxşəndə Bayramova, Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri Qasım Hacıyev, Quba Rayon İcra Hakimiyyəti başçısının müavini Səidə Abasova, Yeni Azərbaycan Partiyasının Quba rayon təşkilatının sədr müavini Elxan Məhərrəmov və Ombudsmanın Şimal Regional Mərkəzinin rəhbəri Bəhruz Əfəndiyev çıxış ediblər.

## Goranboy

Xocalı soyqırımı qurbanlarının 33-cü ildönümü ilə bağlı anım mərasimi Goranboyda qələbəliklə keçib.

Tədbir şəhərin Xocalı sakinlərinin müvəqqəti məskunlaşdıqları Yeni Yaşayış Massivində, Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış Abidə kompleksinin önündə olub. Tədbirdə, Goranboy RİH-nin başçısının birinci müavini Seymur Nazarov, rayonun digər rəhbər şəxsləri, Goranboy və Xocalı ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

## Tərtər

Rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri, qazilər, müharibə veteranları Şəhidlər abidə kompleksinin önünə gül dəstələri düzüblər. Sonra məktəblilərin faciəyə həsr edilmiş rəsm əsərlərindən ibarət sərgiyə baxış olub.

Yeni Azərbaycan Partiyası rayon təşkilatının inzibati binasında Tərtər rayonunda məskunlaşan Xocalı sakinləri ilə görüş keçirilib. İcra hakimiyyəti başçısının 1-ci müavini Elvin Umudov Xocalı faciəsindən danışıb, bu qətliamın dünya tarixinə qanlı hərflərlə yazılmış vandal hadisələrdən ən dəhşətlisi olduğunu bildirib. Həmçinin Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Xocalıya səfərlərindən, Ballıca kənd sakinləri ilə görüşlərindən, dövlət başçısının Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında imzaladığı sərəncamdan bəhs edilib. YAP rayon təşkilatının sədri Eldar Əsədovun soyqırımı ilə bağlı məruzəsi dinlənilib.

## Ağstafa

Xocalı soyqırımının günahsız qurbanlarının əziz xatirəsi Qərb bölgəsində də ehtiramla yad edilib.

Faciənin 33-cü ildönümü ilə əlaqədar Ağstafa şəhərinin mərkəzində Şəhidlər memorial abidə kompleksi ziyarət olunub. Anım tədbirində Ağstafa RİH başçısı Seymur Orucov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, müharibə veteranları, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Memorial kompleksin əbədi məşəli önünə əklil qoyulub, müqəddəs üçrəngli bayrağımızın üzərindəki ayparanı simvolizə edən abidənin üzərinə qızıl gül və tər qərənfillər düzülüb.

## Tovuz

Tovuzda Xocalı faciəsinin 33-cü ildönümü ilə bağlı dəyirmi masa keçirilib.

Məclisi giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov bildirib ki, xalqımız bu gün bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağ savaşında düşmən üzərində qazandığımız tarixi Qələbənin sevincini də yaşayır.

Çıxış edənlər Xocalı şəhərinin 2023-cü il sentyabrın 19-da rəşadətli Ordumuzun apardığı lokal xarakterli antiterror tədbirləri nəticəsində düşmən tapdağından azad edilməsi ilə soyqırımı qurbanlarının qisasının alındığını vurğulayıblar.

## Naftalan

Naftalan şəhərində də Xocalı faciəsi qurbanlarının xatirəsi ehtiramla anılıb.

Xatirə mərasimində şəhər rəhbərliyi və ictimaiyyət nümayəndəri iştirak ediblər. Şəhidlərin xatirəsinə ucaldılmış memorial kompleks ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb, Vətən qurbanlarının ruhlarına dualar oxunub.

***Hazırladılar:***
***Ə.ƏLİYEV,***
***H.QASIMOV***
***XQ***

# Xocalının "Ana haray"ı

**İnsanlıq tarixinin ən qanlı səhifələrindən biri olan Xocalı soyqırımı təkcə bir xalqın deyil, ümumilikdə bəşəriyyətin faciəsidir. Bu hadisələr müharibənin amansızlığının, insan hüquqlarının kobud şəkildə pozulmasının əyani göstəricisidir. Xocalı təkcə bir şəhərin yox olmasından ibarət deyildi, həm də xalqın etnik təmizlənməsi və mənəvi iflasının əvvəlcədən hazırlanmış ssenarisi idi.**






Bu soyqırımı heç vaxt Azərbaycan xalqının yaddaşından silinə bilməz. Dünən Bakının Xətai rayonundakı "Ana harayı" abidəsinin ətrafı insan selinə qərq olmuşdu. Şaxtalı, soyuq havada uşaqdan-böyüyə minlərlə insan abidəni ziyarət edir, qarşısına gül dəstələri düzür, faciə nəticəsində həlak olanların ruhuna dualar oxuyurdu.

"Ana harayı" abidəsi bizə nələri deyir? Sanki erməni cəlladları tərəfindən öldürülmüş körpəsini qolları üzərinə almış Xocalı qadını fəryad edir, dünyada baş verən müharibəyə, qətliamlara ittihamlar səsləndirir. Abidənin ətrafında sükut dolu bir atmosfer var. Onun üzündəki xətlər analıq ağrısını, övlad itkisini, tarixi hadisəni özündə əks etdirir. Bu, yalnız bir abidə deyil, xalqın tarixindəki ən acılı anların daş harayıdır. Xalqımızın oğul və qızlarını itkisinin ağrısı, müharibənin sarsıdıcı gücünün simvoludur. Bu abidə, eyni zamanda, bir ümiddir – ana inanır ki, övladları onun doğulduğu torpaqları yenidən canlandıracaq.

"Ana harayı" abidəsini ziyarətə gəlmiş sakinlərlə həmsöhbət olduq. Onlar bildirdilər ki, torpaqlarımız düşməndən azad edilsə də, bəşəriyyət əleyhinə amansızcasına törədilmiş Xocalı faciəsini unutmayacaqlar.

**Sevgili Rəsulova, şəhər sakini:**

– Xocalı faciəsinin saniyəsini belə unutmaq olmaz. Oradakı ah-nalələr xalqımızın ruhuna hopub. Cinayətkar ermənilərin vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülüb, 487 nəfər şikəst olub, 1275 nəfər dinc sakin əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalıb. 150 nəfərin taleyi hələ də məlum deyil.

Bu gün Xocalı şəhidlərinin ruhları şaddır. Çünki Xocalı və işğaldan azad olunmuş bütün digər rayonlarımız tam azaddır. Artıq Xocalı soyqırımı günü Azərbaycan xalqının birliyinin, milli təəssübkeşliyinin simvoluna çevrilib. Mən buraya axışıb gələn insanlarda birlik şüarını görürəm.

**Layla Manaflı, 189-190 nömrəli məktəbdə təcrübəçi:**

– O vaxt Xocalı şəhərində yaşayan insanlar erməni silahlı qüvvələri tərəfindən hücuma məruz qalıb və həyatını itirib. Mülki əhali, qadınlar, uşaqlar, qocalar bu hücumdan qaça bilməyib. Xocalı şəhəri dağıdılıb, insanlar qaçarkən bir çoxu yolda vurulub, ya da çox ağır şəraitdə öldürülüb. Xocalı faciəsi haqqında çox eşitmişəm, amma bu faktlar məni daim kədərləndirir. Oradakı insanlar sadəcə yaşamaq istəyirdi, amma allahsızlar onları yaşamağa qoymadı. Eşitdiklərim bəzən o qədər ağır olur ki, insan sadəcə susur, gözləri dolur.

**Masil Dəmirov, Azərbaycan Memarlıq və İnşaat Universitetinin baş müəllimi:**

– Fevralın 26-sı Azərbaycan xalqının tarixinin ən dəhşətli faciələrindən birinin baş verdiyi gün kimi yaddaşlarda əbədi qalacaq. Bu tarixi bir daha xatırlamaq üçün abidəni ziyarətə etməyə gəlmişik. Tələbələrimizə də bu barədə həmişə danışırıq ki, onlar da faciənin mahiyyətini tam anlasınlar. Ermənilərin silahlı təcavüzü zamanı Xocalı şəhərinin xeyli mülki əhalisi faktiki olaraq vəhşicəsinə qətlə yetirilib. Yüzlərlə dinc sakinin həyatına son qoyan Xocalı soyqırımı təkcə müharibənin vəhşiliyinin deyil, həm də beynəlxalq ictimaiyyətin bəşəriyyətə qarşı cinayətlər qarşısında susqunluğunun simvoluna çevrildi. Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması təkcə tarixi ədalət məsələsi deyil, həm də gələcəkdə belə cinayətlərin qarşısının alınması üçün gərəkdir.

1993-cü il fevralın 23-də imzalanmış "Azərbaycana qarşı edilmiş vəhşiliklərin açıqlanması haqqında" fərman kağız üzərində qalaraq, 1992-1993-cü ilin yarısına qədər hakimiyyətdə olmuş zəif qüvvələr passivlik göstərdilər, çox sayda hüquqi normaların olmasına baxmayaraq, Xocalı faciəsinin real mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görmədilər. Bu soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı real işlər Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf etdi. Bu məqsədlə atılan mühüm addımlardan biri, erməni təcavüzü nəticəsində üzləşdiyimiz milli faciələrimizə siyasi-hüquqi qiymətin verilməsi oldu.

**Habil Niftalı, QHT rəhbəri:**

– "Ana harayı" abidəsini ziyarət etmək vətəndaşlıq borcumuzdur. Azərbaycan xalqı torpaqlarımız uğrunda canlarından keçən qəhrəmanların, Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, onları ehtiramla yad edir. Faciə haqqında danışmaq çox çətindir. Soyqırımını törədənlər Xocalı sakinlərini misli görünməmiş qəddarlıqla öldürmüş, diri-diri yandırmış, başlarının dərisini soymuş, gözlərini çıxarmışdılar. O gecə tariximizə təkcə xocalılıların deyil, bütün xalqımızın qanlı göz yaşları ilə yazıldı. Lakin Xocalının dərdli-naləli gecəsi barədə nə qədər yazılsa və deyilsə belə, yenə də müsibət və dəhşətləri olduğu kimi təsəvvür etmək çətindir.

**Leyla Salmanzadə, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi:**

– "Ana harayı" abidəsini ürək ağrısı ilə ziyarətə gəlmişəm. Xalq olaraq heç vaxt Xocalı faciəsini unutmayacağıq. Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. Xocalılar bu amansız soyqırımı günündə azərbaycanlıya xas olan mərdlik, igidlik nümayiş etdirib, özlərini əsl qəhrəman kimi apararaq erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə son nəfəslərinə qədər vuruşub, düşmən qarşısında əyilməyiblər. Allah şəhidlərimizə rəhmət eləsin.

**Rahim Mirzəcan, şəhər sakini:**

– Bu gün "Xocalıya ədalət!" dünyanı gəzir, beynəlxalq kürsülərdən insanları haqsızlığa, zülmə və zülmkarlığa, terrorçuluğa qarşı mübarizəyə çağırır. Məqsəd Xocalı faciəsinin əsl mahiyyətini, cinayətkarları və onların havadarlarını dünyaya bəyan etməkdir. Müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Xocalı şəhidlərinin qanı yerdə qalmadı. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman Ordumuz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı. Xocalı hadisəsinin törədilməsində şübhəli bilinən hərbi xunta nümayəndələri tutularaq Bakıya gətirilib və hazırda onların məhkəməsində Xocalı faciəsi cinayət epizodlarından biri kimi qeyd olunub.

***Rizvan FİKRƏTOĞLU,***
***Elşən AĞALAR (foto)***
***XQ***

# Xocalının susmayan harayı dünyanı dolaşır

**Xalqımız 33 ildir ki, erməni vandallarının insanlıq əleyhinə törətdiyi qanlı cinayətin – Xocalı soyqırımının ağrısını, dəhşətlərini qəlbində, həyatında daşıyır. Bu cinayət aktının bütün dünyada tanınmasına nail olmaq qarşımızda duran vəzifələrdəndir. 2012-ci ilin yanvarında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının İndoneziyanın Palembanq şəhərində keçirilən VII sessiyasında 51 ölkənin parlament nümayəndəsi Xocalı faciəsinin beynəlxalq səviyyədə soyqırımı kimi tanınması ilə bağlı müvafiq qətnamə qəbul edib. İndiyədək 18 dövlətin milli qanunvericilik orqanı Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı sayıb. Bundan əlavə, Xocalı soyqırımı ABŞ-ın 24 ştatı tərəfindən də tanınıb.**



## “Azərbaycanın ağrısını qəlbimizdə daşıyırıq”

Türkiyə Xarici İşlər Nazirliyi Xocalı soyqırımı qurbanlarının xatirəsini yad edib. Bu barədə nazirliyin rəsmi saytında məlumat yayılıb.

“Düz 33 il əvvəl Xocalıda qətlə yetirilən günahsız azərbaycanlı qardaşlarımızın əziz xatirəsini rəhmət və ehtiramla yad edir, Azərbaycanın ağrısını qəlbimizdə daşıyırıq”, - məlumatda qeyd olunub.

## “Xocalı Türk dünyasının ortaq yarasıdır”

Türkiyənin Eskişehirində Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı konfrans keçirilib. Eskişehir Azərbaycanlılar Dərnəyi tərəfindən təşkil olunan “Xocalı soyqırımı: Unutmadıq, Unutmayacağıq!” mövzusunda anım konfransında şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Tədbirdə Xocalı soyqırımı zamanı həyatını itirənlər yad edilib, beynəlxalq ictimaiyyətə “Xocalıya Ədalət!” çağırışı olunub. Anadolu Universitetinin jurnalistika bölümünün tələbəsi Nərmin Qasımzadənin aparıcılıq etdiyi tədbirdə çıxış edən Eskişehir Azərbaycanlılar Dərnəyinin sədri Cavid Aydın, onun müavini Sirac Yaquboğlu və Eskişehir Türk Ocağının sədri, professor Nedim Ünal Xocalı soyqırımının təkcə Azərbaycanın deyil, bütün Türk dünyasının ortaq yarası olduğunu vurğulayaraq, uzun illər keçməsinə baxmayaraq bu qanlı hadisə üçün ədalət mübarizəsinin hələ də davam etdiyini xatırladıblar. Natiqlər bu faciənin tarixi yöndən qiymətləndirilməsinin vacibliyini, tarixdən dərs çıxarmağın zəruriliyini qeyd etdilər, bu fəaliyyətdə Türk dünyasının birliyinin önəmindən danışdılar.



Konfransın əsas məruzəçisi beynəlxalq münasibətlər üzrə mütəxəssis Mehmet Gökhan Özçubukçu Xocalıda baş verənlərin beynəlxalq hüquq çərçivəsində soyqırımı kimi tanınmasının və cinayətkarların məsuliyyətə cəlb olunmasının vacibliyini vurğuladı.

## “Biz daim Xocalını anırıq”

Belə bir gündə Azərbaycan hökuməti və xalqı ilə həmrəy olduqlarını bildirən Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüraliyev bu barədə özünün “X” sosial hesabında paylaşım edib. “Bu gün biz müasir tarixin ən faciəli və qəddar aktlarından biri olan Xocalı soyqırımının 33-cü ildönümünü qeyd edirik” yazan TDT-nin Baş katibi K.Ömüraliyev günahsız azərbaycanlı qurbanların xatirəsini ehtiramla yad etdiyini, Azərbaycan hökuməti və qardaş xalqı ilə sarsılmaz həmrəyliyi təsdiqlədiyini qeyd edib. TDT-nin rəhbəri paylaşımına “Xocalı soyqırımı”, “Biz daim anırıq”, “TDT” həşteqlərini də əlavə edib.

## “Pakistan hər zaman Azərbaycanla həmrəydir”

Pakistanın Bakıdakı səfiri Qasım Mohiuddin Xocalı soyqırımının ildönümündə Azərbaycanla həmrəy olduğunu bildirib. Səfir bu barədə “X” sosial şəbəkəsindəki səhifəsində paylaşım edib. “Pakistan Azərbaycanla həmrəydir və Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edir”, – paylaşımda deyilir.

Qeyd edək ki, bu gün dünyanın müxtəlif ölkələrində Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Azərbaycanın Xocalı şəhərinin işğalı və Xocalı soyqırımının törədilməsinin 33-cü ildönümü qeyd edilir, faciə qurbanlarının xatirəsi ehtiramla anılır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə hücum edən erməni silahlı quldurları, vandalları canını qurtarmaq, xilas olmaq üçün Ağdam istiqamətində hərəkət edən 2 min 500-dən çox dinc sakini – qoca, qadın və uşaqları güllələbaran ediblər.

## “Xocalı soyqırımının baiskarları mütləq cəzalarını alacaqlar”




Azərbaycanın Qətərdəki səfirliyində Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirilib. Tədbirdə səfirliyin əməkdaşları və Qətərdə yaşayan Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycanın Qətərdəki səfiri Adış Məmmədov Xocalı qətliamının bəşər tarixinə ən qanlı səhifələrdən biri kimi həkk olunduğunu və xalqımızın yaddaşında heç zaman silinməyəcəyini qeyd edib. Səfir bildirib ki, Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın vaxtilə Xocalı soyqırımı ilə bağlı verdiyi açıqlamaları bu qətliamın Azərbaycan xalqına qarşı etnik zəmində nifrət siyasətinin nəticəsi olaraq həyata keçirildiyini bir daha nümayiş etdirib.

Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı dövründə Qarabağ regionunda hərbi cinayətlər törətmiş erməni canilərinin bəzilərinin bu gün Bakıda ədalət məhkəməsi qarşısına çıxarıldığını vurğulayan A.Məmmədov Xocalı soyqırımının baiskarları Robert Koçaryan, Serj Sarkisyan və Seyran Ohanyanın da ədalət məhkəməsi qarşısında cavab verəcəklərini bildirib.

Tədbirin sonunda iştirakçılar səfirliyin foyesində təşkil olunmuş Xocalı soyqırımı ilə bağlı fotostend, həmçinin soyqırımı haqqında faktlara əsaslanan ərəb və ingilis dilində çap olunmuş kitablarla tanış olublar.

## “Bu faciə bütün dünya üçün ibrət dərsidir”

Tbilisidəki Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyət Muzeyində Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbir Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı ilə baş tutub. Anım mərasimində Xocalıdan olan Gürcüstan vətəndaşı, Marneuli sakini Gülnaz Çıldırlı, Azərbaycan icmasının üzvləri, eləcə də, gürcüstanlı ekspertlər iştirak ediblər.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev çıxışında Xocalı soyqırımı haqqında tədbir iştirakçılarına məlumat verib. Diplomat Xocalı soyqırımının tarixdə baş vermiş ən dəhşətli hadisələrdən biri olduğunu, xüsusilə bu soyqırımının müharibə qanunlarına zidd olaraq uşaqların, qadınların və qocaların qətlə yetirilməsinin vəhşilik olduğunu qeyd edib. Səfir, həmçinin Xocalı faciəsinin xalqın yaddaşında əbədi olaraq qalacağını və bu cür soyqırımlara qarşı mübarizənin vacibliyini önə çəkib: “Bu faciə yalnız Azərbaycan xalqı üçün deyil, bütün dünya üçün dərs olmalıdır.

Anım mərasiminin iştirakçıları Xocalı soyqırımının və digər insanlıq əleyhinə törədilən cinayətlərin qurbanlarını bir daha yad edərək, bu kimi faciələrin təkrarlanmaması üçün beynəlxalq əməkdaşlığın vacib olduğunu bildiriblər.

## “Xocalı şəhidlərinin qanı yerdə qalmadı”

İsveçdə Xocalı faciəsi qurbanlarının xatirəsi ehtiramla yad edilib. Xocalı soyqırımın 33-cü ildönümü ilə əlaqədar Azərbaycanın İsveçdəki səfirliyi tərəfindən məşhur isveçli diplomat Raul Vallenberq adına mərkəzi Stokholm meydanında faciə qurbanlarının xatirəsi ehtiramla anılıb.

Mərasimdə çıxış edən Azərbaycanın İsveç Krallığındakı səfiri Zaur Əhmədov Xocalı soyqırımının insanlığa qarşı ən qəddar cinayətlərdən biri olduğunu bildirərək, 613 günahsız azərbaycanlının amansız şəkildə qətlə yetirilməsi ilə nəticələnən faciənin dünyanın onlarca ölkəsi tərəfindən qətliam kimi tanındığını diqqətə çatdırıb: “Müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Xocalı şəhidlərinin qanı yerdə qalmadı. Ordumuz Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyümüzü bərpa etdi və bu tarixi qələbə sayəsində Azərbaycan xalqı gələcəyə daha da inamla irəliləyəcək”.

Tədbirin sonunda memorialın önünə əklil və soyqırımı qurbanlarını simvolizə edən daş abidələrin üzərinə qərənfillər düzülüb.

***Hazırladı:***
***İ.HƏSƏNQALA***
***XQ***

# Badri Naçkebia: Bu, postsovet məkanında ən dəhşətli hadisədir

**Gürcüstanda fəaliyyət göstərən Terrorizm və Problemlərin Araşdırmaları Mərkəzinin sədri, politoloq Badri Naçkebia Xocalı soyqırımının XX əsrin ən dəhşətli faciəsi olduğunu bildirib. O, bu faciənin digər qanlı olaylardan köklü şəkildə fərqləndiyini qeyd edib: “Bu, bəlkə də postsovet məkanında uşaqların kütləvi surətdə hədəfə alındığı və qətlə yetirildiyi yeganə qətliam idi. Digər münaqişələrdə belə bir şey baş verməmişdi. Uşaqların öldürülməsi kimi bir fakt heç bir başqa hadisədə yaşanmayıb”.**




Ekspert, həmçinin bu cinayətin açılmasının vacibliyini önə çəkərək, cinayətkarların məsuliyyətə cəlb edilməsi üçün daha səylə çalışmağın vacibliyini vurğulayıb. “Xocalı faciəsinin tam açılması dünyanın bütün xalqlarına lazımdır. Gələcəkdə belə hadisələrin baş verməməsi üçün bütün ölkələr, hər kəs bir araya gəlməlidir,” – deyə Badri Naçkebia bildirib.

***XQ***

# “Haber Global”ın Xocalı reportajı

**Türkiyənin “Haber Global” telekanalı Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı geniş videomaterial hazırlayıb. Dünən yayımlanan reportajda hazırda Xocalıda aparılan bərpa-quruculuq işləri barədə də tamaşaçılara məlumat verilib.**




Telekanalın əməkdaşları erməni vandalların Xocalı şəhərinə, dinc sakinlərin üzərinə hücum etdikləri yerlərdə olublar, baş vermiş qanlı olay və qəsbkarların vəhşilikləri barədə ətraflı məlumat veriblər.

Reportajda qeyd olunub ki, əliyalın xocalılar gecə saatlarındakı vəhşicəsinə basqından canlarını qurtulmaq üçün Qarqar çayından keçərək meşəyə sığınıblar. Süjetdə faciənin baş verdiyi gecə havanın çox soyuq və qarlı olması səbəbindən meşənin daha dəhşətli hadisələrə şahidlik etdiyi vurğulanıb.

Erməni faşistlərin xain hücumu nəticəsində Xocalıda 613 dinc sakinin qətlə yetirildiyini diqqətə çatdıran telekanal əməkdaşları Azərbaycan hökumətinin bir il ərzində Xocalıda apardığı bərpa-təmir işlərindən, inşa edilən müasir mənzillərdən söz açıb, doğma şəhərlərinə qayıtmış yerli sakinlərin fikirlərini tamaşaçılara təqdim ediblər.

***XQ***

# Ermənilər Xocalını yer üzündən silmişdilər

## İtaliyanın katolik icmasına məxsus “Farodi Roma” qəzeti Xocalı soyqırımı ilə bağlı məqalə dərc edib

FarodiRoma
Quotidiano di informazione

**Məqalədə Ermənistan və Azərbaycan arasındakı münaqişənin postsovet məkanında davam edən ən qədim münaqişə olduğu bildirilir. Qeyd edilir ki, münaqişənin kökündə ermənilərin Azərbaycana qarşı çoxəsrlik ərazi iddiaları dayanır. Müəllif Qarabağ bölgəsinin ümumi sahəsi 940 kvadratkilometr təşkil edən və münaqişədən əvvəl 7 min əhalisi olan Xocalı şəhərinin qanlı əməliyyatlardan birinin hədəfinə çevrildiyini yazır.**



Yazıda vurğulanır ki, İrəvan Xocalını işğal etməklə strateji üstünlük qazanmaq və Qarabağ bölgəsindəki digər şəhərləri də ələ keçirmək üçün əlverişli şərait əldə etmək məqsədi güdürdü. Erməni vəhşiliyinin arxasında duran ideya azərbaycanlıların döyüş ruhunu əyərək sonrakı hərbi əməliyyatlarda psixoloji üstünlük əldə etmək və Xocalını xəritədən silmək idi. Çünki şəhərdə və ətraf ərazilərdə tarixin izləri ermənilərin ərazi iddialarını təkzib edən sübutlar idi.

Məqalədə Xocalıda baş verənlərin dinc əhaliyə qarşı törədilmiş dəhşətli qanlı hadisə və Ermənistanla Azərbaycan arasındakı münaqişənin ən böyük qətliamı olduğu bildirilir. Qeyd olunur ki, Ermənistan silahlı qüvvələri Xocalıda beynəlxalq hüququn bütün normalarını kobud şəkildə pozub. Azərbaycanın bu qətliamı soyqırımı kimi qiymətləndirdiyi və beynəlxalq ictimaiyyəti bu barədə məlumatlandırmaqla bağlı səylərini davam etdirdiyi vurğulanır.

***XQ***

# Xankəndi və Xocalıda soyqırımı qurbanları anıldı

**Erməni cəlladlarının 1992-ci il fevral ayının 25-dən 26-a keçən gecə Xocalının dinc sakinlərinə qarşı törətdikləri insanlığa sığmayan qanlı soyqırımının 33-cü ildönümü respublikamızın hər yerində olduğu kimi, ilk dəfə olaraq Xocalının özündə və Xankəndidə də müxtəlif mərasimlərlə qeyd edildi.**



Şəhidlərimizin əziz xatirəsinə ehtiram əlaməti olaraq Xankəndi şəhərində, Xocalı və Ağdərədəki bayraq meydanlarında, inzibati binaların qarşısında ucaldılmış dövlət bayraqlarımız yarıyadək aşağı endirilmişdi.

Soyqırımı qurbanlarını anım tədbirləri səhər saatlarında daimi yaşamaq üçün öz doğma ata-baba yurduna qayıtmış xocalılıların, rayonun hüquq-mühafizə orqanları əməkdaşlarının Xocalının Şəhidlər Xiyabanını ziyarət etmələri ilə başlayıb. Xocalı rayon polis şöbəsinin şəxsi heyəti faciədə həyatlarını itirmiş şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq xiyabanda düzülüb, onların məzarları üzərinə gül dəstələri qoyulub.

Xocalı qurbanlarının xatirəsi Xankəndidə də yad edildi. Burada Qarabağ Universitetinin binasında Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirildi. Dövlət himninin səsələnməsi, şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan mərasimdə Xocalı faciəsinin canlı şahidləri, mənfur düşmən tərəfindən vəhşicəsinə qətlə yetirilmiş dinc insanların doğmaları o dəhşətli gecədən danışdılar. Oğlu, həyat yoldaşı və qardaşı daxil olmaqla ailəsinin 14 üzvünü Xocalı faciəsində itirmiş Elmira Allahverdiyevanın çıxışı isə tədbir iştirakçılarının hamısını göz yaşlarına boğdu. Özü də kövrələn Elmira ana Xocalıda keçirdiyi bu gecə səhərədək gözünə yuxu getmədiyini bildirdi, "açılan qara səhərinizə qurban olum, ay xocalılar!", – deyə yaşadığı acını dilə gətirdi.

Mərasimdə çıxış edənlər də erməni vəhşiliklərindən, faciənin xalqımıza yaşatdığı ağır mənəvi-psixoloji iztirablardan söz açdılar. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyində əməkdaşı Səbuhi Qəhramanov çıxışında Xocalı soyqırımının bəşər tarixində ən qanlı cinayətlərdən biri olduğunu bildirdi, ermənilərin dinc əhaliyə qarşı törətdikləri vəhşiliklərdən danışdı. Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən genişmiqyaslı işləri tədbir iştirakçılarının nəzərinə çatdıran S.Qəhramanov Prezident İlham Əliyevin 2023-cü ilin 15 oktyabr tarixində Xocalı şəhərində Azərbaycanın dövlət bayrağını qaldırdığını, faciə qurbanlarının qisasının döyüş meydanında alındığını vurğuladı.

Çıxışlarda, həmçinin torpaqlarımızın işğaldan azad edilməsindən sonra Qarabağda və Şərqi Zəngəzurda ermənilərin törətdikləri müharibə cinayətləri ilə bağlı aparılmış ilkin tədqiqatlar, aşkarlanmış kütləvi məzarlıqlar barədə də məlumat verildi. Qeyd edildi ki, mənfur düşmənin xalqımıza qarşı zaman-zaman həyata keçirdiyi soyqırımı aktları gənclərə, xüsusilə ali təhsil ocaqlarının tələbələrinə dərindən aşılanmalıdır. Anım mərasimində Xocalı faciəsindən bəhs edən videoçarxlar da nümayiş olundu.





**Mərasimdən sonra öz təəssüratlarını "Xalq qəzeti" ilə bölüşən şəhid qardaşı Sarvan Məmmədov 26 fevralın damarlarından azərbaycanlı qanı axan hər kəs üçün bu gün həm də şükr etdiyimiz gündür. heç vaxt unutmayacağı kədərli bir gün olduğunu bildirdi:**

– Xocalı faciəsi hər zaman qəlbimizdədir. Ancaq biz xocalılılar, şəhid ailələri üçün bu gün həm də şükr etdiyimiz gündür. Çünki ilk dəfədir bir vaxtlar erməni separatçılarının şər yuvası olan, qəhrəman oğullarımızın canı-qanı bahasına azad edilmiş Xankəndimizdə, Qarabağ Universitetində şəhidlərimizin anım tədbirini keçirdik. Bu, hər birimiz üçün çox qürurvericidir. Allah bu tarixi günlərimizin memarı müzəffər Ali Baş Komandanımızı qorusun! Allah bir daha şəhidlərimizə rəhmət eləsin!





Həmsöhbət olduğumuz şəhid ailəsinin üzvü Südabə Cavadova isə iki dəfə məcburi köçkünlük həyatı yaşayıb. 1988-ci ildə erməni separatizmi baş qaldıranda ailəsi ilə birlikdə ata-baba yurdu olan Ballıca kəndindən Xocalıya pənah aparıb, orada yaşamağa başlayıblar. 1992-ci ilin qanlı fevral gecəsində həyat yoldaşı və qardaşı şəhid olub, meyitləri də elə Xocalıda qalıb. Yalnız torpaqlarımızın işğaldan azad edilməsindən sonra hər iki şəhidin qalıqları tapılaraq şəxsiyyətləri müəyyənləşdirilib.

İndi daimi yaşamaq üçün yenidən Xocalıya, doğma Ballıca kəndinə qayıtmış Südabə ana onunla təsəlli tapır ki, artıq əzizlərinin də istədiyi vaxt gedib ziyarət edə biləcəyi məzarları var. Özü də uğrunda qurban getdikləri Xocalı torpağında. S.Cavadovanın, eləcə də bütün xocalılıların bir təsəlliləri də odur ki, erməni cəlladlarının amansızlıqla qətlə yetirdikləri dinc, əliyalın Xocalı sakinlərinin qisasları döyüş meydanlarında rəşadətli ordumuz tərəfindən layiqincə alınıb. Bu gün onların ruhları əbədi dinclik tapıb.

Qeyd edək ki, Xocalı soyqırımı qurbanlarının xatirəsi rayonun Ballıca kəndində də qeyd olunub. Otuz üç illik Vətən həsrətindən sonra doğma Qarabağa qayıtmış kənd sakinləri ermənilərin törətdikləri hərbi cinayətlərdən danışıb, şəhidlərin xatirəsinə ehtiramlarını ifadə ediblər. Çıxış edənlər Xocalı soyqırımının ildönümünü ilk dəfə olaraq azad Xocalıda qeyd etməyin onlar üçün böyük təsəlli olduğunu, bu gün şəhidlərimizin ruhlarının də hüzura qovuşduğunu vurğulayıblar. Qeyd olunub ki, düşmənin cavabı müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz tərəfindən savaş meydanında layiqincə verilib. Keçmiş məcburi köçkünlərin doğma yurd yerlərimizə Böyük Qayıdışı isə düşmənlərimizə əbədi gözdağı olacaq!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

# Dünya erməni qatilləri lənətləyir





**Azərbaycanın Tacikistandakı səfirliyində Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.**

Səfir Əlimirzamin Əskərov ermənilərin XIX-XX əsrlərdə mərhələli şəkildə azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirdiyini və bu siyasətin tərkib hissəsi olan Xocalı soyqırımının Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin tərkib hissəsi olduğunu bildirib.

Türkiyənin Tacikistandakı səfiri Umut Açar faciə ilə bağlı başsağlığı verib və Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu söyləyib.

Sonra keçirilən mətbuat konfransı zamanı jurnalistlər Xocalı faciəsi ilə yanaşı, Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası ilə bağlı son işlər və Tacikistan-Azərbaycan əlaqələrinə dair suallar səsləndiriblər.

Tədbirdə Xocalı faciəsi barədə videoçarx da nümayiş etdirilib. İştirakçılar Xocalı faciəsi ilə bağlı səfirlikdə yaradılan guşə ilə də tanış olublar.

*

**Həmin gün Azərbaycanın Aktau şəhərindəki Baş konsulluğunda da Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı tədbir keçirilib.**

Xocalı soyqırımından danışan Baş konsul Ayxan Süleymanlı onun dünyada tanıdılması istiqamətində Heydər Əliyev Fondunun sistemli tədbirlər həyata keçirdiyini, 2008-ci ildə fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının hazırda uğurla davam etdiyini diqqətə çatdırıb.

Türkiyənin Aktaudakı Baş konsulu Sabri Alptekin Xocalı soyqırımının insanlığa sığmayan vəhşi cinayət olduğunu vurğulayıb, Xocalı sakinlərinin məhz türk olduqları üçün amansızlıqla qətl edildiklərini bildirib, soyqırımın heç vaxt unudulmayacağını vurğulayıb və şəhidlərin xatirəsini ehtiramla yad edib.

"Dostluq" Etnomədəni Birliyinin sədri Şəmsəddin Hüseynov, diasporumuzun üzvü Vaqif Əliyev öz çıxışlarında Xocalıda mülki əhaliyə qarşı törədilmiş amansız qətliamı pisləyiblər, gələcəkdə belə qanlı hadisələrin təkrarlanmaması üçün cinayətkarların cəzalandırılmasının vacibliyini qeyd ediblər.

Tədbirin sonunda gənc rəssam Lalə Hüseynzadənin Xocalı soyqırımına həsr etdiyi "Qumla rəsm videosu", sonra isə Vaqif Mustafayevin rejissoru olduğu "Dərdimi çəkirəm" sənədli filmi nümayiş etdirilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

***Düşənbə***

**Azərbaycanın Koreya Respublikasındakı səfirliyi DGIEA Koreya-Azərbaycan Assosiasiyası və Koreyanın "Eduniety Lab" təhsil agentliyi ilə birlikdə Seulda Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş simpozium təşkil edib.**



Azərbaycan səfiri Ramin Həsənov Xocalı soyqırımının təfərrüatları və ümumilikdə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələri barədə məlumat verib. Tədbirin tərəfdaşları qismində DGIEA Koreya-Azərbaycan Assosiasiyasının prezidenti Li Min Yonq və "Eduniety Lab" təhsil agentliyinin baş icraçı məmuru Li Kitek tədbir iştirakçılarını salamlayan çıxışlar ediblər.

Giriş nitqlərindən sonra panel müzakirələri keçirilib. Koreyanın Hankuk Xarici Dillər Universitetinin Türkiyəşünaslıq-Azərbaycanşünaslıq kafedrasının rəhbəri, professor Oh Çonq-cin, tarixçi və köşə yazarı Lim Myeonq-Muk, İnha Universitetinin Multikultural təhsil kafedrasının dosenti, Dr. Oh Yonq-Sub, "Eduniety Lab" agentliyinin tədqiqat institutunun rəhbəri, Dr. Lim Sunq Hee və tanınmış yazıçı, Azərbaycanın xalq nağıllarının Koreya dillində dərc olunduğu "Günəşin məhəbbəti" adlı kitabın redaktoru Yu Sucin çıxış edərək Xocalının günahsız sakinlərinin soyqırımına məruz qalmasından, eyni zamanda Azərbaycanın davamlı sülhə nail olmaq üçün göstərdiyi səylərdən, multikulturalizm dəyərlərindən bəhs ediblər.

***XQ***

# Kağız manat, yoxsa onun rəqəmsal dəyəri?

## Deyəsən, əskinaslar da muzey eksponatı olacaq



**Son vaxtlar mediada kağız pul dövriyyəsinin tezliklə başa çatacağı bildirilir. Belə bir maliyyə gözləntisi isə nağdsız ödənişlərin həcminin davamlı olaraq artması ilə əlaqələndirilir. Bu fikrin təsdiqi kimi, müvafiq göstəricilər də xatırladılır və 2024-cü ildə Azərbaycanda kredit kartları ilə həyata keçirilən əməliyyatların ümumi həcminin 8 milyard manata yaxınlaşdığı, bu rəqəmin 2023-cü illə müqayisədə təxminən 45 faiz və ya 2 milyard 290 milyon manat çox olduğu vurğulanır.**

İqtisadçı-ekspert Rəşad Həsənov mediaya açıqlamasında orta və uzunmüddətli dövrdə kağız pulların dövriyyədən çıxmasının qaçılmaz olacağını deyir: "Rəqəmsal iqtisadiyyata keçid bu prosesə ciddi təkan verir. Həm rəqəmsal valyutalar, həm də kriptovalyutalar ödəniş imkanlarını genişləndirir və nağdsız iqtisadiyyata keçidi sürətləndirir. Azərbaycanda da son dövrlərdə bankların tətbiq etdiyi müxtəlif təşviqedici amillər və qlobal kredit bazarlarının təsiri ilə nağdsız ödənişlərin həcmi artır. Kartlardan istifadənin genişlənməsi, eyni zamanda, ticarət münasibətlərinin və istehlak vərdişlərinin dəyişməsi ilə əlaqədardır. Onlayn ticarətin miqyasının genişlənməsi bu keçidi daha da sürətləndirir".

İqtisadçının sözlərinə görə, bu prosesin müəyyən riskləri də mövcuddur. Belə ki, texniki problemlər, kibercinayətkarlıq, şəxsi məlumatların ələ keçirilməsi və hesablardan pul vəsaitlərinin oğurlanması kimi təhlükələr rəqəmsal ödəniş sistemlərinin əsas problemləri arasındadır. Lakin, ümumilikdə, bu risklər nağd vəsaitlərin istifadəsi ilə müqayisədə daha aşağıdır. Çünki nağd pulun saxlanması, itirilməsi və saxtalaşdırılması da ciddi problemlər yaradır. Digər tərəfdən nağd pulun emissiyası üçün əlavə xərclər tələb olunur, bu da iqtisadi baxımdan əlavə yükdür.

R.Həsənov daha sonra bildirir ki, bu aspektləri nəzərə alsaq, kartlar və digər rəqəmsal valyutalar vasitəsilə ödənişlərin həyata keçirilməsi daha məqsədəuyğundur. Bununla belə, təhlükəsizlik məsələlərinə diqqət yetirmək zəruridir. Məlumatların üçüncü şəxslərin əlinə keçməməsi üçün güclü parolların tətbiqi, etibarlı onlayn platformalardan istifadə və fərdi məlumatların qorunması kimi tədbirlərin görülməsi mühüm əhəmiyyət daşıyır. Bu kimi addımlarla rəqəmsal ödənişlər zamanı yaranacaq riskləri minimuma endirmək mümkündür.

Bəs respublikamızda bu sahədəki real vəziyyəti necə dəyərləndirmək olar? Ekspertlərin bu suala cavabında əvvəlcə Azərbaycanın indiki geosiyasi mənzərəsi barədə fikirlər diqqət çəkir. Bildirilir ki, əvvəllər ABŞ dolları ölkəmizin xarici ticarətində dominant mövqe tuturdu və hesablaşmaların, təxminən, 90 faizini təmin edirdi. Lakin indi beynəlxalq ödənişlərdə milli valyutalardan istifadənin artması, həmçinin rəqəmsal vəsaitlərə, o cümlədən kriptovalyutalara marağın güclənməsi müşahidə olunur. Bu dəyişiklərin qarşılanması respublikamızda rəqəmsal vəsaitlərin tənzimlənməsi üçün normativ-hüquqi bazanın işlənib hazırlanmasını sürətləndirib. Bununla da şəffaflığın artırılması və risklərin azaldılması üçün əlverişli şərait yaranıb.

Azərbaycan maliyyə sektorunun tənzimlənməsi, xüsusilə çirkli pulların yuyulmasına qarşı mübarizə və komplayns sahələrində əhəmiyyətli irəliləyiş əldə edir. Mərkəzi Bank maliyyə bazarının stimullaşdırılması və beynəlxalq tələblərə riayət olunması arasında balansı saxlamağa çalışır. Bu islahatlar nəticəsində Azərbaycan banklarının, xüsusilə ABŞ-dakı müxbir şəbəkəsi əhəmiyyətli dərəcədə genişləndirilir.

Beləliklə, geosiyasi gərginlik Azərbaycanın iqtisadi siyasətində dəyişiklikləri sürətləndirir, beynəlxalq hesablaşmalarda, maliyyə axınlarının tənzimlənməsində və inflyasiya riskləri ilə mübarizədə yeni reallığa uyğunlaşma tələb edir. Bu məqamda –"Azərbaycanda elektron pul bazarının inkişaf perspektivi varmı?"– sualına cavab da böyük maraq doğurur. Mütəxəssislər bildirirlər ki, artıq bir ildən çoxdur ki, respublikamızda "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanun qüvvəyə minib.

Azərbaycan Mərkəzi Bankı indiyə qədər bu qanuna uyğun olaraq 14 şirkətə elektron pul təşkilatı, 8 şirkətə ödəniş təşkilatı, "AzəriCard" MMC prosessinq mərkəzinə isə elektron pul təşkilatı və ödəniş sistemi operatoru kimi fəaliyyət göstərmək hüququ verən müddətsiz lisenziyalar verib. Göründüyü kimi, ödəniş bazarında ən çox maraq elektron pul fəaliyyətinə göstərilir. Bəs Azərbaycanda elektron pul bazarının inkişaf perspektivi varmı? İqtisadçı-ekspert Rəşad Həsənovun fikrincə, Azərbaycanda elektron pul bazarı digər ölkələrlə müqayisədə nisbətən gec formalaşıb. Yalnız son illər bu istiqamətdə hüquqi baza təkmilləşdirilib, elekton pul təşkilatları lisenziyalaşdırılaraq Mərkəzi Bankın nəzarəti altında fəaliyyət göstərirlər.

İqtisadçı-ekspertin sözlərinə görə, Azərbaycan bazarında inkişaf məqsədilə bir sıra layihələr həyata keçirilməlidir. Ən əsası isə təhlükəsizlik barədə ciddi düşünülməlidir. Çünki söhbət vətəndaşların vəsaitlərinin elektron pul emissiyası həyata keçirən qurumlara həvalə edilməsindən gedir. İnsanlar nağd pullarını elektron pullarla dəyişir. Odur ki, bu sistemin etibarlılığı təmin edilməlidir. Bu sahədə təhlükəsizlik tələblərinin zamanla vəziyyətə uyğun olaraq təkmilləşdirilməsi zəruridir.

Burada nəzarət zəiflədiyi halda, sistemə etibar azala bilər. Elektron pul bazarının genişlənməsi üçün burada yeni oyunçuların iştirakına imkan yaradılması, eləcə də elektron pullar vasitəsilə ödəniş imkanlarının artırılması da vacibdir. Elektron ticarətin inkişafı da ölkə daxilində bu cür pullardan istifadənin genişlənməsinə, bu istiqamətdə təşəbbüslərin artmasına səbəb ola bilər.

Mərkəzi Bankın şöbə rəisi Xəyaləddin Tağıyev isə gələcəkdə elektron pul bazarının bank sektorundan asılılığına son qoyulacağını bildirir. Qeyd edir ki, hazırda elektron pul və ödəniş təşkilatları hesablaşmaları sistem əhəmiyyətli ödəniş sistemləri vasitəsilə həyata keçirir və bu da onları banklardan asılı vəziyyətdə saxlayır. Məqsəd isə ödəniş bazarı iştirakçılarının hesablaşmaları müstəqil formada yerinə yetirmələridir: "Bu isə o deməkdir ki, onlar sistem əhəmiyyətli ödəniş sistemlərində müxbir hesab açmalıdırlar. Hazırda bunun tez olduğunu düşünürük, amma gələcəkdə müxbir hesabın açılmasına şərait yaradılacaq".

X.Tağıyevin sözlərinə görə, Mərkəzi Bank rəqəmsal pul bazarının inkişafı üçün struktur islahatlarına başlamağı da planlaşdırır. Belə ki, 2024–2026-cı illər üçün müəyyən edilmiş strateji çərçivədə elektron pul təşkilatlarının yaradılması və onların fəaliyyətinin tənzimlənməsi üzrə işlər görülür. Bu addımlar bazarın müstəqilliyinin artırılmasına və elektron ödəniş sistemlərinin daha səmərəli fəaliyyət göstərməsinə imkan yaratmağa hesablanır.

Mərkəzi Bankın məlumatına görə, rəqəmsal manatın geniş ictimaiyyət üçün əlçatanlığının gerçəkləşdiriləcəyi, eyni zamanda, beynəlxalq təcrübəyə uyğun olaraq tətbiq prosesinin mərhələli şəkildə həyata keçiriləcəyi nəzərdə tutulur.

Bildirilib ki, rəqəmsal manatın məqsədləri və konsepsiyası ilk mərhələdə müəyyən olunacaq. Pilot layihənin həyata keçirilməsi üçün seçilmiş maliyyə institutları və iri şirkətlərlə əməkdaşlıq diqqətdə saxlanılacaq. Məhdud dövriyyə və əməliyyat limiti tətbiq ediləcək. Texniki infrastrukturun sabit fəaliyyəti və təhlükəsizlik tədbirlərinin səmərəliyi də sınaqdan keçiriləcək.

Sonrakı mərhələdə isə rəqəmsal manat geniş ictimaiyyətin istifadəsinə açıq olacaq: "Fiziki və hüquqi şəxslərin gündəlik əməliyyatlarda rəqəmsal manatdan istifadə etmək imkanı olacaq. Maliyyə inklüzivliyinin artırılması və nağdsız iqtisadiyyatın təşviq edilməsi məqsədilə rəqəmsal manatın ödəniş sistemlərinə tam inteqrasiyası həyata keçiriləcək. Regional və beynəlxalq ticarət əməliyyatlarında rəqəmsal manatın istifadəsi ilə bağlı perspektivlər dəyərləndiriləcək. Bütün bu proseslər maliyyə bazarının iştirakçıları ilə sıx əməkdaşlıq çərçivəsində və beynəlxalq tənzimləmə standartlarına uyğun həyata keçiriləcək".

Amma bir müddət bundan əvvəl mediada Mərkəzi Bankın nümayəndəsi bildirdi ki, adıçəkilən qurumda rəqəmsal valyutanın hazırlanması istiqamətində iş aparılır və bu zaman başqa ölkələrin təcrübəsi öyrənilr, yaxından izlənilir. Məsələn, respublikamızda əsasən, Qazaxıstan təcrübəsini üstünlük verilir. Çünki bu ölkənin təcrübəsində əldə edilən müsbət nəticə daha çox diqqət çəkir və ona görə də hazırda onun tətbiqi araşdırılır. Nigeriyada isə tam fərqli bir mənzərə – mənfi nəticələr izlənilir.

Beləliklə, qeyd edilənlərdən belə bir qənaət hasil olur ki, Azərbaycan Mərkəzi Bankı bu sahədə aparılan qlobal təcrübələri nəzərə alaraq, hazırda rəqəmsal manatın tətbiq imkanlarını öyrənib qiymətləndirir. Beynəlxalq Valyuta Fondunun texniki yardımı çərçivəsində isə rəqəmsal manatın iqtisadi təsirləri, hüquqi çərçivəsi və texnoloji infrastrukturu ilə bağlı geniş təhlillər aparılır.



# Beynəlxalq Atom Enerjisi Agentliyi Azərbaycanda

**Bakıda Energetika Nazirliyi ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasındakı əməkdaşlıq çərçivəsində Nüvə Enerjisi Proqramının İcraedici Təşkilatının (NEPIO) vəzifə və məsuliyyətlərini əhatə edən dördgünlük seminar keçirilir.**

Energetika Nazirliyinin məlumatına görə, tədbrin ilk günündə Beynəlxalq Atom Enerjisi Agentliyinin mütəxəssisləri tərəfindən yeni nüvə enerjisi proqramının icrası üçün mərhələli yanaşma, kiçik modul reaktorları üzrə texnologiyalar və onların infrastruktur məsələləri haqqında məlumat verilib. Türkiyənin ilk nüvə elektrik stansiyası layihəsinin "Tik – sahib ol – işlət" sxemi ilə reallaşdırılması, eləcə də yeni nüvə enerjisi proqramının həyata keçirilməsi üçün mümkünlüyün qiymətləndirilməsi sahəsində Macarıstan təcrübəsi nəzərdən keçirilib.

Növbəti günlərdə isə nüvə enerjisi sahəsində texniki-iqtisadi əsaslandırmaların hazırlanması, sahənin özünəməxsus xüsusiyyətləri, təhlükəsizlik tələbləri, mühafizə qaydaları və qoruyucu tədbirlər, nüvə elektrik stansiyası proqramı üçün tənzimləyici çərçivə, normativ hüquqi aktların hazırlanmasında Türkiyə təcrübəsi, lisenziyalaşdırma prosesi, yeni nüvə elektrik stansiyalarının reallaşdırılması istiqamətində rollar və məsuliyyətlərin bölüşdürülməsi, nüvə infrastrukturunun qiymətləndirilməsi, inteqrasiya edilmiş nüvə infrastrukturu və bu sahədə əldə edilmiş təcrübə, nüvə sahəsində insan resurslarının idarə edilməsi kimi mövzular ətrafında müzakirələrlə davam edəcək.

Seminarda Energetika Nazirliyi ilə yanaşı, İqtisadiyyat Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərenerji" ASC və digər aidiyyəti qurumların nümayəndələri iştirak edirlər.

Xatırladaq ki, 2024-cü il noyabrın 13-də COP29 çərçivəsində "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında Paris Sazişi kontekstində enerji planlaşdırılması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb.

# İqtisadiyyata kredit qoyuluşları bu il də artıb

**2025-ci il fevral ayının 1-nə Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 29 milyard 325,3 milyon manat təşkil edib. Bu isə ilin əvvəlinə nisbətən 37,1 milyon manat çoxdur. Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, 2024-cü ilin fevral ayının 1-i ilə müqayisədə ölkə iqtisadiyyatına kredit qoyuluşları 4 milyard 962,8 milyon manat və ya 20,4 faiz artıb. Xatırladaq ki, ötən ilin fevral ayının 1-nə kredit qoyuluşlarının həcmi 24 milyard 362,5 milyon manat təşkil edib.**



Kredit təşkilatları tərəfindən verilən vəsairlərin 21 milyard manatı və ya 76,5 faizi Bakı şəhərinin payına düşüb. Hesabat dövrü ərzində kredit qoyuluşunun ən az orta faiz dərəcəsi Bakı şəhəri (12,04 faiz), ən çox isə Qarabağ iqtisadi rayonu (19,16 faiz) üzrə qeydə alınıb. Yeri gəlmişkən, fevralın 1-nə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlaı üzrə kredit qoyuluşu müvafiq olaraq 474,7 milyon manat və 9,8 milyon manat təşkil edib.

Ümumi kredit qoyuluşunun 1,1 milyard manatı Abşeron–Xızı, 821,1 milyon manatı Gəncə–Daşkəsən, 652,4 milyon manatı Lənkəran–Astara, 552,5 milyon manatı Mərkəzi Aran, 526 milyon manatı Şəki–Zaqatala, 524,6 milyon manatı Qazax–Tovuz, 467,6 milyon manatı Quba–Xaçmaz, 431,7 milyon manatı Şirvan-Salyan, 420,9 milyon manatı Naxçıvan, 300,2 milyon manatı Mil–Muğan, 186,05 milyon manatı isə Dağlıq Şirvan iqtisadi rayonlarının payına düşüb.

# Gömrük daxilolmaları çoxalıb



**2025-ci ilin ilk ayında gömrük xətti ilə büdcə daxilolmaları ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz artaraq 487 milyon 159,3 min manata çatıb.**

Dövlət Gömrük Komitəsinin məlumatına görə, ay ərzində gömrük rüsumları üzrə daxilolmalar 145 milyon 14 min manat (ötən ilin eyni dövrünə nisbətən 5,9 faiz çox), əlavə dəyər vergisi üzrə daxilolmalar 359 milyon 252 min manat (1,4 faiz çox), aksizlər üzrə daxilolmalar 18 milyon 952 min manat (2,4 faiz çox), yol vergisi üzrə daxilolmalar isə 3 milyon 939 min manat (16,2 faiz çox) təşkil edib.

# Nağdsız ödənişlər – 7 milyon manat

**Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, banklar və "Azərpoçt" MMC sistemləri üzrə ödəniş kartlarının sayı cari ilin yanvarında ötən ilin dekabr ayı ilə müqayisədə 67 min ədəd artaraq 19 milyon 965 min ədəd (15,8 faiz çox) təşkil edib. Bildirilib ki, ödəniş kartlarında artım debet kartları üzrə 18,1 faiz, kredit kartları üzrə 0,3 faiz olub.**

Ödəniş kartlarının artması nağdsız ödənişlərin həcminə müsbət təsir göstərib. Belə ki, ay ərzində ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,4 dəfə artıb.

Məlumata görə, 2025-ci ilin yanvar ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 6,9 milyon manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 5,8 milyon manatı elektron ticarətin payına düşüb. Qalan məbləğin 1,05 milyon manatı POS-terminallar, 3,1milyon manatı isə özünə xidmət terminalları vasitəsilə gerçəkləşdirilib. Yanvar ayında ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 68,5 faizini təşkil edib.



*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Aqrar sığortanın əhatə dairəsi genişlənir

**Bakıda Aqrar Sığorta Fondunun təşkilatçılığı ilə "Azərbaycanda aqrar sığorta: İnkişaf və perspektivlər" mövzusunda konfrans və media nümayəndələri ilə görüş keçirildi.**

Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov giriş sözü ilə çıxış edərək bildirdi ki, aqrar sığotrta mexanizmi dövlətin kənd təsərrüfatına dəstəyinin növbəti addamıdır. Qeyd olundu ki, 2019-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə yaradılan Aqrar Sığorta Fondu ötən 5 il ərzində maliyyə dayanıqlı bir təşkilata çevrilərək fermerlərin risklərini uğurla qarşılamaqdadır. Fond rəhbəri bildirdi ki, yeni yaradılmış aqrar sığorta mexanizmi dövlətin fermerlərə dəstəyinin daha bir nümunəsi olmaqla yanaşı, bu sahəyə dövlətin və fermerlərin yatırdığı investisiyaları, xüsusən də iqlim dəyişiklikləri dövründə təsərrüfatları çoxsaylı risklərdən, o cümlədən təbii fəlakətlərdən qoruyur.

Hazırda aqrar sığorta mexanizminin 41 növ bitkini, heyvandarlıq və balıqçılıq təsərrüfatlarını risklərdən qoruduğunu diqqətə çatdıran fond rəhbərinin sözlərinə görə, bura taxıl və tarla bitkiləri, texniki bitkilər, meyvə bağları və tərəvəz-bostan bitkiləri aiddir. Ümumilikdə, bu təsərrüfatlar, təqribən, 30-a yaxın riskdən qorunur. Son günlər ölkə ərazisində hava şəraitinin qeyri-sabit və sərt keçdiyini xatırladan fond sədri bildirdi ki, aqrar sığorta əkinləri, xüsusilə meyvə bağlarını şaxtavurma riskindən də sığorta edir və bu hadisələr üzrə ödənişlər edilir.

Daha sonra Azərbaycanda əkinə yararlı ərazilərin 96 faizinin sığorta xidməti ilə əhatə olunması üçün çox yaxşı imkanların olduğu diqqətə çatdırıldı. Qeyd edildi ki, ötən müddətdə bu istiqamətdə 14-ə yaxın normativ qanun və digər hüquqi sənədlər təsdiqlənib. Hazırda ölkədə əkinə yararlı 1,7 milyon hektar ərazinin hələlik 450 min hektarı sığortalanıb. Fondun məqsədi ölkədə sığortalanan predmetlərin əhatə dairəsini genişləndirməkdən ibarətdir. Aqrar sığorta mexanizminin ötən 4-5 il ərzindəki fəaliyyəti nəticəsində fondun aktivləri 9 milyon manatdan 30 milyon manata çatıb.

Toplantıda aqrar sığorta sistemində mühüm yer tutan müstəqil aqrar sığotrta ekspertləri üçün yaradılan imkanlar barədə də ətraflı məlumat verildi. Qeyd olundu ki, təsərrüfatlarda risk və zərərin qiymətləndirilməsi məhz həmin ekspertlər tərəfindən həyata keçirilir. Ölkədə, ümumilikdə, 800-1000 nəfərə qədər ekspertə ehtiyac olduğu halda, hazırda onların real sayı, təqribən, 100 nəfərdir. Həmin ekspertlərin aylıq qazancları 1000-1500 manatdan başlayır, gündəlik gəlir limiti isə 500 manata qaldırılıb. Ölkədəki aqronom və digər yaxın ixtisas sahibləri bu imkandan istifadə etməyə və aqrar sığorta eksperti kimi çalışmağa dəvət edildi.

Kənd təsərrüfatı nazirinin müşaviri Zaur Əliyev çıxışında ölkə iqtisadiyyatı üçün mühüm sahə olan aqrar sektorun davamlı inkişafında sığortanın əhəmiyyətini diqqətə çatdırdı. O qeyd etdi ki, gələcəkdə də fermerlərə dəstək aqrar siyasətin əsas alətlərindən olacaq. Son 5 ildə aqrar sahədə uğurlu fəaliyyətlər icra olunduğunu vurğulayan müşavir ötən müddətdə bu sahədə hüquqi bazanın formalaşdırıldığını, aqrar sığorta mexanizminin özünü təkmilləşdirərək inkişaf etdiyini diqqətə çatdırdı. Son illər baş verən iqlim dəyişikliiyi fonunda sığorta ödənişlərinin həcmi fermerlərə fəaliyyətini davam etdirməyə imkan verir.

MEDİA Agentliyinin şöbə müdiri Elşən Ağayev isə çıxışında belə tədbirlərin jurnalistlərin ixtisaslaşması və iqtisadi proseslərin düzgün işıqlandırılması baxımından mühüm olduğunu diqqətə çatdırdı. Azərbaycan Respublikasının Kosmik Agentliyi – "Azərkosmos"un nümayəndəsi İsmət Baxışov "Kosmik texnologiyalar aqrar sektorun xidmətində" mövzusunda təqdimatla çıxış edərək peykdən əkin



sahələrinin monitorinqi imkanlarını nümayiş etdirdi və bunun əhəmiyyətini diqqətə çatdırdı.

"Dünyada və Azərbaycanda aqrar sığorta mexanizmi, risklər və məhsullar" mövzusunda təqdimatda bildirildi ki, dünyada aqrar sığortanın müxtəlif modelləri var. Azərbaycan bu sahədə qardaş Türkiyənin TARSİM təşkilatının təcrübəsindən istifadə edib. Yaradılan aqrar sığorta modeli, dövlət dəstəkli və qeyri-kommersiya xarakterli olması səbəbindən daha dayanıqlıdır.

Aqrar sığorta vasitəsilə əkin sahələrinin sığortasının olduqca sərfəli olduğu diqqətə çatdırılaraq qeyd edildi ki, aqrar sığortaya dövlətin 50 faizlik mühüm dəstəyi var. Bunun sayəsində fermerlər öz təsərrüfatlarını ikiqat aşağı qiymətlə sığorta edə bilirlər. Məsələn, ölkənin əksər hissəsində 1000 manatlıq taxılın illik sığorta haqqı cəmi 7-10 manat ətrafındadır.

Tədbirdə jurnalistlərin bölgədəki fermerlərlə birbaşa ünsiyyətinə də şərait yaradıldı. Əkin sahəsinə dəymiş zərərə görə Aqrar Sığorta Fondundan ödəniş almış Ağsu rayonunu Abasxanlı kənindən olan fermer Rasim Məmmədov canla yayımla tədbirə qoşularaq sığorta hadisəsi, sığorta ödənişini alması barədə ətraflı məlumat verdi. O, aqrar sığorta mexanizmindən məmnun qaldığını bildirərək digər fermerləri də əkin sahələrini sığorta etməyə çağırdı.

"Aqrar sığorta hadisələri və zərərlərin tənzimlənməsi" mövzusunda təqdimatda Azərbaycanda əkin sahələrində baş verən təbiət hadisələri, bu hadisələrin təsərrüıfatlara vurduğu zərər, zərərlərin araşdırılması və qarşılanması prosesi ətraflı izah edildi. Bildirildi ki, ölkədə ən çox baş verən təbiət hadisələri fırtına-qasırğa, dolu, selsubasma halıdır. Buna misal olaraq 2024-cü ildə Samux rayonunda 600 hektar ərazinin su basması misal göstərildi. Qeyd olundu ki, həmin hadisə nəticəsində buradakı sığortalı təsərrüfatlara dəyən, təqribən, 700 min manatlıq zərər Aqrar Sığorta Fondu tərəfindən qarşılanıb.

"Azərbaycanda aqrar sığorta: İnkişaf və perspektivlər" mövzusunda tədbirdə ötən il təbiət hadisəsi nəticəsində zərərlə üzləşmiş və böyük məbləğdə sığorta ödənişi almış "Kür Fruit" şirkətinin rəhbəri Ramiz Nuriyev çıxış edərək aqrar sığorta prosesi barədə məlumat verdi, aqrar sığortanın daha da təkmilləşdirilməsi üçün təkliflərini səsləndirdi.

Toplantıda Aqrar Sığorta Fondunun 2024-cü il üzrə nəticələri də açıqlandı. Bildirildi ki, 2024-cü ildə Azərbaycanda aqrar sığortaya maraq artmaqda davam edib. Belə ki, sığortalanan əkinlərin sahəsi 447 min hektara çatıb ki, bu da əvvəlki illə müqayisədə 25 min hektar və ya 6 faiz artıqdır. Bununla yanaşı, əkin sahələrinin sığortalanması üzrə aqrar sığorta müqavilələrinin sayı 11 faiz artaraq 56 min 662-yə yüksəlib. Ötən ilk dəfə olaraq nektarin, qarpız, albalı, yemiş və tütün bitkilər də sığorta edilib.

Diqqətə çatdırıldı ki, 2024-cü ildə zərərə məruz qalmış təsərrüfatlara fond tərəfindən 6 milyon 423 min manat sığorta ödənişi edilib. Əvvəlki illə müqayisədə sığorta ödənişləri 2 2 milyon manat və ya 46 faiz artıb. Sığorta ödənişlərinin 5 milyon 246 min manatı bitkiçilik, 1 milyon 177 min manatı isə heyvandarlıq təsərrüfatlarının payına düşüb.

Bitkiçilik üzrə ən çox sığorta ödənişləri: fırtına-qasırğa, sel-subasma və dolu, vəhşi heyvanların hücumu, 3-cü şəxsin hərəkəti üzrə edilib. Ən çox ödəniş edilən bitkilər (taxıl, pambıq və qarğıdalıdan başqa): üzüm, gilas, alma, badam və ərik, çəltik və qarpız olub. Bitkiçilik üzrə ən çox zərər ödənişləri 6 rayonun – Şəki, Samux, Qobustan, Ağcabədi, Saatlı, Ağstafa rayonlarının payına düşür. Eyni zamanda, ötən il aqrar sığortanın əhatə dairəsi genişlənib və Naxçıvan Muxtar Respublikasında yeni filial fəaliyyətə başlayıb.

Qeyd edildi ki, 2024-cü ildə aqrar sığortanın əlçatanlığı üzrə işlərin davam etdirilməsi nəticəsində kənd təsərrüfatı heyvanlarının sığortası üzrə tariflər 5,2 faizdən mal-qara üçün 4,9 faizə, xırdabuynuzlu heyvnalar üçün isə 4,7 faizə endirilib.

Sonda jurnalistlərin çoxsaylı sualları cavablandırıldı, ətraflı izahlar verildi.

# "Azərişıq" "ASAN xidmət indeksi" qalibidir

**"Azərişıq" ASC ötən ilki fəaliyyətinə əsasən, "ASAN xidmət indeksi" üzrə qiymətləndirmədə 37 mərkəzi icra hakimiyyəti orqanı arasında 99,6 faiz nəticə ilə rekordunu yeniləyərək 1-ci olub.**




Səhmdar cəmiyyətin məlumatına görə, qiymətləndirmənin nəticələri ilə bağlı təqdimatda "Azərişıq"la yanaşı, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və digər qurumların rəhbər vəzifəli şəxsləri iştirak ediblər. Qiymətləndirilmənin keçirilməsində əsas məqsəd dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə sistemləşdirilməsi, xidmətdən yararlanma və xidmət üçün ödəniş imkanlarının, şikayət mexanizmlərinin inkişaf etdirilməsi, şəffaflığın təmin olunması, əməkdaşların peşəkarlıq səviyyəsinin ölçülməsi və ən əsası isə elektronlaşdırılma ilə bağlı prosesin sürətləndirilməsi yolu ilə bu sahədə idarəetmənin çevikliyinin gerçəkləşdirilməsi, təhlil və proqnozlaşdırma imkanlarının artırılmasıdır.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi 2024-cü ildə 37 mərkəzi icra hakimiyyəti orqanının 167, 23 yerli icra hakimiyyəti orqanının 89 və 15 hüquqi şəxsin 44 xidməti daxil olmaqla, ümumilikdə, 300 xidməti qiymətləndirib.

"Azərişıq" vətəndaş məmnunluğunu və əlçatanlığını artırmaq məqsədilə xidmətləri onlayn platformaya inteqrasiya edib, göstərdiyi 18 adda xidmətdən 15 xidmət üzrə e-gov.az və ya e-service.azerishiq.az portalı vasitəsilə müraciət etmək imkanı yaradıb. Qurumun Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil etdiyi xidmətlərin 2024-cü il üzrə xidmət səviyyəsinin ölçülməsini, məlumatların toplanılmasını, yoxlanılmasını, təhlilini və qiymətləndirilməsini aparmaq üçün "ASAN xidmət indeksi"ni təşkil edən 155 adda meyarlar və altmeyarlar üzrə, ümumilikdə, 775 sorğu cavablandırılıb, əsaslandırıcı sənədlər təqdim olunub.

Mərasimdə mərkəzi icra hakimiyyəti, yerli icra hakimiyyəti və hüquqi şəxslər üzrə "ASAN xidmət indeksi" qiymətləndirilməsi nəticələri açıqlanaraq qeyd olunub ki, "Azərişıq" "ASAN xidmət indeksi"nin qiymətləndirmə tarixində ötənilki 98,3 faizlik rekord nəticəsini yeniləyib. Ötən illərdə də "Azərişıq" xidmətlərin keyfiyyətinin artırılması sahəsində mühüm uğurlar qazanıb, xidmət keyfiyyətinə görə dövlət qurumları arasında ön sıralarda qərarlaşıb.

Yeri gəlmişkən, Energetika Nazirliyi isə ötən ilki fəaliyyətinə əsasən, "ASAN xidmət indeksi" üzrə qiymətləndirmədə 37 mərkəzi icra hakimiyyəti orqanı arasında 71,25 faiz göstərici ilə 3-cü sırada yer alıb.

Nazirliyin məlumatına görə, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşkil etdiyi təqdimat mərasimində quruma müvafiq sertifikat təqdim olunub.

Xatırladaq ki, Energetika Nazirliyi əvvəlki il 67,8 faizlə 4-cü yeri tutub, mövqeyini yaxşılaşdırmaq üçün xidmət keyfiyyətinin artırılması sahəsində mühüm addımlar atıb.

# Bakı və Pakistan birjaları əməkdaşlığı gücləndirir



**Bakı Fond Birjası (BFB) və Pakistan Fond Birjası (PSX) arasında ikitərəfli əməkdaşlığın gücləndirilməsinə dair memorandum imzalanıb. Sənədi Bakı Fond Birjasının İdarə Heyətinin sədri Ruslan Xəlilov və Pakistan Fond Birjasının Baş İcraçı Direktoru Fərrux Sabzvari imzalayıblar. Virtual imzalanma mərasimində Bakı Fond Birjasının və Pakistan Fond Birjasının nümayəndə heyətləri iştirak ediblər.**

Memorandumun məqsədi Pakistan və Azərbaycanın kapital bazarlarına dair əməkdaşlıq əlaqələrini gücləndirmək, hər iki ölkənin maliyyə xidmətləri sektorlarında qarşılıqlı inkişafı təşviq etməkdir. Bu strateji tərəfdaşlığın hər iki ölkənin maliyyə sektorunda daha sıx əlaqələrə yol açacağı, ümumi iqtisadi artıma və investisiya mühitinə töhfə verəcəyi gözlənilir.

Memorandum Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana rəsmi səfəri çərçivəsində imzalanıb.

# Bu il ÜDM 75 milyard dollara çatacaq

*Daxili və xarici proqnozlarda artımın 3-4 faiz olacağı bildirilir*

**"S&P Global" Beynəlxalq Reytinq Agentliyinin bildirdiyinə əsasən, bu il Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) nominal həcmi 74,98 milyard dollar (127,466 milyard manat) təşkil edəcək və gələn il 77,86 milyard dollara (132,362 milyard manat) qədər artacaq.**




Agentlik, eyni zamanda, 2025–2026-cı illərdə ölkədə ÜDM-in real artımını 2 faiz səviyyəsində proqnozlaşdırıb. Agentlik, eyni zamanda, əhalinin hər nəfərinə düşən ÜDM-in 2025-ci ildə 7 min 277 dollara çatacağını, 2026-cı ildə isə 7 min 511 dollara yüksələcəyini bildirib.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyi 2025-ci ildə ölkədə iqtisadi artımı 3,5 faiz, Mərkəzi Bank isə 3,3 faiz səviyyəsində proqnozlaşdırır. "Moody's" Beynəlxalq Reytinq Agentliyinin proqnozlarına görə, 2025-ci ildə Azərbaycanda ÜDM-in real artımı 4 faiz təşkil edəcək. "Fitch Ratings" ölkə üzrə ÜDM-in 2025-ci ildə 3 faiz, 2026-cı ildə isə 2,4 faiz artacağını proqnozlaşdırır. Niderlandın ING bankı bu il Azərbaycanda iqtisadi artımı 2,6 faiz, gələn il isə 2,8 faiz səviyyəsində gözləyir.

2024-cü ildə Azərbaycan iqtisadiyyatı 4,1 faiz artıb, nominal ÜDM 126,337 milyard manat (74,315 milyard ABŞ dolları) təşkil edib.

# İstehlak bazarı 5 faiz böyüyüb

**Dövlət Statistika Komitəsinin xəbərinə əsasən, bu ilin yanvar ayında ölkədə istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 6,1 milyard manat (ötən ilin eyni dövrü ilə müqayisədə 5 faiz çox) olub.**



Aylıq dövriyyənin 78,8 faizini pərakəndə ticarət, 18,1 faizini əhaliyə göstərilmiş ödənişli xidmət, 3,1 faizini isə ictimai iaşə təşkil edib. Son 1 ildə qeyri-dövlət sektorunda fəaliyyət göstərən təsərrüfat subyektlərinin satdığı malların və göstərdiyi xidmətlərin dəyəri 4,8 faiz artaraq 5,9 milyard manata çatıb, onun 46,6 faiz fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

Hesabat ayında bir istehlakçı orta hesabla 601 manat və yaxud 1 il əvvələ nisbətən 52 manat çox vəsait xərcləyib.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Müstəqil dövlətçilik və dövlət dili



I MƏQALƏ

## Dövlətçilik

Dövlətçilik yalnız dövlətin müəyyən bir tarixi mərhələdə mövcud olduğunu ifadə etmir. Tarixi baxımdan uzun müddət və ardıcıl olaraq dövlətlər quran cəmiyyətin dövlətçiliyi olur. Yəni dövlətçilik konkret bir toplumun (qövmün, xalqın, millətin, cəmiyyətin) dövlət qura bilmək təcrübəsidir. Bu zaman hər bir xalqın dövlətçilik təcrübəsi başqalarından fərqlənə bilər. Bir cəmiyyət üçün dominant sayılan dövlətçilik qaydaları digərində keçərli olmaya blər.

Bundan başqa, hər xalqın özünəxas dövlətqurma fəlsəfəsi olduğu kimi, özəl inkişafetdirmə üsulu da mövcuddur. Bir sıra xalqlar imperiya, digərləri monarxiya, bir başqaları respublika və sair dövlət üsul-idarələrinə üstünlük verə bilər. Burada bütün dünya üçün universal ola biləcək dövlətqurma kriteriyaları məsələsi ortaya çıxır. Lakin bu da özlüyündə çox mürəkkəb problemdir. Ancaq elə standart əlamətlər vardır ki, onlar bütün variantlarda dövlətçilik təcrübəsində və dövlətin funksiyalarını yerinə yetirməsində mütləq iştirak edir. Onlardan biri dil faktorudur.

Maraqlıdır ki, dilin də konkret cəmiyyətin tarixində funksiyaları fərqli ola bilər. Bu, söhbət xüsusilə dövlət dilindən gedəndə, özünü göstərir. Tarixdə olmuş nümunələrə baxaq.

Bir zamanlar öz möhtəşəmliyi ilə seçilən İnka imperiyasında dövlət dili onu quran etnosa aid deyildi. İmperiya inkalara məxsus idi, dili isə həmin etnosun işğal etdiyi ərazidə yaşayan tayfalardan birinə–keçua tayfasına aid idi.

Məşhur tarixçi Benedikt Anderson dövlət və millətçilik məsələsində “kreol dövlətləri”ni ayrıca qeyd edir. Bu termin “yetişdirilən dövlət” anlamını verir. Onlar Latın Amerikası, Asiya və Afrikada qərblilərin müstəmləkə siyasəti nəticəsində formalaşan dövlətlərdir. Əsasən, ispanlar və portuqalların istilası nəticəsində avropalı ilə yerli əhalinin qarışmasından yaranan insanlara aid edilirdi. Onlar üçün əsas dil ya ingilis, ya da ispan dilləri sayılırdı. B.Anderson yazır ki, bu irqi qarışıqlıq kreol millətçiliyini yaratdı. Onun başlıca əlaməti kreolların dövlət dili uğrunda deyil (əsasən ingilisi qəbul etmişdilər), hüquq və haqların təmin edilməsi, idarəetmədə ayrı-seçkiliyin olmaması üçün mübarizə aparmaqdan ibarət idi.

Uzaq Şərqdə dövlət və dil münasibətləri bundan fərqli olmuşdur. B.Anderson Vyetnamda ana dili əlifbasının dəyişməsi prosesini təhlil edir və göstərir ki, əsrlərlə bu ölkədə mövcud olan ieroqlif yazı qaydasını Avropadan göndərilmiş bir ieduist dəyişmişdir və vyetnamlılar onu qəbul etmişlər.

Ancaq dövlət və dil münasibətlərinin bunlardan fərqli olduğu ölkələr çoxluq təşkil edirlər. Deməli, ayrı-ayrı təzahürlər kökdən dövlətçiliyi və dövlət-dil münasibətlərini tam xarakterizə edə bilmirlər. Bu keyfiyyətdə hər hansı özəl nümunəni universallaşdırmaq doğru deyildir. Burada tədqiqatlara görə, əsas faktor dövlətçiliyin mahiyyəti ilə bağlıdır.

Müasir anlamda dövlətçilik millətin müəyyən siyasi-ictimai formalaşmasının inkişafının göstəricisidir. Millət dövlətçilik ənənəsi üzərində dövlətlərini qurur, hüquqi sistemini, sosial institutlarını yaradır. Və yaxud tarixin hansısa dönəmində bu ənənə pozulmuşsa, onu bərpa edir. Bu baxımdan dövlətçiliyi tarixin konkret dönəmlərində cəmiyyətin inkişaf göstəricisi, onun durumu, keyfiyyəti kimi təsəvvür etmək olar. Dövlətçilik dövlətin mahiyyəti və keyfiyyətidir. Dövlət isə dövlətçiliyin təzahür formasıdır.

Bunlardan belə qənaətə gəlmək olar: “Hər hansı xalqın dövlətçiliyi vardır”,– deyəndə onun dövlətinin olduğu anlamı ifadə edilir. Dövlətçilik ictimai həyatı bütövlükdə müəyyən edir. O cümlədən, siyasi nizamı müəyyənləşdirir. Bu da kompleks halında dövlətin əsaslığı deməkdir. Yəni dövlət xalqın dövlətçiliyinə uyğun olmalıdır.

Vurğulanan məqamlardan dövlətçilik anlayışının iki mühüm xarakteristikasına gəlib çıxırıq. Onlardan biri dövlətin statusluğu, digəri isə əsaslığıdır.

## Dövlətin statusluğu və əsaslığı

Bu məsələni XX əsrin 60-cı illərində Con Piter Nettl qaldırmışdır. Onun qənaətinə görə, statusluq dövlətin dünya sistemində yerini və rolunu müəyyən edir.

Dövlətin əsaslığı isə onun öz dövlətçilik təbiətinə uyğunluğunu ifadə edir. Həmin anlamda dövlətçiliyə uyğunluğun bazasında “sosiumun daxili inkişafı”nın özəlliyi dayanır.

Bizcə, bu iki faktor dövlətçilik–dövlət–dövlət dili üçbucağının hər bir məsələsini adekvat anlamağa istiqamət verir. Belə ki, dövlət o zaman əsaslı olur ki, cəmiyyətin daxili inkişaf özəllikləri üzərində bərqərar olur, yəni həmin şərtlər daxilində formalaşır, mövcud olur və inkişaf edir. Dövlət millətin tarixi təkamülü özəllikləri ilə xarakterizə olunur. Başqa hallarda həmin dövləti “yalançıdövlət” (“psevdodövlət”) adlandırmaq lazım gəlir. Eyni zamanda, dövlətin statusu, yəni beynəlxalq miqyasda yeri və rolu, cəmiyyətin daxili inkişaf şərtlərinə nə dərəcədə uyğun olmasından birbaşa asılıdır. V.L.Sımburski obrazlı ifadə edir ki, digər şərtlər daxilində dövlət “geosiyasi qum yığınının” bir dənəsi olur.

Bunları ümumiləşdirsək, belə qənaətə gələ bilərik: dövlətçilik konkret cəmiyyətin tarixi, iqtisadi, siyasi və xarici siyasi fəaliyyətinin çərçivələrini yaratması prosesidir. Bu zaman cəmiyyət ərazi, institusional və funksional bütövlüyə nail olur ki, bunun əlaməti öz dövlətidir. Başqa adla bu prosesi cəmiyyətin suveren milli siyasi sistemini yaratması kimi də xarakterizə etmək olar. Elə bir siyasi sistem ki, dünya ictimaiyyəti tərəfindən qəbul edilmiş statusa malikdir.

## Dövlət dili

Dövlət dili dövlətdə qanunvericiliklə müəyyən edilmiş ən yüksək hüquqi statusa malikdir. Ona iki aspektdə baxmaq olar. Birincisi, dövlət dili konkret dövlət çərçivəsində siyasi, sosial, iqtisadi və mədəniyyət sferalarında inteqrativ (birləşdirici) funksiyanı yerinə yetirir. İkincisi, rəsmi kommunikativ sferalarda dövlətin rəmzi kimi istifadə edilir.

Dövlət dövlət dilinin saxlanması, qorunması və inkişafı üçün məsuliyyət daşıyır. Dövlət dilinin mövcudluğu cəmiyyətdə işlənən başqa dilləri qadağan etmir.

Bundan başqa, dövlət dilinin funksiyasına cəmiyyətdə formalaşmış ənənəvi sosial-kommunikativ sistemin özəllikləri təsir edir. Burada dövlətin dil siyasəti də rol oynayır. Dövlət dilində qanunlar dərc edilir, rəsmi sənədlər yayılır. Dövlət dili hərbidə məcburidir. Alimlər vurğulayırlar ki, məktəblərdə və başqa tədris müəssisələrində tədris dövlət dilində aparılır. Çünki dövlətin vətəndaşları onu öyrənməli və fəal surətdə istifadə etməlidirlər. Onun geniş istifadə sferasını həm də radio, televiziya, KİV, media təşkil edir.

Dövlət dilinin mühüm funksiyalarından biri dövlətin vətəndaşları arasında ünsiyyət vasitəsi olması ilə bağlıdır. Konkret dövlətdə vətəndaşları ünsiyyətdə məhz dövlət dili birləşdirməlidir. Bu funksiyanın natamamlığı, zəifləməsi və ya hansısa başqa dilin fonunda arxa plana atılması birbaşa cəmiyyətin bütövlüyünün pozulmasına səbəb ola bilər. Müasir dönəmdə dil məsələsinin bu özəlliyi xeyli aktuallaşmışdır. Çünki sirr deyildir ki, XXI əsri informasiya və kommunikasiya (ünsiyyət) əsri adlandırırlar. Hər hansı cəmiyyəti dövlət dili birləşdirə bilmirsə, dövlətin əsaslığı və deməli, statusu şübhə altına alınır.

Bu o deməkdir ki, müasir mərhələdə cəmiyyəti inteqrasiya edən dilin hansı olması prinsipial strateji məna daşıyır. Burada, təbii ki, əsl, əsaslı, statuslu dövlət üçün dövlət dili aktual məsələ olaraq ön sırada yer almalıdır. Cəmiyyətdə heç bir dil öz funksional əhatəsinə və təsir gücünə görə dövlət dilindən önə keçməməlidir. Bunun təməlində isə müasir dövrün xarakterinə uyğun olan keyfiyyətli təhsil dayanır. Məhz təhsil vətəndaşın dil, mənəviyyat, mədəniyyət istiqamətləri üzrə yetişməsində açar rolunu oynayır. Burada ailəni, əlbəttə kənara qoymaq olmaz.

Onu da vurğulamaq lazımdır ki, dil siyasəti ölkədən ölkəyə fərqlənə bilər. Hazırda dünyada 178 dövlət öz dövlət dilinə malikdir. Əksər dövlətlərdə dövlət dili birdir, digərlərində iki dövlət dili olur, az qismdə isə çox dövlət dili vardır (məsələn, İsveçrə, Belçika, Boliviya, CAR). Bəzi hallarda dövlət dili ölkə üzrə bir dənədir, lakin regionlarda da rəsmi səviyyədə işlənən dillər olur (məsələn, Rusiya, İtaliya, İspaniya).

Elə dövlətlər də vardır ki, de-yure dövlət dili müəyyən edilməmişdir, lakin de-fakto bir dil işlədilir (məsələn, ABŞ, Böyük Britaniya, Avstraliyada de-fakto ingilis dili dövlət dilidir). Bununla yanaşı, bu və ya digər dillər dövlət daxilində rəsmi sənədlərdə istifadə oluna bilir. Buna görə də alimlər “dövlət dili” ilə “rəsmi dil” arasında fərq qoymağı daha doğru sayırlar. Əksər sənədlərdə isə dövlət dili və rəsmi dil sinonim kimi işlədilir. Ancaq burada bir incəlik vardır.

## Dövlət dili və rəsmi dil

Məsələ ondan ibarətdir ki, 1953-cü ildə UNESCO-nun ekspertləri “dövlət dili” (national language) anlayışı ilə “rəsmi dil”( official language) anlayışını fərqləndirmişlər. Onlar dövlət dilini konkret ölkədə siyasi, sosial və kültür sferalarında birləşdirici rol oynayan faktor kimi qəbul etmişlər. Rəsmi dil isə dövlət idarəetməsinin, qanunvericiliyin, məhkəmənin dilidir.

Buradan aydın olur ki, “dövlət dili” anlayışı “rəsmi dil” anlayışından daha geniş məna və funksiya çalarlarına malikdir. Belə ki, rəsmi dil rəsmi ünsiyyət-kommunikasiya funksiyasını yerinə yetirir. Dövlət dili isə yalnız rəsmi ünsiyyət sferası ilə məhdudlaşmır. O, mədəniyyət, sosial, mənəvi, əxlaqi sahələri də əhatə edir. Eyni zamanda, dövlət dili dövlətin rəmzinə aiddir.

Beləliklə, “dövlət dili” hüquqi kateqoriya kimi, dilə dövlətin tamlığını təmin etmək statusunu verir. Bu mənada dövlət dili həm də siyasi aspektdə millətin bütövlüyünü, birliyini təmin etməlidir. Yəni dövlət dili vahid ictimai kommunikativ və mədəniyyət məkanının formalaşdırılmasında aparıcı rol oynamalıdır. Bunun üçün dövlət dilində cəmiyyətin və dövlətin birliyinə xidmət edən formallaşmış qaydalar müəyyən olunmalıdır. Bu qaydalara ictimai kommunikasiya məkanında mütləq surətdə əməl edilməlidir. Həmin məkanın əhatə dairəsi isə çox genişdir.

Belə ki, dövlət dili ümumi kommunikativ məkanın təmin edilməsi funksiyasını yerinə yetirmək üçün linqvistik kateqoriya kimi əsaslı “standart dil” (ədəbi dil) sisteminə malik olmalıdır. Hesab olunur ki, milli dilin məhz bu hissəsi səmərəli ümumünsiyyət qabiliyyətinə (və ya keyfiyyətinə) malikdir. Ədəbi dil ölkədə olan digər dillərin təmsilçiləri arasında effektiv kommunikasiyanı təmin edə bilər. Ədəbi dilin formalaşması isə ancaq təhsil sistemində gerçəkləşir.

Buradan avtomatik aydın olur ki, təhsil dil aspektində, ümumiyyətlə, şəxsiyyətin yetişməsində, vətəndaş şüurunun formalaşmasında, insanın özünə və cəmiyyətin tarixinə mövqeyinin formalaşmasında, onun düşüncə tərzinin formalaşmasında həlledici rol oynayır. Başqa tərəfdən, bu o deməkdir ki, insanın hansı dildə təhsil alması əlavə dil öyrənmə prosesi və ya daha səviyyəli mütəxəssis olmaq cəhdi deyildir. Təhsilin dili insanın daxili mənəvi aləmini və düşüncə tərzini, dünyaduyumunu, cəmiyyətə, mənsub olduğu xalq haqqında təsəvvürlərini formalaşdırır.

Bütün bunlar Azərbaycanda dövlətçilik və dövlət dili münasibətləri kontekstində aktual olan bir sıra məsələlərin təhlili üçün faydalı ola bilər. Mövzunun bu aspekti üzərində geniş dayanaq.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# “Böyük manipulyator”

***Ma kE NDEVELD***

***(əvvəli ötən saylarımızda)***

## Mayın ikisində hazırlanan videolar

Benalla məsələsinin başqa bir qaranlıq məqamı da var: İyul ayının 19-da Yelisey sarayı Parisin polis prefekturasına məxsus olan video görüntülərini sosial şəbəkələrdə yayır. Bu videoda mayın 1-də Parisin Contrescarpe meydanında baş verən hadisələr təsvir olunur. Təsvirdə, hər şeydən əvvəl, tamaşaçının diqqətini polislərin üstünə partlayıcı maddələr atan cütlük (Benalla onları dəyənəklə döyməmişdən bir neçə dəqiqə əvvəl) çəkir. Bu videonun sosial şəbəkələrdə yaymaqda Yelisey sarayının məqsədi Benallanın dəyənəklə döydüyü cütlüyü əhalinin gözündən salmaq, eləcə də hamıya sübut etməkdir ki, baxın, Benalla onları əbəs yerə vurmayıb, sadəcə olaraq asayişi qoruyan polis işçilərini müdafiə etmək üçün bu hərəkəti edib. Qısası, zərərçəkən cütlük günahsız deyil, etdikləri qanunsuz hərəkətin qurbanlarıdır. İyulun 19-da LREM (Respublika hərəkətdə partiyası) partiyasının əməkdaşı Pier Lö Teksie tərəfi ndən idarə olunan anonim FrenchPolitic X profi - lində bu başıbəlalı video yayımlanır. Bir neçə saatdan sonra Makronun dəstəyi ilə jurnalistlər də bu görüntülərdən xəbər tutur. Daha bir neçə saat sonra Paris polis prefekturası Yelisey sarayının kabinet direktoru Patrik Strzodaya zəng vurub onu bu məsələdən hali edir. Bu zəngdən sonra hər şey birdən-birə dayanır.

Polislər bu videonun yayılmasında İsmael Emelienin əli olduğundan şübhələnirlər. O da heç nəyi inkar etmir. Yelisey sarayının bu xüsusi müşaviri IGPN (Milli Polisin Baş Müfətt işliyi) polisinin əməkdaşlarına etiraf edir ki, bu videonu qeyri-qanuni şəkildə şəxsən özü yayıb. (!) “Mən bunu cənab Benallanın şəxsi müdafiəsi üçün etməmişəm, əksinə, Respublika prezidentini qorumaqdan ötəri etmişəm. Çünki onun da adı bu məsələdə hallanır...”, – deyə özünə haqq qazandırır. Ancaq bununla belə müstəntiqlərin topladığı versiyalar ziddiyyətlidir. Paris prefekturasının bəzi əməkdaşları bu videonun surətini çıxarıb CD-ROM diskinə köçürməkdə günahlandırılır. İyulun 18-dən 19-a keçən gecə Yelisey sarayı ilə Paris polis prefekturasının arasındakı əlaqə zabiti Jan-İv Huno, bu CD-ROM diskini Aleksandr Benallaya gətirir. Həmin vaxt Benalla Yelisey sarayından bir neçə küçə aralıda yerləşən Damas kafesində həmkarı Vənsan Qras ilə sulu qəlyan çəkir. Missiya meneceri (Benalla) istintaq zamanı müstəntiqlərə deyir ki, o, diskə baxmayıb, evinə qayıdıb yatıb, yalnız sabahı gün səhər saat 08:30-da onu aparıb Yelisey sarayında İsmael Emelienə verib. Ancaq ola bilər ki, hadisələr tamam başqa bir şəkildə cərəyan edib. Çünki bizim əlimizdə olan məlumata görə bu video görüntülər iyulun 19-da, səhər saat 8:30-da Yelisey sarayına gətirilməyib, xeyli əvvəl mayın 2-də Parisin Contrescarpe meydanında baş verən hadisənin səhəri günü gətirilib. Yaxşı, əgər bu versiya düzgündürsə, onda bütün bu müddət ərzində nə baş verib ki, video xeyli müddət sonra sosial şəbəkələrdə yayılıb? CD-ROM Yelisey sarayında kimə verilib? Məhkəmə materiallarından aydın olur ki, bu məşhur video Paris prefekturasının kompüter servisində may ayının 2-də CD-ROM diskinə köçürülüb. IGPN (Milli Polisin Baş Müfətt işliyi) polislərinin qarşısında, Emelien etiraf edir ki, doğrudan da, onun bu videodan çoxdan xəbəri varmış – daha doğrusu, mayın 2-dən. Emelienin dediyinə görə, tanışları ona zəng vurub xəbər veriblər ki, sosial şəbəkələrdə yayılan bir videoda cənab Benallanı görmüşük. Elə həmin gün, cənab Benalla onun ofi sinə gəlib, ona başqa bir video göstərib və deyib ki, bu video internetdən lentə alınıb. Bu videoda Benallanın dəyənəklə döydüyü, nümayiş zamanı asayişin xidmətində olanlara qarşı zorakılıq göstərənbir şəxs görünür. Benalla deyir ki, mən bu adamı ona görə vurdum ki, o polislərin üstünə partlayıcı maddə ilə dolu şüşələr atırdı. Bu yalandır. Ancaq buna baxmayaraq, bu görüntülər də montaj vasitəsilə döyülən cütlüyün polislərə qarşı müqavimət göstərdiyi videoya əlavə olunacaq və iyulun 19-da LREM (Respublika hərəkətdə partiyası) partiyasının əməkdaşı Pier Lö Teksie tərəfindən idarə olunan anonim @FrenchPolitic X profilində sosial şəbəkələrə yayılacaq. Bir müddət sonra televiziyaya verdiyi müsahibəsində İsmael Emelien etdiklərinə haqq qazandıracaq.




## Yelisey sarayının “təslim olanları”

Mayın 1-də baş verən hadisələrlə bağlı Le Monde qəzetində dərc olunan məqalədən sonra Makron tamamilə şoka düşür. Yelisey sarayına bir neçə gün lazım olacaq ki, makronistlərə mətbuatda nə demək lazım olduğu tövsiyə edilsin. Ən başlıcası isə jurnalistlərə izah etsinlər ki, bu hadisə “Dövlət qalmaqalı deyil”, “Yay qalmaqalıdır”. Ancaq hər şey bunun əksini göstərir. Əvvəlcə, heç Brijit Makron bu qalmaqalın miqyasını hiss etmir. Le Monde qəzetində dərc olunan məqalədən bir gün sonra birinci xanım komandası ilə nahar edir və stol arxasında gənc missiya menecerini (Benalla) müdafi ə etməkdə davam edir. Həmçinin dostlarından birinə izah edir ki, Benalla həmişə “mümkün olmayan bir işi, mümkün olan bir işə çevirməyə qadir olan bir oğlandır”.

Yay ərzində Emmanuel Makron bu məsələ haqqında hər hansı bir rəsmi bəyanat verməkdən imtina edir. Zirehli prezident maşınının tünd şüşələrinin arxasında gizlənib jurnalistlərdən qaçır. Payızda gənc prezident yorğun-arğın, tamamilə əldən düşmüş kimi görünür. Hətt a onun ətrafındakı həmkarları da onun bu görkəmindən heyrətə gəlirlər. Makron, demək olar ki, gecələr qəti yatmır; o qədər arıqlayır ki, paltarlarının içində üzür. Yorğunluqdan sifətində ləkələr əmələ gəlir. Bu ləkələri gizlətmək üçün prezident hər səhər üz-gözünü makiyaj edir. Ən başlıcası isə Makron hamıdan qaçır, heç kəslə dialoqa girmir. Daxili İşlər naziri Jerard Kollomb bu vəzifədən getməyindən bir neçə gün əvvəl La Dépêche du Midi qəzetinin jurnalistləri ilə müsahibəsində etiraf edir ki: “Bizim aramızda onunla danışmağa şansı olan adamlar çox azdır.

[…] Əgər hamı onun qarşısında diz çökməkdə davam eləsə, o hamıdan təcrid olunacaq... çünki təcrid olunmaq Yelisey sarayanın qanındadır”.

Bu azmış kimi, həmin dövrdə prezidentin komandasında da gərginlik artır. Prezident aparatının mətbuatla əlaqə şöbəsinin müdiri, keçmiş jurnalist Brüno Rojer-Peti işdən çıxarılandan sonra president aparatının beynəlxalq mətbuat üzrə məsləhətçisi Barbara Früjiye “yay skandalının” zibilinə düşür. Hələ iyul ayında Aleksi Kohler ona eyham vurmuşdu ki, “sən gələcəkdə nələr olacağını indidən düşünməlisən...”, ancaq dəqiq heç nə deməmişdi. Kohler əməkdaşları ilə söhbətlərdə həmişə çəkinmədən deyir ki: “Barbara Früjiye “yelbeyindir””. Prezident aparatındakı atmosferə bax! Bilmirsən, güləsən, yoxsa ağlayasan...

Avqustun ortalarında məzuniyyətdən qayıdanda, beynəlxalq mətbuat üzrə məsləhətçi xəbər tutur ki, o, bir aydan sonra prezidentin BMT-yə rəsmi səfər heyətinin tərkibində deyil. Təəccüblüsü də burasıdır ki,heç kim onu xəbərdar etməyib. Nəhayət, Sibet Ndiay ona bu xəbəri çatdırır və əlavə edir ki, o, prezident aparatından getməlidir. Barbara başa düşür ki, onun Yelisey sarayının klanında qalmasını artıq istəmirlər. Hər işini canla-başla görən, bütün vaxtını, enerjisini hətt a şəxsi həyatını işinə qurban verən bu qadın eşitdiklərindən şoka düşür. Ona görə də prezidentin qəbuluna yazılıb onunla görüşməyi xahiş edir. Dövlət başçısı ilə söhbətdə beynəlxalq mətbuat üzrə əvəzolunmaz məsləhətçi kövrəlir, sonra özünü saxlaya bilməyib hönkürtü ilə ağlayır. Ürəyi yumşalan Makron qərar verir ki, Barbara Früjiye öz vəzifəsində qalsın və onu da əlavə edir ki, daha Rəsmi Dövlət Jurnalına yeni adamlar qəbul olunmasın.

**(ardı var)**

# "Erməni xəstəliyi"– dünya təbabətinin sirri

**"Erməni xəstəliyi" haqqında indiyədək çox yazılıb. Nəsildən-nəslə bir sıra ermənişünas, sosioloq, bioloq, tarixçi bu millətə xas xəstəliyin üstündə baş sındırıblar. Səhiyyə tarixinə düşmüş "erməni xəstəliyi"nin klinik formaları, etnologiyası, patogenezi və gedişi haqqında dünya şöhrətli alimlər onun müxtəlif əlamətlərini tədqiq edib, araşdırmalar aparıblar. Alimlər "erməni xəstəliyi" ilə bağlı kitablar, elmi məqalələr yazıb, bəziləri isə bu işi dayandırıb, bir sıra alimlər isə fikirlərini qısa olaraq belə ifadə ediblər: - "Sirli tayfa", "Zərərli element", "Alaq otu","Vəhşi tayfa" və s.**

Həkimlərin gəldiyi qənaət belədir ki, "erməni xəstəliyi"nə ancaq erməni millətindən olanlar və onlarla yaxınlıq edənlər tutulurlar.

Postsovet məkanında belə xəstələrin 90 faizdən çoxunu ermənilər təşkil edib. Miqrasiya prosesləri və millətlərarası nikahlar səbəbindən bu xəstəliyə Gürcüstanda, eləcə də Şimali Qafqaz xalqlarının nümayəndələri arasında da rast gəlmək olur. "Erməni xəstəliyi"nin öyrənilməsi probleminin, demək olar ki, bir əsrlik tarixi var. Ermənilər arasında təkrarlanan xroniki






iltihablı sindromlar haqqında ilk dəfə XII əsrdə Mxitar Heratsinin "Qızdırmalar üçün təsəlli" əsərində məlumat verilib.

"Erməni xəstəliyi"nin əmələ gəlməsi tarixi onlar mövcud olan gündən ortaya çıxsa da, bu xəstəliyin elmi tədqiqinə təxminən 400 il bundan əvvəl başlanıb. XVII əsrdən "erməni xəstəliyi" haqqında elmi mübahisələr davam edir. Bu sahədə görkəmli alimlər H.Holler, Y.Sohar, M.Pare, T.Lehman, Y.Pednad, S.Saqal, Y.Tarayev, V.Nosova, O. Vinoqradova və başqaları tədqiqatlar aparıblar. Tədqiqatçılar bu xəstəliyin Aralıq dənizi ətrafında daha çox yayıldığını müşahidə ediblər. Onların da gəldiyi qənaət belədir ki, "erməni xəstəliyi" 85–90 faiz ermənilərdə, 10–15 faiz isə ermənilərlə qohumluğu olan başqa xalqların nümayəndələrində–yəhidilərdə, ərəblərdə, ruslarda, hətta türklərdə müşahidə edilir.

Bəzi tədqiqatçılar "erməni xəstəliyi"ni "vaxtaşırı xəstəlik" də adlandırıblar. Bu xəstəliyin yeniyetmələr və gənclər arasında daha çox yayıldığı ortaya çıxıb. Xəstəlik əsasən dörd klinik formada–qarın, döş, oynaq ağrıları və qızdırma şəklində özünü göstərir. Son 40–50 ildə bu xəstəliyin beşinci–ruhi-əsəb forması da üzə çıxıb. Maraqlı burasındadır ki, ermənilər sağlam vaxtı fitnəkar, yalan uydurmağa meyillidirlər, özləri kimi xəstəlikləri də müəmmalıdır. Yəni bu xəstəliyin dəqiq diaqnozunu öz işini yaxşı bilən professional həkimlər təyin edə bilirlər. Xəstəliyin bir forması da hərarətin yüksəlməsi ilə əlaqədardır, malyariyaya bənzəri var, lakin patoloji əlamətləri yoxdur. Fransa tədqiqatçıları hərarətlə birgə qan təzyiqinin də qalxdığını təyin ediblər. Buna "erməni təzyiqi" adı veriblər. Bu xəstəlik forması 50–70 ildən bir aktivləşir və ermənilərə fəlakətlər gətirir.

Ümumiyyətlə, bu gün Ermənistanda "erməni xəstəliyi"ndən əziyyət çəkən 30 mindən çox insan yaşayır. Bu hələ qeydə alınanlardır. Bundan başqa, İrəvandakı "Arabkir" tibb mərkəzinin məlumatına görə, ölkədə bu xəstəliyi olan 18 yaşa qədər 2700-dən çox uşaq qeydiyyatdadır və hər il təxminən 300–500 uşaqda bu xəstəliyin yeni halları aşkar edilir. İrəvan Genetika Mərkəzində həftədə 60-a yaxın insan bu xəstəliyin aşkar olunması üçün müayinədən keçirilir.

Alimlər müəyyən ediblər ki, "erməni xəstəliyi"nin ruhi-əsəb forması daha təhlükəlidir və bu da son 80–100 ildə üzə çıxıb. Əsas klinik əlamətləri bunlardır: potoloji yalançılıq, özünəvurğunluq, təqibetmə və imperativ sayıqlamalar, sadizm...

Hətta erməni millətindən olan həkimlər "erməni xəstəliyi"nin səbəblərini araşdırmağa cəlb ediliblər. XX əsrdə bu xəstəliyin öyrənilməsinə professor Levon Oqanesyan və psixoterapevt Armen Nersisyan xüsusi töhfə veriblər. Onların araşdırmasına görə, "erməni xəstəliyi"nin ruhi-əsəb forması gendə güclü stress və qorxu hissi ilə yaranır. "Erməni xəstəliyi" əsasən psixoloji səbəblərdən qaynaqlandığı üçün onun əsas müalicə üsulu insanı stresdən azad etməkdir. Bunun üçün isə onlar özünəvurğunluq, təqibetmə, erməni xalqı haqqında "qəhrəman" obrazı yaratmaq, "erməni genosidi" xülyasından azad olmalı, bir müddət sakit həyat sürməlidirlər. Ancaq bu halda "erməni xəstəliyi"nə tutulan şəxslər bu xəstəlikdən azad olub sakit həyata qayıda bilərlər. Onu da demək lazımdır ki, bu xəstəlik xroniki xarakter daşıyır və müalicəsi onilliklərlə davam edə bilər.

Ermənilərin uydurduqları "Böyük Ermənistan" planetimizin az qala yarısını əhatə etməli idi. "Dənizdən dənizə" xülyası Xəzər, Qara və Aralıq dənizlərini əhatə etməli idi. Digər bir erməni ölkəşünası həmin ərazilərə Türkiyə və İranın bir hissəsini, Orta Asiyanı, Livanı, Gürcüstanı, Dağıstanı və Azərbaycanı əlavə edib.

Ruhi xəstələr kiməsə işgəncə, əzab verməkdən ruhlanır, hətta həzz alırlar. Erməni sadizmi xəstəliyi Xocalı soyqırımında bir daha təsdiqini tapıb. Qocaların, qadınların, uşaqların, hətta körpələrin işgəncə ilə öldürülməsi, onların əlinin, ayağının, başının kəsilməsi, uşağın süngüyə keçirilməsi, yandırılması erməni sadizmi deyilmi?

Puşkin "sən qorxaqsan, sən qulsan, sən ermənisən" ifadəsini elə-belə işlətməyib.

Veliçko yazıb: Qafqazlı tatarlar (Azərbaycanlılar) deyir: – On barmağını yandırıb ermənilərin yolunu işıqlandırsan belə, sənə "sağ ol"– deməzlər. Gürcülərdə belə deyim var:–Ermənilər gəldi, təzə dərd gəldi.

Alman səyyahı Alfred Karte "Anadolu eskizləri" əsərində yazıb: "Türklərlə bir iş görmək üçün isə onlarla şifahi şərtləşmək kifayətdir. Yunanlarla müqaviləni ancaq yazılı bağlamaq lazımdır. Anadoluda səni aldatmışlarsa deməli, işin ermənilərdən keçib. Ermənilərlə nə yazılı, nə də şifahi razılaşmaq kara gəlir, çünki onların yalançılığı və davakarlığı hər addımbaşı qarşıya çıxır, bütün şərtləri pozur".

Ruhi xəstə Z.Balayan iftiralarla dolu "Ocaq" kitabının 418-ci səhifəsində yazıb: "Qədim və böyük erməni xalqının dilində Ocaq qədər fəlsəfi sosioloji tutumlu bir söz yoxdur".

Adi məktəbliyə də məlumdur ki, "ocaq" sözü türkdilli xalqlara məxsusdur.

Azərbaycan torpaqlarının 30 illik işğal dövründə ermənilərin törətdikləri hərbi cinayətləri, o cümlədən erməni canisi Zori Balayanın azərbaycanlı qız uşağının diri ikən dərisinin soyulması barədə dəhşətli etirafından çoxunun xəbəri var.

Zori Balayan 1996-cı ildə nəşr olunan "Ruhumuzun canlanması" adlı kitabında Xocalı soyqırımına haqq qazandırır və bu şəhərdə azərbaycanlılara qarşı soyqırımı həyata keçirildiyini fəxrlə etiraf edir:

"Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz on üç yaşlı bir türk qız uşağını pəncərəyə mismarlamışdılar. Türk usağı çox səs-küy salmasın deyə, Xaçatur usağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra bu usağın başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk usağı yeddi dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincdən qürürlanırdı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və biz bu hərəkəti üç türk usağına da tətbiq elədik. Mən bir erməni vətənsevər kimi öz vəzifəmi yerinə yetirdim".

Mkrtıçyan familiyalı erməni Qarabağın daş heykəlləri və monastırlarına həsr etdiyi kitabında yazır ki, Azıx mağarasında olub və daşdan heykəllər görüb. Guya "Azıx" erməni sözü olub, üzüm deməkdir. O daha uzağa gedərək bunu da deyib: – Ermənilər Avropada xristian memarlığının əsasını qoyublar.

Bu xəstəliyin ruhi-əsəb forması deyil, nədir?

Moskvada çıxan "Armyanski vestnik" qəzeti 1990-cı il 10 oktyabr nömrəsində yazıb: – Anaid Şahramanyan adlı bir erməni qadın avqust ayının 7-də öz sahəsini suvararkən səmada uçan şar ona yaxınlaşıb, oradan insanabənzər bir adam çıxıb özünü Doqquzuncu Qalaktikanın sakini kimi təqdim edərək onunla erməni dilində hal-əhval tutub və sonra da deyib: Bilirsinizmi, Şuşa erməni şəhəri olub və erməni şəhərinə çevriləcək.

Ay Doqquzuncu Qalaktikada "yaşayan" erməni, Şuşa erməni şəhərinə çevrildimi? Şuşa Azərbaycan türklərinin şəhəridir və müvəqqəti olaraq işğal altında olsa da, özümüzə qayıtdı, özü də əbədi olaraq.

Digər bir psixi xəstə M.Şaginyan iddia edib ki, "ermənilər xristian sivilizasiyasının varisləri"dir.

Böyük yazıçı Alaksandr Düma isə yazıb: Ermənilərin fikrincə guya Yer üzündə cənnət Ermənistanda olub. Bir erməni alimi daha uzağa gedərək belə deyib: Ermənilərin ayağının dəydiyi yer onun vətənidir, bu yerdən axan çay erməncə axmalıdır, burada bitən güllər ermənicə bitməlidir, bu yerlərin bülbülü də, qarğası da, canavarı da, ilanı da ermənilərə mənsubliuğunu hiss etməlidir.

Spitakda zəlzələ zamanı Azərbaycan Ermənistana yardım göndərsə də təyyarə hava limanına enərkən vurulub, yüzə yaxın soydaşımız həlak olub. O zaman Azərbaycan Qadınlar Şurasının sədri olan yazıçı Əzizə Cəfərzadə Ermənistan Qadınlar Şurasının sədri Akopyana bu məzmunda teleqram vurub: Biz qadınlar zəlzələ nəticəsində çoxsaylı insan tələfatından dərin kədərimizi bildiririk, zərərçəkənlərin hamısına başsağlığı veririk.

Bakıdakı 20 Yanvar faciəsindən sonra Ermənistan Qadınlar Şurası cavab qaytarıb: – Sizi matəm günü münasibəti ilə təbrik edirik, sizə bundan sonra da ağır matəmlər arzulayırıq. Sizin Allah sizin hamınızı məhv edəcək.

Bəs bu nədir, psixi xəstə olan bir erməninin sayıqlaması deyilmi?

Ermənistanın sabiq prezidenti, Xocalıda baş verən qətliamların fəal iştirakçısı Serj Sarkisyanın britaniyalı jurnalist Tomas de Vaala müsahibəsi Xocalıda baş verən soyqırımın etirafı baxımından diqqət çəkir.

Sarkisyan müsahibədə Xocalıdakı soyqırımın əvvəlcədən, düşünülmüş akt olduğunu və bu soyqırımda Rusiyanın 366-cı motoatıcı alayının iştirakını birbaşa etiraf edir:

"Xocalıya qədər azərbaycanlılar bizimlə sadəcə zarafat etdiklərini düşünürdülər. Azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldırmazlar. Bütün bu düşüncələri dəyişmək lazım idi. Belə də oldu".

Ruhi xəstəliyin sosial neqativinizminə bundan parlaq nümunə ola bilməz, ruhi xəstə məhz belə cavab verə bilərdi.

İsveçrə şərqşünası Adam Mets yazıb ki, ermənilər ağdərili, zəncilərsə qaradərili qulların ən pisidir, onlar ancaq dəyənək və qorxu altında yaxşı işləyirlər.

"Erməni xəstəliyi"nin yaşı əsrlərlə ölçülsə də bu xəstəliyin etnologiyasında, patogenizində çox şeylər öyrənilməmiş qalıb. Erməni əli bunun da tədqiqinə mane olub. Ermənilər və xaricdəki erməni təşkilatları dəfələrlə Ümumdünya Səhiyyə Təşkilatına etirazlarını bildirib, "erməni xəstəliyi"-nin xəstəliklər təsnifatından çıxarılmasını tələb ediblər.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

## Cəhənnəmdən sağ çıxanlar...

**Xocalının müsibəti zaman-zaman göynədəcək bizi. 2 cahan savaşı görmüş XX əsrin dinc insanlarına qarşı görünməmiş qətliam. Erməni hərbi birləşmələri və rusların 366-cı motoatıcı alayının şəhəri mühasirəyə alması nəticəsində Xocalı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə qan gölündə boğuldu. Çaylar, meşələr, dağlar da qana boyandı. İnsanların fəryadından göylər də qan ağlayırdı...**

Kişilər ölüm-dirim savaşında əliyalın döyüşdülər. Qana susamış düşmən igidlərimizi gülləyə tutub, qız-gəlinlərimizi əsir götürdü. Anaların, körpələrin ərşə qalxan fəryadı bu gün də həmin gecənin canlı şahidlərinin gözlərində dil açıb haray qoparır.

**Xocalı sakinlərindən biri Tofiq Süleymanovun o müdhiş gecədə başına gələnləri də ilk növbədə çöhrəsindəki əzabdan duyub, sonra dilindən eşitdik:**



# Xocalıdan Ağdama 12 günlük qaçış...

– Artıq 2 il idi ki, Xocalının üstünə fəlakət, qara duman çökmüşdü. Özünümüdafiə batalyonlarının tərkibində mən də səngərdə növbə çəkirdim. Axşam idi, növbədən gəlib dincimi alırdım. Rəhmətlik anam bayırdakı gurultunu eşidib dedi: "Oğul, dur ayağa, deyəsən, bu it uşağı bizi mühasirəyə alıb. Camaat deyir ki, tanklar şəhərə yaxınlaşır."

Yorğunluğumu belə unudub çölə çıxdım. Hamının nəzərləri bir-birinə dikilmişdi. Zirehli maşınların, tankların vahiməsi qanımızı dondurmuşdu. Bizim məhəllə aeroportun yaxınlığında idi. Birdən gördük ki, o tərəfdən güclü bir fişəng atıldı. Bütün Xocalının üstünə sanki bir atəş saçdı. Sən demə, düşmən qüvvələri bir-birinə işarə verirlərmiş ki, hücuma keçmək lazımdır.

**Bu yerdə Tofiqin gözləri doldu. Özünə gəlib söhbətə davam elədi:**

– Qarın qalınlığı imkan vermirdi ki, düşmənin mühasirəsini yaraq. Silahlardan isə od yağırdı. Qonşumuz olan kişini də öldürdülər. Onun arvadı və 2 uşağı, başqa bir qadın və mən qarlı aşırıma üz tutduq. Yolu itirmişdik. Hara gedirdik, erməni kəndlərinə rast gəlib geri qayıdırdıq. Aclıq da bir tərəfdən bizi taqətdən salmışdı. Artıq sürünə-sürünə yol axtarırdıq.

12-ci gün idi ki, mühasirədən çıxmaq üçün çarə axtarırdıq. Axır qarşımıza Azərbaycan qəbristanlığı çıxdı. Bildim ki, artıq xilas olmuşuq. Yanımdakı qadınlara dedim ki, əvvəlcə mən gedim yoxlayım, sonra sizə xəbər verərəm. Məzarlıqdan bir az aralıda sığınacaq gördüm, sürünərək ora getdim. Qapını açıb səsləndim. Sən demə, Qatır Məmmədin özünümüdafiə batalyonu



Tanklardan, zirehli maşınlardan üstümüzə od saçmağa başladı, güllələr yağış kimi yağdı. Hər kəs özünü, yaxınlarını xilas etmək, əsir düşməmək üçün müxtəlif istiqamətlərə qaçmağa başladı. Göyün üzü od tutub yanırdı. Anamla qardaşımı götürüb dağlara tərəf qaçmağa başladıq. Anam o qədər heydən düşdü ki, ayaqları sözünə baxmadı. Qardaşım onu kürəyinə aldı. Qarqarçaydan keçəndə qardaşımın ayağı sürüşdü, anamla birgə çaya yıxılıb islandılar.

Əsir düşməmək üçün irəliləyirdik. Bu dəfə anamı mən kürəyimə aldım. Dağlara doğru qaçırdıq. Yolda qaçıb, canını qurtaranların pal-paltarı səpələnmişdi. İnsanlar xilas olmaq üçün qiymətli nə vardısa atıb gedirdilər.



Birdən bizə tərəf atəş yağmağa başladı. Qardaşım bizdən ayrı düşdü, artıq anamla mən, bir də qonşularımız qalmışdı. Hiss etdim ki, anamın nəfəsi gəlmir. Yaxınlıqdakı meşəyə girdik. Anam şaxtadan islanmış paltarında donaraq şəhid olmuşdu.

Dəhşət içində qalmışdım. Anamı meşədə bir ağacın yanına uzadıb, üstünə kol-kos, odun parçaları döşədim. Fikirləşdim ki, qardaşımı tapıb həmin yerə geri qayıdaram. Amma anamın donmuş bədənini oradan xilas etmək mümkün olmadı. Bu gün də içim qan ağlayır, 39 yaşlı anamın şaxtadan buz bağlamış vücudunu özümlə gətirə bilmədim... Bu nisgil bütün ömrüm boyu mənə əzab verəcək...

burada yerləşirmiş. Onlara vəziyyəti danışdım. Yoldaşlarımı gətirməyə getdilər.

Martın 8-də bizi Ağdamdan xəstəxanaya apardılar. Mənimlə yol gələnlərin ayaqları şaxtadan elə hala qalmışdı ki, xilas etmək mümkün olmadı. Mənim də ayaqlarım tamamilə donmuşdu. Lakin aldığım müalicə kömək elədi. Bir aydan sonra yeriməyə başladım.

**Müsahibim bu əzablı duyğu-düşüncələrindən sonra bir anlıq özünə gəlib dedi:**

– Qəhrəman oğullarımızdan biri olan Aqil Quliyevin və onun döyüş yoldaşlarının qeyri-bərabər savaşdakı döyüşkənliyini heç vaxt unutmaram. O zaman döyüşüb Azərbaycanın Milli qəhrəmanları adına layiq görülən oğulları hörmətlə yad edirəm: Ələsgər Novruzov, Əlif Hacıyev, Xocalının "Mixaylo"su Tofiq Hüseynov, Araz Səlimov, Füzuli Rüstəmov, Hikmət Nəzərli, Şöhrət Həsənov. Bu igidlər olmasa idilər, Xocalıdan sağ çıxan çətin ki, tapılardı. Onlar adamların bir hissəsini Ağdamın Şelli kəndinə çatdırıb geri döndülər.Köməksiz insanları xilas etmək üçün qeyri-bərabər döyüşə girib şəhid oldular. İnqilab İsmayılov var idi. Bu qəhrəman oğlan yaralıları və şəhidləri Azərbaycan kəndlərinə daşıyırdı. Ancaq sonda özü də şəhid oldu. Xocalı aeroportunun rəisi Əlif Hacıyevin isə qəhrəmanlığı haqqında cildlərlə kitab yazılsa, yenə də azdır.

**Müsahibim daha sonra qeyd etdi ki,** 1988-ci ildə Fərqanə vadisindən qovulmuş Ahıska türklərinin böyük bir hissəsi, Qərbi Azərbaycandan sürgün olunmuş 1500 nəfər Xocalıda məskunlaşmışdı. Xocalı aeroportu Qarabağın yeganə hava limanı idi. 1991-ci ilin oktyabrından bu şəhər blokadada idi: "Xocalını ermənilərin hədəfə almaqda bir məqsədi də onunla bağlı idi ki, bu şəhər Qarabağın strateji əhəmiyyətli dağlıq hissəsində yerləşirdi. Düşmən bu maneəni aradan qaldırmaq üçün məhz Xocalını seçmişdi"...

**Tofiq Süleymanov sonda bildirdi:**

2020-ci ildə Vətən müharibəsində oğlum, qardaşım oğlu könüllü iştirak etdilər və düşməndən qisasımızı aldılar. 2023-cü ildə anti-terror əməliyyatlarında isə Xocalı azadlığına qovuşdu. Artıq camaatımızın köçü başlanıb, şəhər tikilir, qurulur, bərpa edilir. Tezliklə biz də doğma elimizə qayıdacağıq.

***Hazırladı:***
***Kəmalə ABDİNOVA***
***XQ***

# Ermənilərin soyqırımı cinayəti cəzasız qalmamalıdır




**Fevralın 26-da Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Xocalı faciəsinin 33-cü ildönümünə həsr olunan "Xocalının dünyaya çatan harayı" mövzusunda elmi sessiya keçirilib.**

Mərasimi giriş sözü ilə açan muzeyin direktoru, akademik Rafael Hüseynov 1992-ci ilin fevralında baş vermiş Xocalı faciəsinin miqyasından, dəhşətli nəticələrindən, siyasi və hüquqi mahiyyətindən danışıb. Bildirib ki, Xocalı faciəsi ermənilərin xəstə təfəkkürdən doğan niyyətlərinə çatmaq üçün Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ən qanlı səhifəsi, qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində baş vermiş bir vəhşilik aktıdır. Xocalı qətliamı dünya tarixində dinc əhalinin qətli kimi dərin iz qoymuş soyqırımı hadisələrinin ən sonuncusudur.

Muzeyin direktoru Xocalının qabaqcadan hazırlanmış plana əsasən işğal olunduğunu söyləyib. Rafael Hüseynov qeyd edib ki, 1991-ci ilin noyabrında artıq şəhərə gedən bütün yollar ermənilər tərəfindən nəzarətə götürülmüş, ətrafla əlaqə kəsilmiş, insanlar çətin vəziyyətdə qalmışdı. Xocalılardan bəziləri şəhəri tərk etsə də, təxminən 2500 insan öz doğma evlərində qalmışdı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn bütün normalarını pozaraq, mühasirədə olan Xocalı şəhərinin dinc sakinlərinə qarşı ağır hərbi texnikadan istifadə edərək, görünməmiş qəddarlıqla soyqırımı həyata keçirmişdir.

Uzun illərdir Azərbaycan dövlətinin Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması istiqamətində sistemli iş apardığını deyən məruzəçi bildirib ki, bütün dünyanın gözü qarşısında baş vermiş bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra açıqlanıb, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verib və 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunub. O, Xocalı soyqırımının beynəlxalq səviyyədə tanıdılmasının Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətdə hər zaman mühüm yer tutduğunu vurğulayıb, artıq dünyanın 18 parlamentinin Xocalı faciəsini soyqırımı hadisəsi kimi tanıdığını söyləyib.

Rafael Hüseynov, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasının əhəmiyyətindən danışıb. Qeyd edib ki, Xocalı faciəsi barədə dünya ictimaiyyətinə dolğun və geniş məlumatlar verilməsində beynəlxalq kampaniyanın fəaliyyəti yüksək qiymətə layiqdir.

O, 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, güclü ordumuzun rəşadəti sayəsində 44 günlük Vətən müharibəsində tarixi ədalətin bərqərar olduğunu, 2023-cü ilin sentyabrında birgünlük antiterror tədbirləri nəticəsində isə ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpa olunduğunu bildirib. Məruzəçi hazırda Xocalıda yeni həyatın başlandığını, genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını, Böyük Qayıdışa dair Dövlət Proqramının uğurla həyata keçirildiyini qeyd edib.

25 fevral 2025-ci il tarixində ölkə Prezidenti İlham Əliyevin "Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" sərəncam imzaladığını vurğulayan akademik Bakıda soyqırımlarımızın tarixini əks etdirən muzeyin yaradılmasının da zəruri olduğunu bildirib. O, soyqırımı muzeylərinin Azərbaycan xalqının gələcək nəsilləri üçün qan yaddaşının qorunmasına və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşməsinə xidmət edən mükəmməl tarixi abidə oduğunu söyləyib.

Natiq sonda Xocalı faciəsini dünyada daha yaxşı tanıdılması üçün yeni bədii əsərlərin yazılmasına, filmlərin çəkilməsinə diqqət yetirməyin vacibliyini vurğuladı.

Mərasim muzeyin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Nuranə Əsədullayevanın "Xocalı faciəsinin ədəbiyyat və mədəniyyətdə əksi", mədəni irs və mənbəşünaslıq şöbəsinin laborantı Zenfira Əliyevanın "Xocalı faciəsi Azərbaycan bəstəkarlarının əsərlərində" məruzələri və muzeyin Xurşidbanu Natəvan adına Qarabağ filialının elmi işçisi Rəhman Baxşəliyevin çıxışları ilə davam edib.

***Qabil YUSİFOĞLU***
***XQ***

# "Xocalını unutmadıq, unutmarıq..."




**Fevralın 26-da Səhiyyə Nazirliyinin "Respublika Sanitariya-Karantin Mərkəzi"ndə Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.**

Çıxışlardan əvvəl mərkəzin əməkdaşları Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin və Xocalı faciəsi qurbanlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə çıxış edən "Respublika Sanitariya-Karantin Mərkəzi" publik hüquqi şəxsin baş direktoru Aris Rüstəmov Xocalı soyqırımının Azərbaycan tarixinin ən dəhşətli və faciəli səhifələrindən biri olduğunu bildirərək, qeyd edib ki, bu soyqırımı təkcə Azərbaycan xalqına qarşı yox, bütün insanlığa, bəşəriyyətə yönəlmiş ən ağır və qanlı cinayətlərdən biridir. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələrinin 7 min əhalisi olan Xocalı şəhərində törətdiyi soyqırımı aktı nəticəsində yalnız azərbaycanlı olduğuna görə yüzlərlə insan qətlə yetirilib, minə yaxın dinc sakin aldığı güllə yarasından əlil olub.

A.Rüstəmov faciənin nəticələrindən konkret rəqəmlər gətirərək qeyd edib ki, faciəyə ilk dəfə hüquqi-siyasi qiymət Ümummilli lider Heydər Əliyev tərəfindən verilib və məhz onun təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı Günü haqqında" qərar qəbul edib.

Natiq, həmçinin bildirib ki, bu gün bizə təsəlli verən odur ki, 2020-ci ildə xalqımızın başına gətirilən faciələrin, şəhidlərimizin qisası alındı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu 44 gündə böyük Zəfər qazandı, ərazi bütövlüyümüz təmin olundu. 2023-cü il sentyabrın 19-20-də isə cəmi 23 saata soyqırımın törədildiyiyi Azərbaycan Ordusunun Xankəndidə keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Xocalı şəhəri terrorçulardan tamamilə təmizləndi. Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xocalı şəhərində üçrəngli bayrağımızı ucaltdı.

A.Rüstəmov vurğuladı ki, işğaldan azad edilmiş bütün ərazilərimizdə olduğu kimi, bu gün Xocalıda da həyat yenidən canlanır, sakinlər doğma yurdlarına qayıdır. Xocalı yenidən qurulur, Xocalıya həyat qayıdır. Bu həyatı daha da gözəlləşdirən, xocalılarda yaşamaq və yaratmaq eşqini alovlandıran isə möhtərəm Prezidentimizin bölgədə həyata keçirdiyi möhtəşəm layihələr, tikinti və quruculuq işləridir.

Tədbirdə 33 il əvvəl həmin acı günlərin şahidi olan iştirakçılar da xatirələrini bölüşublər və əmin olduqlarının bildiriblər ki, gənclərimiz bu qanlı faciəni, 33 il əvvəl ərşə qalxan Xocalı fəryadını əsla unutmamalıdırlar. Xocalı faciəsi Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda savaşının ən qanlı tarixidir.

***R.İLQAR***
***XQ***

# SOSİAL XƏBƏRLƏR

## "ASAN xidmət indeksi"nin qalibi

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "ASAN xidmət indeksi" üzrə 2024-cü il qiymətləndirməsinin nəticələrini açıqlayıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qiymətləndirmədə mərkəzi icra hakimiyyəti orqanları arasında 14 xidmət üzrə ən yüksək göstərici (97,77 faiz) ilə növbəti dəfə 1-ci yeri tutub.

Agentliyin sədri Ülvi Mehdiyevin, Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyevin, icra hakimiyyəti orqanları nümayəndələrinin iştirak etdikləri təqdimatda qiymətləndirmənin nəticələri açıqlanıb və yüksək göstərici qazanmış qurumlar mükafatlandırılıb. 2018-ci il qiymətləndirməsində 5,15 faizlik nəticə ilə 20-ci yerdə qərarlaşmış nazirlik 2022-ci ildən indiyədək artıq 3-cü dəfə (88,48; 92,38 və 97, 77 faizlik nəticələrlə) birinciliyini qoruyub saxlayır.

Qiymətləndirmənin əhatə etdiyi parametrlər– xidmət barədə məlumatlandırma və xidmətə müraciət imkanları, xidmətin göstərilmə müddəti, informasiya ehtiyatlarının elektronlaşdırılması və digər qurumların sistemlərinə inteqrasiya, xidmətlərin təşkili ilə bağlı əməkdaşlara təlim keçilməsi, vətəndaş məmnunluğunun təmin edilməsinin ölçülməsi və s. nazirliyin son illərdə mühüm irəliləyişlərə nail olduğunu göstərir.

Xatırladaq ki, qiymətləndirmədə 37 mərkəzi icra hakimiyyəti orqanının 167 xidməti, 23 yerli icra hakimiyyəti orqanının 89 xidməti və 15 hüquqi şəxsin 44 xidməti daxil olmaqla, ümumilikdə, 300 xidmətin fəaliyyəti nəzərdən keçirilib.

## Sosial bərpa xidmətləri 5 dəfə artırılıb




Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin müəssisələrində əlillərə göstərilən reabilitasiya xidmətlərinin növləri 2018-ci ildən indiyədək 5 dəfədən çox artırılaraq 70-ə çatdırılıb.

Son illər aparılan sosial islahatların bir istiqaməti olaraq ölkədə müasir reabilitasiya sistemi qurulmaqla bərabər, bərpa sahəsində qabaqcıl dünya təcrübəsinə və biopsixososial modelə əsaslanan yeni xidmətlərin tətbiqi də təmin edilib. Bu xidmətlərin sırası robotik reabilitasiya, alternativ reabilitasiya, ippoterapiya, yoqa, dance ability, səyyar, icma əsaslı, telereabilitasiya, onkoloji xəstələr üçün sosial-psixoloji dəstək, rehabus layihəsi və s. ilə xeyli genişləndirilib.

Aparılan islahatlar nəticəsində bərpa xidməti göstərilən əlillərin illik sayı 2018-ci ilə nisbətən 10 dəfə artıb. Agentlik tərəfindən təkcə 2024-cü ildə 123 min nəfərdən çox əlil 1 milyona yaxın bərpa xidməti ilə təmin edilib.

## Aylıq müavinət və təqaüdlər ödənib

Yanvar ayında Dövlət Sosial Müdafiə Fondu tərəfindən 463 min nəfərə sosial müavinət, 401 min şəxsə isə Prezidentin aylıq təqaüdü ödənilib.




Həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə 92 milyon manat, Prezident təqaüdləri üzrə 58 milyon manat ödənilib. Yanvar ayında 16 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 738 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## "Könüllü DOST"lar çoxalır




Ölkəmizdə könüllülük hərəkatının genişlənməsində mühüm rol oynayan "Könüllü DOST" proqramına bu ilin yanvar ayı ərzində 2 min 900 müraciət olub, 127 nəfər proqrama cəlb edilib. Müraciətlərin böyük əksəriyyəti "Gənc DOST" altproqramı üzrə olub.

Ümumilikdə "Könüllü DOST" proqramı "Gənc DOST", "Gümüşü DOST", "Distant DOST", "Korporativ DOST", "İnklüziv DOST" kimi altproqramları əhatə edir. Proqrama cəlb olunan şəxslər DOST mərkəzlərində vətəndaşların qarşılanaraq xidmət pəncərələrinə yönləndirilməsi, vətəndaş axınının idarə edilməsi, onların məlumatlandırılması və s. işlərdə köməklik göstərirlər.

Könüllük fəaliyyəti eyni zamanda onların xidmət sahəsində təcrübə, işgüzar vərdişlər əldə etmələrinə, fərdi inkişaf və karyera yolunda ilk uğurlu addımlarını atmalarına imkan yaradır.

## Həssas qruplar üçün kiçik biznes

Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa dəstək layihəsi" çərçivəsində artıq 22 min 500 işsizə aktivlər verilib və onlar kiçik bizneslərini qurublar.

Özünüməşğulluq proqramının genişləndirilməsində önəmli rol oynayan bu layihə 2020–2025-ci illəri əhatə edir. Layihənin məqsədi əlil olan şəxslər, şəhid ailəsi üzvləri, aztəminatlı ailələrin üzvləri və digər həssas qruplara aid işsiz şəxslərin istehsal və xidmət sahələri üzrə kiçik biznesə çıxışına imkan yaratmaqdır.

22 min işsizi əhatə etməsi planlaşdırılan layihənin uğurlu icrasının nəticəsi olaraq bu il həmin rəqəmin 25 minə çatdırılması nəzərdə tutulub.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Qərbi Azərbaycana qayıdış hərəkatında gənclərin rolu

**Qərbi Azərbaycan İcmasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin "Konstitusiya və Suverenlik İli" çərçivəsində bu qurumla birgə keçirdiyi "Qərbi Azərbaycan əsilli gənclər: Tarixi yurd və ərazinin milli kimlik məsələlərində yeri" mövzusunda konfransda yeni nəslin Qərbi Azərbaycana qyıdış hərəkatında fəal iştiraka təşviq edilməsi diqqət mərkəzində olub.**




Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, soydaşlarımızın ata-baba yurdlarından zorla qovulmaları, onların fiziki və mənəvi əzablara düçar edilməsi təkcə azərbaycanlılara qarşı deyil, ümumilikdə bəşəri dəyərlərə qarşı törədilmiş cinayətdir. Qərbi Azərbaycandakı soydaşlarımızın izlərini silmək üçün aparılan siyasət nəticəsində maddi-mədəni irsimiz məhv edilib.

Tarixi ədalətin bərpa edilməsinin və soydaşlarımızın öz doğma yurdlarına geri qayıtmalarının beynəlxalq hüquqa əsaslanan, legitim tələb olduğunu vurğulayan icma rəhbəri deyib ki, bu gün uşaqların və gənclərin bu məsələlər haqqında məlumatlandırılması, onların tariximizi və hüquqlarımızı dərindən bilmələri gələcək mübarizənin uğurla davam etdirilməsi baxımından vacibdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qeyd edib ki, Azərbaycan gəncləri ölkənin inkişafında və milli maraqların qorunmasında mühüm yer tuturlar. O, Qərbi Azərbaycan mövzusunun yalnız Qərbi azərbaycanlıların deyil, bütün azərbaycanlıların milli məsələsi olduğunu deyib. Komitəsədri Gənclərin Qərbi Azərbaycanla bağlı həqiqətləri öyrənərək beynəlxalq ictimaiyyətə çatdırmalarının, bu məsələdə milli maraqları müdafiə etmək üçün üzərilərinə düşən tarixi məsuliyyəti dərk etmələrinin vacibliyini vurğulayıb.

Digər çıxış edənlər Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında gənclərin üzərinə düşən məsuliyyətdən danışıblar. Bildirilib ki, gənclərimiz tarixi yurd yerlərimizlə bağlı məlumatlı olmalı, milli kimlik məsələsində fəallıq göstərməli və bu həqiqətlərin dünya səviyyəsində tanıdılması üçün müxtəlif platformalarda fəal iştirak etməlidirlər.

***Z.BƏŞİRQIZI***
***XQ***

*Mirzə Qədim İrəvani – 200*

# Qədim İrəvanın rəssam Qədimi

**Prezident İlham Əliyev görkəmli rəssam, Azərbaycan dəzgah boyakarlığının banisi Mirzə Qədim İrəvaninin 200 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

Sənəddə deyilir: "Mirzə Qədim İrəvani Azərbaycan rəngkarlığının təşəkkülündə əhəmiyyətli rol oynamış böyük sənətkarlardandır. O, bir çox sahələri əhatə edən yaradıcılığında klassik Şərq miniatürü və xalq sənətinin zəngin ənənələrini Avropa realist boyakarlığının nailiyyətləri ilə ahəngdar şəkildə birləşdirərək orijinal üslub formalaşdırmış, Azərbaycan təsviri sənəti tarixində yeni mərhələnin başlanğıcını qoymuşdur. Rəssamın zərif koloritli naxışlarla və ornamentli şəbəkələrlə işlənmiş, dərin bədii-estetik təsir gücünə malik tabloları, monumental portret və kompo-



zisiyaları kamil sənət nümunələri kimi bu gün də yüksək dəyərini qoruyub saxlayır". Sərəncama əsasən, yubileylə bağlı tədbirlər keçirmək nəzərdə tutulur.

Mirzə Qədim Məmmədhüseyn oğlu İrəvani 4 dekabr 1825-ci ildə dünyaya göz açıb. Atası Məhəmmədhüseyn xarrat və bədii ağac işlənməsi üzrə usta olub və yeganə oğluna ornament sənətini lap kiçik yaşlarından öyrədib. Onu Tbilisi progimnaziyasına oxumağa göndərib. Beləliklə, dünyəvi-müasir tədris proqramı çərçivəsində təsviri sənətin ilkin vərdişlərinə yiyələnən, gürcü və rus ornamentalizminin incəliklərinə varan Mirzə Qədim rəssamlıq bacarıqlarını dərinləşdirmək imkanından bəhrələnib. Progimnaziyanı bitirdikdən sonra, 15 yaşlı gənc Mirzə Qədim İrəvana qayıdıb və ömrünün sonunadək poçtda teleqrafçı kimi çalışıb.

Peşəkar rəssamlıq təhsili olmasa da, özəl zövqü və istedadı sayəsində bu sənətin ustasına çevrilib. Poçt məmurluğundan kənar bütün zamanını rəsm işlərinə ayırıb. Əsasən, tikmə üçün olan çeşni- trafaret qəlibləri, divar naxışları, zərgərlik məmulatları, lakla çəkilmiş rəsm əsərləri və şüşə rəssamlığı ilə məşğul olub. Əsərlərinə "Mirzə Qədim İrəvani", bəzən də "kollec asessoru Qədim bəy" imzalarını qoyub.

Onun ən çox tanınan rəsmləri Orta əsrlər Şərq miniatür sənətini xatırladan "Oturmuş qadın", "Gənc oğlan", "Fətəli şah", "Rəqqasələr", "Molla", (hamısı Azərbaycan Milli İncəsənət Muzeyində), "Mah Tələtin portreti" (Gürcüstan Dövlət İncəsənət Muzeyi), "Quş və çiçəklər" (Dövlət Ermitajı), eləcə də İrəvandakı Sərdar sarayının divarlarında yağlı boya ilə çəkdiyi böyük portretlərdir. Divar portretlərində Fətəli şah Qacar, Abbas Mirzə, Hüseynqulu xan Sərdar və Rüstəm Zal böyük ustalıqla təsvir olunublar. Sənətşünas Yevgeniya Kostina yazır ki, Mirzə Qədimin şərti səthi fonda deyil, konkret interyerin üçqat genişliyində akvarellə yaratdığı portretlər yeni dövr Azərbaycan incəsənətində hiss olunan mühüm dönüş mərhələsindən soraq verirdi. Sənətşünas Natalya Mikloşevskaya da rəssamın yaradıcılığı ilə bağlı gərgin axtarışlar aparıb. Yeri gəlmişkən, 1962-ci ildə çap olunmuş "Dünya ölkələri və xalqları ensiklopediyasında istedadlı rəssama da xeyli yer ayrılıb.

Mirzə Qədim İrəvaninin divar naxışı üçün trafaret-rəsmləri XIX əsrin 40–50-ci illərində yaradılmasına baxmayaraq, nisbətən yaxşı qorunub. Dövrümüzə qədər gəlib çıxan həmin trafaretlərin birində kamança çalan kişi və onu çırtma çalmaqla müşaiət edən rəqqasə elə təsvir edilib ki, adamın qulağında sanki musiqi melodiyaları səslənir (Mənbələrdə rəssamın musiqi vurğunu olduğu da qeyd edilib).

Rəssamın yaradıcılığının yetkinlik dövrü ömrünün son 15 ilini əhatə edib. Həmin dövrdə o, 9 portret yaradıb ki, bunların 6-sı Azərbaycan Milli İncəsənət Muzeyindədir. Onun "Quş və çiçəklər" əsəri Sankt-Peterburqdakı Ermitajda Ermitajında saxlanılır. Miklaşevskayanın orada tapdığı, İrəvaninin əl işi olan qatlama-güzgü də ziyarətçilərdə böyük maraq yaradır. Güzgünün yuxarı cildləməsi laklı rəsmlə bəzədilib və içərisi miniatür portretli yastı mücrü və ya ağacdan futlyardır. Şərq əl-



yazmalarının cildləməsi ilə oxşarlığını qatlama-güzgünü örtən rəsmdən boy göstərir. Qapağın üst tərəfində rusca "General Karvalin üçün" sözləri yazılıb (yəqin ki, Qafqazda qulluq etmiş hərbçi olub). Qeyd edək ki, Mirzə Qədim rus, fransız və fars dillərini yaxşı bilib.

İrəvaninin nəslində davamçıları da olub: nəticəsi İsmət Axundov Bakıdakı Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirib, əsasən peyzajlar çəkib və Əməkdar incəsənət xadimi adını daşıyıb. Soyun daha bir təmsilçisi Zaur Qədimbəyov isə tanınmış jurnalist idi...

1875-ci ildə doğma şəhəri İrəvanda vəfat edən 50 yaşlı böyük rəssam orada da dəfn edilib, amma məzarı it-bata düşüb. Törəmələri və qohumları 1921-ci ildə İrəvandan Bakıya köçəndən sonra rəssamın əsərləri və zəngin kitabxanasının da itməsi məlum olub. Sənətkarın əsərlərinin az bir hissəsini Bakıya gətirmək mümkün olub. Onun yaxınları 20 dən çox portret, tikmə və naxışlar üçün şəkil və eskizləri Rüstəm Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyinə təqdim ediblər. Qədim şəhərimiz İrəvanda bir çox izimizi dağıdıb talan edənlər, Mirzə Qədimin də tarixi irsini yağmalayıblar. Ümid edək ki, Qərbi Azərbaycan torpaqlarına qayıdış konsepsiyamız reallaşandan sonra Mirzə Qədim İrəvaninin də irsi tapılacaq.

***Ə.DOSTƏLİ***
***XQ***

*Rəna Sarabskaya-Məmmədova – 75*

# Muğam aləminin elmi bələdçisi

**O, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "İncəsənətin qarşılıqlı əlaqələri" şöbəsinin müdiri, etnoloq-musiqişünas alim, AMEA-nın müxbir üzvüdür. Avrasiya xalqları mədəniyyətinin müqayisəli təhlili sahəsində peşəkar mütəxəssis kimi tanınır.**



Bülbül adına Orta ixtisas musiqi məktəbini, ardınca isə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını bitirən Rəna Məmmədova-Sarabskaya1981-ci ildə "Üzeyir Hacıbəylinin sonata formasının meydana gəlməsində muğamın məqam-intonasiya qanunauyğunluqlarının rolu" adlı namizədlik, 1990-cı ildə Kiyev Konservatoriyasında "Azərbaycan muğamı: təşəkkül və fəaliyyət mənbələri" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. Həmin ildən institutda şöbə müdiridir.

Alimin çoxşaxəli elmi yaradıcılıq fəaliyyəti var. Uzun illərin araşdırmaları sayəsində "müqayisəli sənətşünaslıq" məktəbini, "musiqi türkologiyası" konsepsiyasını yaradıb. Musiqişünaslıq irsimizin təbliği sahəsində də səmərəli fəaliyyət göstərir. Beynəlxalq simpozium və konfranslarda musiqişünaslıq elminə dair maraqlı məruzələr edib.

Professor Rəna Məmmədovanın "Azərbaycan muğamlarının musiqi estetik xüsusiyyətləri" ,"Azərbaycan muğamında funksionallıq problemləri" , "Muğam–sonata qovşağı" kitabları, "Azərbaycan muğamı" monoqrafiyası musiqi irsimizin akademik nəşrinə aid dəyərli əsərlərdəndir. Muğamlarımıza müxtəlif aspektlərdən yanaşan alim nəzəri-funksional, müqayisəli təhlillərə əsaslanan milli təfəkkürü bir təzahürü kimi təqdim edir.

Alimin 300-dən çox elmi məqaləsi respublika və xarici ölkələr mətbuatında, Danimarka, Norveç, Sloveniya, Rusiya və digər ölkələrdə impact-factor indeksli jurnallarda dərc edilib. O, öz fənnləri üzrə müvafiq kursların tədrisi metodikası, muğamın lad-intonasiya təhlili vasitələri yaradıb. Bütün araşdırmaları musiqişünaslığın tədqiqi və təbliği baxımından mühüm əhəmiyyət daşıyır.

Rəna Məmmədovanın elmi-təşkilati fəaliyyətlə də bir örnəkdir. Rəhbərlik etdiyi şöbədə Azərbaycan incəsənətinin türkdilli və digər xalqların bədii mədəniyyəti ilə qarşılıqlı təsir və əlaqələri tədqiq olunur. Burada müqayisəli musiqişünaslıq sahəsində planlı və sistematik tədqiqatlar aparılır. Mədəniyyətimizin səciyyəvi xüsusiyyətlərini təcəssüm etdirən musiqi, xoreoqrafiya, teatr və digər bədii yaradıcılıq formaları araşdırılır, digər xalqların incəsənəti ilə müqayisəli tədqiq olunur, yeni prioritet istiqamətlərə işıq tutulur. Milli özünəməxsusluğumuzun aşkar edilməsində məhz ümumtürk kökləri kontekstində nəzərdən keçirilir.

Rəna xanım şöbəyə rəhbərlik etdiyi ilk illərdən bilikli gənclərin yetişdirilməsinə, peşəkar kadr hazırlığına xüsusi diqqət yetirir. Alimin rəhbərliyi altında 30-a yaxın fəlsəfə və elmlər doktoru hazırlanıb. Dəyərli alim Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyətinin, Rəssamlar İttifaqının, Ali Attestasiya Komissiyasının Ekspert Şurasının, Azərbaycan Zadəganlar məclisinin, "Simurq" Mədəniyyəti cəmiyyəti Rəyasət Heyətinin, bir çox elmi jurnallarının redaksiya heyətinin, dissertasiyaların müdafiəsi üzrə İxtisaslaşdırılmış şuraların daimi üzvüdür.

O, Bakı Humanitar Forumunun, paytaxtımızda keçirilən ənənəvi "Muğam aləmi" Beynəlxalq simpoziumlarının 5-nin də iştirakçısı olub, "Türk dövlətləri və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayı"nın nümayəndəsi seçilib. Çoxlu mükafatlara layiq görülüb.

Görkəmli musiqişünas alimi 75 illik yubileyi münasibətilə təbrik edir, ona elmi yaradıcılıq fəaliyyətində yeni uğurlar arzu edirik.

***Rəfiqə AĞAKİŞİYEVA,***
***AMEA Memarlıq və İncəsənət İnstitutu ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri***




# Kitablara hopmuş Xocalı harayı

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Xocalı faciəsində həlak olan soydaşlarımızın əziz xatirəsinə həsr edilən silsilə materiallar – biblioqrafik icmal, tanıtım çarxları, virtual və ənənəvi kitab sərgiləri hazırlanıb.**

Biblioqrafik icmalda ölkəmizdə Xocalı soyqımına dair imzalanan rəsmi sənədlərin tam mətni, "Xocalı indi kədərin yox, Zəfərin rəmzidir!" başlığı altında özündə faciənin tarixi, Azərbaycan xalqının yaddaşında buraxdığı silinməz izlər və sağalmaz yaralar, erməni terrorizminin ən dəhşətli siması, Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işlər, 44 günlük İkinci Qarabağ müharibəsi, bir günlük lokal antiterror tədbirləri nəticəsində əldə edilən tarixi ədalət – Şanlı Qələbə, Xocalı şəhərində aparılan bərpa-quruculuq işləri haqqında məlumat verilir.

İcmalda həmçinin "Əsir Xocalı", "Onlar heç vaxt böyüməyəcək", "Tarixi saxtalaşdırmaq cinayətdir", "Xocalı qətliamı: erməni qəsbkarlığının qanlı fəsadları", "Ölümdən o yandakı Xocalı" kimi Azərbaycan, türk, ingilis, rus və digər dillərdə nəşr edilən 50-dən çox kitabın biblioqrafik təsviri, qısa annotasiyası və dövri mətbuat nümunələri sərgilənir.

Kitabxananın rəsmi saytında yerləşdirilən https://ryl.az/multimedia/tarixin-unudulmayan-xocali-izi "Tarixin unudulmayan Xocalı izi" adlı virtual sərgidə hadisələrin xronologiyası, tarixi, acı nəticələri haqqında məlumatlarla yanaşı Ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin Xocalı soyqırımı mövzusunda olan tarixi çıxışlarının videogörüntüləri təqdim edilir, son illərdə Xocalı faciəsi mövzusunda qələmə alınan "Solmayan nərgiz", "Xocalı şikəstəsi", "Koramal", "Ümidlərin izi ilə", "Mələklərin soyqırımı" kimi bədii əsərlərin qısa annotasiyası haqda məlumat verilir.

Bundan əlavə Respublika Gənclər Kitabxanasının sosial platformalarında "Xocalı soyqırımı bədii ədəbiyyatda" başlığı altında faciəyə həsr olunan ədəbiyyat nümunələrinin tanıtım çarxları paylaşılır.

***XQ***

# Soyqırımının kədərli notları

**Bəstəkarlar İttifaqında Xocalı soyqırımının 33 illiyinə həsr olunmuş anım tədbirində ittifaqın sədri, AMEA-nın müxbir üzvü, Xalq artisti, professor Firəngiz Əlizadə xalqımızın tarixində baş verən dəhşətli faciələrdən danışaraq bu hadisələrin təsirindən yaranmış musiqi əsərlərindən bəhs edib.**




"Musiqinin müxtəlif janrlarında bəstəkarların qələmə aldıqları bir neçə əsər var. Bunlardan Azər Dadaşovun "Xocalıya ədalət" simfonik plakat, Faiq Nağıyevin "Xocalı harayı" rekviyem, Elnarə Dadaşovanın orqan üçün "Xocalı laylası", Tural Məmmədlinin kamança və piano üçün "Xocalıya ithaf", Azad Zahidin "Rekviyem", Nazim Quliyevin "Xocalı" operası, Aleksandr Çaykovskinin "Xocalı", Balnur Kıdırbeyin simfonik orkestr üçün "Xocalı qurbanları" əsərlərinin adını çəkə bilərəm", – deyə o əlavə edib.

Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə, AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor Rəna Məmmədova, Əməkdar incəsənət xadimi, sənətşünaslıq elmlər doktoru, professor Kamilə Dadaşzadə, Əməkdar incəsənət xadimi, professor Həcər Babayeva və digər şəxslər çıxış edərək, Xocalı faciəsinin musiqidə təcəssümü ilə yanaşı, bu əsərlərin təbliğ olunmasının mühüm önəm daşıdığını vurğulayıblar.

Bədii hissədə unudulmaz bəstəkar Məmməd Quliyevin 1995-ci ildə qələmə aldığı "Xocalı" rekviyemi səsləndirilib.

***XQ***

**Yeni layihə**

# Nağıl mücrüsü

**Jurnalist Rəhilə Soltanqızının kreativ layihəsi ilə hazırlanan "Nağıllı maskalar" qutu-kitabı qeyri-adiliyi ilə fərqlənir. Uşaqlar topluda yer alan nağılları sadəcə oxumaqla kifayətlənmir, adlı maskaları seçir və əylənərək bilgilənirlər.**

Balaca oxucular obrazları canlandıran maskalar vasitəsilə hekayələrin bir parçasına çevrilirlər. Sadə, anlaşılan dildə yazılmış nağıllar onlara yaxşını pisdən ayırmağı, cəsur və mərd olmağı, təbiəti qorumağı və ona sevgi göstərməyin vacibliyini öyrədir. Beləliklə, nağıllar uşaqların yetkin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

Kitabın özəlliyi təkcə bununla bitmir. Qutuya hər bir nağıla uyğun hazırlanmış test tapşırıqları 64 səhifəlik bir kitab şəklində əlavə edilib. Bu tapşırıqlar uşaqların yaddaşını möhkəmləndirir, mövzuları daha yaxşı qavramağa kömək edir. Zəngin söz ehtiyatı sayəsində onların dil bacarıqlarını da inkişaf etdirir. Test tapşırıqları asandan çətinə doğru sıralanıb. Bundan əlavə, test kitabına hər nağıla aid QR kodlar da daxil edilib. Uşaqlar bu kodları scan edərək nağılları video formatında da izləyə bilərlər. Nağılları oxuyub bitirən uşaqların obrazları canlandıran maskaları ip vasitəsilə başlarına taxaraq əyləncəli tamaşaları da təşkil etmək imkanı var.

Maskaların arxa üzü isə uşaqların yaradıcılığını inkişaf etdirmək üçün xüsusi hazırlanıb. Onlar bu şəkilləri tamamlayaraq istədikləri kimi rəngləyə, həm təsəvvür güclərini, həm də bacarıqlarını inkişaf etdirə bilərlər.




Rəhilə Soltanqızının 5–7 yaşlı uşaqlar üçün nəzərdə tutulan "Nağıllı maskalar"ı rus bə ingilis dillərində də çapa hazırlanır.

***Ə.ƏLİYEV***
***XQ***

# Bakı Limanı – Xəzərdən dünyaya açılan dəmir qapı




**Prezident İlham Əliyevin “Azərbaycan Dəmir Yolları”nın (ADY) yenidən təşkili haqqında imzaladığı fərmana əsasən, dəmiryol nəqliyyatı sahəsində nəqliyyat əməliyyatlarını və logistika proseslərini daha səmərəli və operativ qaydada həyata keçirmək, eləcə də dəniz nəqliyyatına olan ehtiyacların daha dolğun ödənilməsini gerçəkləşdirmək məqsədilə ADY “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı”nın ona qoşulması formasında yenidən təşkil edilməsi qərara alınıb.**

Sənəddə Mülki Məcəlləyə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilən məsələlərin dövlət başçısı ilə razılaşdırmaqla həyata keçirilməsi, normativ hüquqi aktların, eləcə də digər mühüm səlahiyyətlərin reallaşdırılması Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON) tapşırılıb. Limanın Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələri və yerli normativ hüquqi aktlarla müəyyənləşdirilən hüquqları və öhdəlikləri, habelə əmlakı da “Azərbaycan Dəmir Yolları”nın sərəncamına keçirilib.

Respublikamızın ən mühüm strateji infrastrukturunun –“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı”nın Azərbaycan Dəmir Yolları”na birləşdirilməsi, əslində, təsadüfi hal sayılmır. Bu, ilk növbədə, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi bütün dönəmlərdə idarəetmə fəaliyyəti ilə bağlı həyata keçirilən islahatların sistemli və ardıcıl xarakter daşıması ilə bağlıdır.

Xatırladaq ki, bu dövrdə ölkədə həm yeni nazirliklər yaradılıb, həm ayrı-ayrı nazirliklərin təkrarlığı aradan qaldırılıb, həm birləşmə prosesi gedib, həm də bəziləri ləğv edilib. Bir sözlə, dövlət başçısı çevik idarəetmə mexanizminə hər zaman xüsusi diqqət yetirib, ölkədə idarəetmənin daha çevik mexanizmlər vasitəsilə gerçəkləşdirilməsinə mühüm önəm verib.

Azərbaycanda bir neçə dövlət qurumu, dövlət şirkəti var ki, onlar ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyır, dövlət inhisarındadır. Ancaq orada, o şirkətlərdə idarəetmə qaydaları dəyişdirilməlidir. Korporativ idarəetmə prinsipləri tətbiq edilməlidir. Dünyanın inkişaf etmiş ölkələrinin aparıcı korporasiyalarının təcrübəsi öyrənilməli və tətbiq edilməlidir. Bu şirkətlər tam şəffaf fəaliyyət göstərməlidirlər. Prezident İlham Əliyev cari il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bu barədə deyib: “Son bir neçə il ərzində dövlət şirkətlərində yeni idarəetmə modeli tətbiq olunmağa başlanmışdır. İdarə heyətləri yaradıldı, idarə heyətlərinin rəhbərləri vəzifəsinə dövlət məmurları təyin edildi və beləliklə, dövlət şirkətlərindəki problemlər tam açılmışdır. Uzun illər dövlət şirkətləri, əfsuslar olsun ki, təkcə təbii inhisarçı deyil, eyni zamanda, zərərlə işləyən şirkətlər idi. Bunun bir çox səbəbləri var”.

Ölkə rəhbəri müsahibədə dövlət şirkətlərində nəzərə çarpan çatışmazlıqların – uzun illər özünü qabarıq büruzə verən bir sıra problemlərin idarəetmədə olan qüsurlar və pozuntularla bağlı olduğunu bildirib. Prezident İlham Əliyev belə vəziyyətə son qoymaq üçün artıq 10-a yaxın dövlət şirkətində yeni idarəetmə modelinin yaradılmasına qərar verdiyini və bunun müsbət nəticələrinin isə müşahidə edildiyini deyib. Prezident İlham Əliyev Dövlət Neft Şirkəti və “Azərbaycan Hava Yolları”nın uzun illər zərərlə işlədiklərini, dövlət büdcəsinə müraciət etdiklərini, dövlətdən dotasiya aldıqlarını, hazırda isə sağlamlaşdırma və kadr islahatı mərhələsini artıq uğurla başa çatdıraraq yeni idarəetmə modeli əsasında gəlir qazandıqlarını, öz ehtiyaclarını özləri qarşıladıqlarını da vurğulayıb.

Dövlətimizin başçısı fikirlərinin davamında Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) yaradılması barədə də fikirlərini diqqətə çatdıraraq bildirib ki, yeni qurumun fəaliyyətində əsas məqsəd nəqliyyat sektorunu vahid çətir altında bir platforma kimi qurmaq, təsisata tabe təşkilatlar arasındakı koordinasiyanı gücləndirməkdir.

Qeyd edək ki, AZCON-un yaradılmasını şərtləndirən amillərdən biri respublikamızın mühüm gəlir mənbəyi olan və ölkənin siyasi çəkisinə müsbət təsir göstərən nəqliyyat və bu sahə ilə əlaqədar bağlantıların səmərəli fəaliyyətinə əsaslanır. Ekspertlərin fikrincə, bu məsələdə də tam şəffaf və koordinasiyalı işlək mexanizmin yaradılması zəruridir. Bununla bağlı ölkə rəhbərinin müsahibədə vurğuladığı fikirlər mühüm önəm daşıyır. Məsələn, dövlət başçısı AZCON-un Xəzər Gəmiçiliyinin yüklərin daşınması ilə bağlı fəaliyyətində səmərəliyin artırılacağını, gömrük rəsmiləşdirilməsində süni əngəllərin, pozuntuların aradan qaldırılacağını, paralel olaraq nəqliyyat sektorunun rəqəmsallaşdırılması prosesinə ciddi diqqət yetiriləcəyini əminliklə diqqətə çatdırır.

Qeyd edək ki, ölkədə nəqliyyat infrastrukturuna investisiyalar qoyulmasına və müxtəlif nəqliyyat növləri üzrə ayrı-ayrı layihələrin icra olunmasına baxmayaraq, nəqliyyat növlərinin koordinasiyalı fəaliyyəti ilə bağlı çatışmazlıqlar müşahidə olunur. Azərbaycan Prezidentinin 2023-cü il 19 aprel tarixli Sərəncamı ilə Nəqliyyatı Əlaqələndirmə Şurası və 2024-cü il 7 noyabr tarixli Fərmanı ilə nəqliyyat sektorunda vahid idarəetmə prinsiplərinin tətbiqi, fəaliyyətin təkmilləşdirilməsi və maliyyə dayanıqlılığının artırılması məqsədilə “Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi” (AZCON) publik hüquq şəxsin yaradılması da nəqliyyat sistemində koordinasiyalı fəaliyyətin təmin olunması məqsədi daşıyır. Dövlətimizin başçısının müvafiq sərəncamı ilə Bakı Limanının birləşdirildiyi “Azərbaycan Dəmir Yolları” ASC-nin də həmin holdinqin– AZCON-un tabeliyinə verilməsi bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bu gün tam gücü ilə fəaliyyət göstərir və bu infrastrukturun inşasının birinci mərhələsi 2018-ci ildə yekunlaşdırılıb. Bununla da onun yükaşırma həcmi illik 15 milyon tona çatdırılıb. Limanın ikinci mərhələsinin inşası ilə bağlı hazırlıq layihəsi və dizayn işləri yekunlaşdırılıb. Tikintiyə başlanılması qərarının isə bu ilin əvvəlində veriləcəyi nəzərdə tutulub. İkinci mərhələnin yekunlaşdırılmasından sonra isə limandan ildə 25 milyon tona qədər yükün aşırılacağı, 500 min TEU konteynerin keçə biləcəyi planlaşdırılıb.

Ticarət Limanında 2024-cü ildə konteyner, TIR daşımalarında çox yüksək nəticələr əldə edilib. Bu istiqamətdə göstəricilərin cari il daha da artacağı gözlənilir. Xüsusilə gömrük rəsmiləşdirilməsi nəticəsində idxal-ixrac əməliyyatlarında artım olacağı proqnozlaşdırılır. Ötən il ən böyük artım tranzit sahəsində müşahidə olunub. Söhbət xüsusilə Çindən Avropa istiqamətində daşınan yüklərin tranzitindən gedir. Bu, əlbəttə ki, Orta Dəhliz layihəsi ilə bağlıdır.

Xatırladaq ki, Trans –Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə uzanan beynəlxalq nəqliyyat dəhlizidir. 2023-cü ildə bu marşrutla 2,7 milyon tondan çox yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 86 faiz çoxdur. Keçən ilin yanvar-noyabr aylarında isə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yük daşımalarının həcmi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 63 faiz artaraq 4,1 milyon tona çatıb.

Bakı Limanında 2023-cü ildə 7,4 milyon ton yük aşırılıb. Bu, 2022-ci illə müqayisədə, təxminən, 16 faiz çoxdur. Ümumi yükaşırmanın 5,3 milyon tonu və yaxud 72 faizi tranzit yüklərin payına düşüb. Vaqonların 18,6 mini və yaxud 49,7 faizi Bakı–Türkmənbaşı–Bakı, 18,7 mini və yaxud 50,3 faizi isə Bakı–Kurık–Aktau–Bakı istiqamətində hərəkət edib.

Bununla yanaşı, 2023-cü ildə iri həcmli nəqliyyat vasitələrinin (TIR) sayı əvvəlki ilə nisbətən 5,3 faiz artaraq 54,2 min ədəd olub. Bu nəqliyyat vasitələrinin 25,8 mini (47,6 faizi) Bakı–Türkmənbaşı–Bakı, 28,4 mini (52,4 faizi) isə Bakı Kurık–Bakı istiqamətində daşınıb. Hesabat dövründə konteynerlərin aşırılması TEU ekvivalentində 16 faiz azalaraq 43,9 min olub.

Prezident İlham Əliyevin 2023-cü il noyabrın 23-də təsdiq etdiyi “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı”na əsasən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində qarşıdakı 3 il ərzində çeşidləmə məntəqəsində əlavə 4 dəmiryolu xətti və konteyner terminalı tikiləcək ki, bu da yüklərin çeşidlənməsində operativliyin təmin edilməsinə imkan yaradacaq.

Ticarət Limanı 1902-ci ildən fəaliyyət göstərən Bakı Limanının bazasında 2015-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 16 min manat təşkil edib. Liman ilk vaxtlarda yük, neft və bərə terminallarından ibarət olub.

Dəniz ticarəti imkanlarından faydalanmaq üçün bir sıra dünya ölkələrində liman qovşağının yaradılmasına investisiya qoyulur. Azərbaycanda və ölkə xaricində liman əməliyyatları ilə yanaşı, gəmilərin müasirliyi və yükgötürmə qabiliyyətinin yüksək olması da vacib məsələlərdən biridir.

Dünyada baş verən proseslər səbəbindən bu gün Bakı Beynəlxalq Dəniz Ticarət Limanının rolu artıb. Avrasiya məkanında mühüm geostrateji mövqedə yerləşən, zəngin iqtisadi və ticari əlaqələri olan respublikamız sözügedən infrastruktur açılandan sonra dəniz nəqliyyatının inkişafının yeni, müasir mərhələsinə qədəm qoyub. “Bir kəmər, bir yol” meqalayihənin əsas qollarından olan Bakı Limanı dünya ticarətinin və ölkələr arasında qarşılıqlı münasibətlərin inkişafına çox böyük təsir göstərib.

**XQ**

Beynəlxalq aləm

# Avropa qoşunları Ukraynaya gedəcəkmi?

## *ABŞ “hə”, Rusiya “yox” deyir*

***(əvvəli 1-ci səhifədə)***

Britaniyanın “The Guardian” qəzeti xatırladır ki, Ər-Riyadda ABŞ-la danışıqlardan sonra Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ukraynada avropalı sülhməramlıların olmasının qəbuledilməz olacağını bildirdi. Kremlin bu məsələdə mövqeyi Trampın komandası üçün ciddi sınaq ola bilər. Belə görünür ki, hələlik Vaşinqton Putinin güzəştə getmək istəyinə yalnız məhdud təsir göstərə bilər. Qəzetin yazdığına görə, bu cür fikir ayrılıqları Trampın sülhü tez bir zamanda bağlamaq istəyini zəiflədə bilər. Ukrayna Prezidenti Vladimir Zelenski isə Qərbin ciddi təhlükəsizlik zəmanəti olmadan, ilk növbədə Avropa qoşunlarının iştirakı olmadan saziş imzalayacaq.

atəşkəsə nəzarət etmək üçün Avropa qoşunlarının Ukraynaya mümkün yerləşdirilməsi ilə bağlı müzakirələrin Kremlin narahatlığına səbəb olduğunu bildirir: “Əlbəttə, biz bütün bu hesabatları diqqətlə izləyirik, avropalıların bu məsələ ilə bağlı bəzən ziddiyyətli rəsmi açıqlamalarını izləyirik. Bu, bizi narahat edir, çünki söhbət hərbi kontingentlərin göndərilməsindən, NATO ölkələrinin hərbi kontingentlərinin Ukraynaya mümkün, nəticə etibarilə göndərilməsindən gedir”. Rusiyanın xarici işlər naziri Sergey Lavrov da xəbərdarlıq edir ki, NATO-nun üzvü olan ölkələrin hərbi kontingentinin Ukrayna ərazisində yerləşdirilməsi Moskva üçün məqbul sayıla bilməz”. Bundan başqa, xarici işlər naziri Sergey Lavrov hesab edir ki, Avropa Kiyevi hərbi əməliyyatları davam etdirməyə “təhrik edir”.



“The Economist” jurnalı isə yazır ki, Qərb qoşunlarının Ukraynaya göndərilməsi Aİ və NATO-nun müdafiə qabiliyyətini zəiflədəcək. Məsələn, Britaniya qoşunlarının yerləşdirilməsi Şimali Atlantika Alyansı üçün nəzərdə tutulan ehtiyatlar tələb edir və onun hərbi planlarında boşluqlar yaradır. Nəşrin mənbələri hesab edirlər ki, Avropa ölkələrinə özlərini müstəqil şəkildə müdafiə etmək üçün ən azı 10 il lazımdır. Onların fikrincə, ABŞ Aİ-ni kəşfiyyat, hədəfin tanınması və havada elektron müharibə üçün silahlarla demək olar ki, tamamilə təmin edir.

“Bloomberg” agentliyi xəbər verir ki, bu fonda Böyük Britaniyanın Baş naziri Kir Starmer ölkənin müdafiə xərclərinin 2027-ci ilə qədər ÜDM-in 2,5 faizinə, növbəti 10 ildə isə 3 faizə qədər artacağını bildirir. Agentlik hesab edir ki, bu qərara Trampın Avropanın təhlükəsizliyinə zəmanət verməkdən imtina etməsi səbəb oldu. Bütün bunlar fevralın 27-də Ağ evdə Trampla danışıqlar aparmalı olan Starmer üçün kritik məqama təsadüf edir. Britaniya lideri bundan əvvəl Ukraynaya sülhməramlı qoşunlar göndərməyə hazır olduğunu bildirsə də, ABŞ-ın zəmanətində də israr edir. Zəmanət, Starmerin fikrincə, sabit sülh üçün vacibdir.

Bununla belə, “The New York Times” yazır ki, avropalı məmurların uğura ümidləri azdır. Polşa, Fransa və Böyük Britaniya liderləri Trampı öz sıralarına qaytarmağa çalışırlar, lakin “qoca qitə” ölkələri ABŞ prezidentinin onların dəyərlərini bölüşməməsi və Aİ-nin prioritetlərini Amerikanın maraqlarına uyğun görməməsi reallığı ilə üzləşirlər. Ağ evin mətbuat katibi Kerolayn Levitt deyir ki, Ukraynadakı münaqişənin həlli Moskva və Kiyevi “bir az bədbəxt edəcək” və bu, “yaxşı sövdələşmə üçün xarakterikdir”. Onun sözlərinə görə, Tramp belə bir razılaşmanın necə bağlanacağını hamıdan yaxşı bilir.

Amma Rusiya Avropa qüvvələrinin Ukraynada yerləşdirilməsi ideyasına yaxşı baxmır. Rusiya Xarici İşlər Nazirliyi qeyd edir ki, istənilən halda Avropa qoşunlarının Ukrayna ərazisində olması “eskalasiyaya deyil, eskalasiyaya doğru addımdır”. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov

Bəs Ukraynada Avropa sülhməramlılarının yerləşdirilməsi nə dərəcədə realdır və hansı ölkələr onları göndərə bilər? NATO-da yüksək vəzifələrdə çalışmış Ceymi Şi bunun Avropa ölkələri üçün çətin bir iş olduğunu iddia edir. Onun hesablamalarına görə, Ukraynada Avropa sülhməramlı missiyasını yerləşdirmək üçün təxminən 50 min əsgər lazım ola bilər və ümumilikdə bu, “çevik rotasiya” nəzərə alınmaqla təxminən 150 min nəfər deməkdir. Britaniya Silahlı Qüvvələrinin Baş Qərargahının sabiq rəisi Riçard Dannatt hesab edir ki, Britaniya ordusu “o qədər köhnədir” ki, Ukraynada sülhməramlı kontingentə rəhbərlik edə bilməz.

Fransanın ordusu Britaniyadan daha böyükdür, lakin fransız bölmələri hələ də Afrika qitəsində – daxili münaqişələrin davam etdiyi bəzi keçmiş müstəmləkələrdə təhlükəsizliyin təmin edilməsində iştirak edir. Fransalı ekspertlər ölkə ordusunun daha yüksək intensivlikli münaqişələrdə, xüsusən də Rusiyanın Ukraynaya qarşı müharibəsində iştirak edə biləcəyinə şübhə ilə yanaşırlar.

İsveç və Hollandiya da müəyyən şərtlər daxilində qoşun göndərməyə hazır olduqlarını bəyan etdilər, lakin daha böyük orduya malik Polşa bundan imtina edir. Ümumiyyətlə, Qərbi Avropada keçirilən rəy sorğuları Ukraynaya qoşun göndərilməsinə dəstəyin aşağı səviyyədə olduğunu göstərir. Ukraynaya sülhməramlı qüvvələrin göndərilməsi ilə bağlı risklər, hətta hərbi əməliyyatlarda iştirak etməsələr də, yüksək qiymətləndirilir. Qoşunlar göndərilərsə, məsələn, Rusiya qüvvələri tərəfindən atəşə tutulması halında döyüş qaydaları müəyyən edilməlidir və itkilərin siyasi nəticələri çox böyük ola bilər.

Xatırladaq ki, Fransa prezidenti Emmanuel Makron tərəfindən çağırılan iki sammitdə hərbi əməliyyatlar dayandırıldıqdan sonra Ukraynada sülhməramlı kontingentin yerləşdirilməsi müzakirə olunur. Ancaq iştirakçılar arasında məsələ ilə bağlı ümumi razılıq hələlik yoxdur.

***S.ELAY***
***XQ***


## “Kapital Bank” ASC səhmdarlarının nəzərinə!

11 aprel 2025-ci il saat 11.00-da Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi 2E nömrəli ünvanda yerləşən Bankın ofisində (3-cü mərtəbə, iclas zalı) “Kapital Bank” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxildir:**

1. “Kapital Bank” ASC-nin 2024-cü ilin yekunlarına aid maliyyə hesabatlarının təsdiq olunması.
2. Digər məsələlər .

**Telefon – (994 12) 598 12 95 (daxili: N/A)**
**Web: www.kapitalbank.az**
**Ünvan – Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi 2E.**

***“Kapital Bank”ın baş ofisi***

## Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

*aşağıdakı kafedralarda vakant vəzifələrin tutulması üçün*

## *MÜSABİQƏ ELAN EDİR:*

1. “İntellektual sistemlərin idarə olunması” kafedrası – professor 1 yer.
2. “Davamlı inkişaf” kafedrası – baş müəllim 1 yer.
3. “Tarix” kafedrası – baş müəllim 1 yer.
4. “İqtisadiyyatın dövlət tənzimlənməsi” kafedrası – baş müəllim 1 yer.
5. “Politologiya və siyasi idarəetmə” kafedrası – baş müəllim 1 yer.

Müsabiqədə professor vəzifəsinin tutulması üçün bu istiqamətlər üzrə elmlər doktoru, baş müəllim vəzifələrinin tutulması üçün isə bu istiqamətlər üzrə fəlsəfə doktorları və yaxud, elmi dərəcəsi olmayan, ancaq müvafiq tələblərə cavab verən şəxslər iştirak edə bilərlər. Sənədlər elan dərc edilən gündən bir ay müddətində təqdim oluna bilər. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana və ya sakit.aliyev@dia.edu.az elektron poçtuna təqdim etməlidirlər.

**Telefon- 492-76-03.**
**Ünvan- Bakı şəhəri, Lermontov küçəsi 74, 23-cü otaq.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 44 (30738) 27 fevral 2025-ci il, cümə axşamı

İdman

## Şahmatçımız İndoneziyada qalib olub



**Azərbaycan şahmatçısı Eltac Səfərli İndoneziyada keçirilən beynəlxalq turnirdə uğurla çıxış edib.**

Təmsilçimiz 11 turdan ibarət dairəvi sistemlə keçirilən yarışda bütün rəqiblərini qabaqlayaraq 1-ci yeri tutub. 7,5 xalla polşalı Yoseph Taher 2-ci, 7 xal toplayan monqolustanlı Sugar Gan-Erdene isə 3-cü pillələrdə qərarlaşıblar.

## Bakıda AVRO-voleybol hazırlığı




**Avropa Voleybol Konfederasiyasının (CEV) AVRO-2026 üzrə Təşkilat Komitəsinin nümayəndələri və yayım hüququna malik CEV-in tərəfdaşı olan "İnfort" şirkətinin əməkdaşları Azərbaycanda səfərdə olublar.**

Azərbaycan Voleybol Federasiyasının mətbuat xidmətinin məlumatına görə, səfər qadınlar arasında qitə çempionatına hazırlıq işləri ilə tanış olmaq məqsədi daşıyıb. Qonaqlar qarşılaşmaların keçiriləcəyi Milli Gimnastika Arenasına və voleybolçuların yerləşdiriləcəyi otellərə baxış keçirib, həmçinin bir sıra digər təşkilati məsələlər müzakirə ediblər.

Qeyd edək ki, AVRO-2026-da qitənin 24 komandası dörd qrupda mübarizə aparacaq. Ölkəmiz 2026-cı il avqustun 21-dən sentyabrın 6-dək baş tutacaq turnirin bir qrupuna ev sahibliyi edəcək. Bu matçlar Bakıda Milli Gimnastika Arenasında təşkil olunacaq. Digər qrupların oyunları Çexiya, İsveç və Türkiyədə keçiriləcək.

## Şahmatçılarımız dünya çempionatında



**Monteneqronun Petrovaç şəhərində 20 yaşadək şahmatçılar arasında dünya çempionatı başlayıb.**

Azərbaycan komandası bu nüfuzlu yarışda 5 şahmatçı ilə təmsil olunur. İlk turda idmançılarımızdan 4-ü – Xəzər Babazadə, Şiroğlan Talıbov, Ayan Allahverdiyeva və Nərmin Abdinova qələbə qazanıblar. Lalə Hüseynova isə məğlub olub.

Qeyd edək ki, 61 ölkədən 263 şahmatçının iştirak etdiyi yarış 11 turdan ibarətdir.

*L.QURBANOVA*
*XQ*

# Ölüm ağuşunda qələbə



### Finiş – o dünyanın qapısı

At yarışının çoxəsrlik tarixi çeşidli qələbələrlə zəngin olub. Ancaq onlardan biri – 102 il bundan qabaq həyata gözlərini əbədi yummuş bir insanın finişə hamıdan qabaq çataraq qalib adını qazanması heyrətamiz qələbə kimi yaddaşlara yazılıb. İlk baxışdan belə bir inanılmaz hadisənin necə mümkün olması, üstəlik, çaparın idman prinsipinə, yarışın bütün qaydalarına uyğun olaraq finişə hamıdan tez çataraq qalib gəlməsi mümkünsüz görünür.

### Kədərli qələbə

1923-cü il iyunun 4-də Nyu-Yorkun Belmont Park treki ətrafında Sveet Kiss ləqəbli atla yarışa qatılan jokey Frenk Hayes turnirin autsayderlərindən hesab olunurdu. Finiş xəttinə yaxın Sveet Kiss gözlənilməz sıçrayışla önə keçərək, ən yaxın rəqiblərini bir baş qabaqlayıb. Onun dostları, eləcə də münsiflər heyəti və başqaları qalibləri belə bir əla nəticə münasibətilə təbrik etmək üçün atın yanına tələssələr də, gördükləri mənzərə onları dəhşətə gətirib. Jokeyin nəbzi döyünmürdü, o, artıq həyatla vidalaşmışdı.

### Sirli ölüm

Həkimlər üçün diaqnoz qoymaq çətin deyildi: Hayes infarkt keçirmişdi. Əsas sual isə bu idi ki, bu, nə vaxt baş verib. Bəlkə, jokey gözlənilməz qələbədən o qədər təsirlənib ki, ürəyi dayanıb. Nəticədə, dolayı sübutlara əsaslanaraq, həkimlər Frenkin hələ yarışda olarkən öldüyünü müəyyən ediblər. Deməli, çox ağıllı və yaxşı təlim keçmiş at kimi tanınan Sveet Kiss, sahibinincəhdi olmadan belə bir yarışı ən yüksək sürətlə 1-ci yerdə tamamlayıb.

Həkimlərin ardınca yarışın təşkilatçıları da öz qərarlarını verməli olublar. Ölü bir adam qalib ola bilərmi? Hakimlər qərara gəliblər ki, bəli, ola bilər. Axı Hayes yarışın qaydalarını pozmayıb və yəhərdə finişi birinci yerdə başa vurub. Qələbə artıq həyatı tərk etmiş jokeyə və Sveet Kissə verilib.

### Təntənəli dəfn

Ancaq çox güman ki, belə bir tragik süjetin ortaya çıxmasına səbəb idmançının çəki salması olub. Peşəkar jokey olmayan, əsasən məşqçi kimi çalışan Frenk Hayes qalib gəlməyi o qədər istəyib ki, yarışdan bir gün əvvəl çəkisini 65-dən 59 kiloqrama salaraq, starta, demək olar ki, taqətsiz vəziyyətdə qatılıb. Bununla da yarış zamanı fiziki zəiflik onun üçün ölümcül olub.

Hamıdan üstünlüyünü nümayiş etdirib qalib olan günahsız at yarışdan sonra "Ölümün şirin öpüşü" kimi tanınıb. Amma sahibi onu bir daha yarışa buraxmayıb.

Həm Frenk, həm də Sveet Kiss üçün bu qələbə ilk və sonuncu olub. Bununla belə bir əsr tarixi olan qələbə bu cütlüyü unutmamaq üçün kifayət edib. Jokey 3 gün sonra həyatında qələbə qazandığı parlaq kostyumunda torpağa tapşırılıb.

*Leyla QURBANOVA*
*XQ*

# "Xocalı – Yaralı ruhlar"



**İçərişəhərdə məşhur fotoqraf Reza Deqatinin "Xocalı – Yaralı ruhlar" adlı sərgisi açılıb. Sərgi ilə yanaşı "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi (DTMQİ) tərəfindən Bakı Fotoqrafiya Evində Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş anım mərasimi təşkil edilib.**

Açılışda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Rüfət Mahmud, YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev, Sosial Xidmətlər Agentliyinin sədrinin müşaviri Məftunə İsmayılova, fotoqraf Reza Deqati, "İçərişəhər" Ağsaqqallar Şurasının sədri Əliheydər Dadaşov çıxış edərək, Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıda mülki əhaliyə qarşı törədilən soyqırımın təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş ağır cinayət olduğunu vurğulayıblar.

Çıxışlar zamanı 44 günlük Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi, şanlı ordumuzun şücaəti və xalqımızın birliyi nəticəsində Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə üçrəngli bayrağımızın Qarabağda dalğalanması ilə Xocalıda ilahi ədalətin bərqərar olunduğu vurğulanıb.

Bədii hissədə isə şəhidlərə həsr edilmiş elegiya dinlənilib, eşitmə və nitq məhdudiyyəti olan gənclər tərəfindən jest dilində "O qanlı gecə" şeiri səsləndirilib.

Daha sonra iştirakçılar "Xocalı – Yaralı ruhlar" sərgisi ilə tanış olublar.

Qeyd edək ki, sərgi fevralın 28-dək ziyarətçilər üçün açıq olacaq.

*Fidan SALMANOVA*
*XQ*

# Tərtərdə yaşıl aksiya



***Tərtərdə Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçirilib. Aksiyada rayon ictimaiyyətinin nümayəndələri, eləcə də çox sayda gənc fəallar və yeniyetmələr iştirak ediblər.***

Tərtər Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən aksiya zamanı Olimpiya İdman Kompleksinin qarşısında 200 ədəd Eldar şamı əkilib. Yeni əkilən ağaclar suvarılıb, mövcud ağacların dibi yumşaldılıb və yaşıllıqlara aqrotexniki qaydada qulluq göstərilib.

*XQ*

# Turizm əlaqələrimiz genişlənir

**Azərbaycan Turizm Bürosu fevralın 18-dən 24-dək müvafiq olaraq Bakı, Daşkənd və Almatı şəhərlərində keçirilən turizm toplantısında iştirak edib.**



Dövlət Turizm Agentliyindən mətbuata bildirilib ki, tədbirlər çərçivəsində Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistanın 25-dən çox aparıcı turizm şirkəti və tur-operatorları ilə görüşlər keçirilib, sənaye nümayəndələri ilə əməkdaşlıq imkanları müzakirə olunub.

Premium turizm bazarına fokuslanan müzakirələr çərçivəsində Azərbaycanın beynəlxalq səviyyəli dağ-xizək, sağlamlıq və istirahət mərkəzləri, o cümlədən lüks turizm imkanları və biznes turizmi sektoru haqqında iştirakçılara məlumat verilib.



Qeyd edək ki, ümumilikdə 2024-cü il ərzində Mərkəzi Asiya regionundan Azərbaycana səfər sayı 180 min 528 nəfər təşkil edib ki, bu da öz növbəsində 2023-cü illə müqayisədə 34 faizdən çox artım deməkdir.

"Azərbaycan Hava Yolları" (AZAL), "Air Astana", "FlyArystan" və "Uzbekistan Airways"in Bakı ilə Almatı, Astana, Aktau, Daşkənd və Düşənbə arasında yerinə yetirdiyi birbaşa aviareyslər qarşılıqlı ziyarətçi sayını artırır və ölkələrarası əlaqələri gücləndirir.

*Leyla HADİ*
*tələbə-jurnalist*

HAVA

# Yenə qar, şaxta və duman...



**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında arabir qar yağacaq. Gecə yarımadanın bəzi yerlərində qısa müddətə intensivləşəcəyi ehtimalı var. Günün ikinci yarısında tədricən kəsiləcək. Şimal-qərb küləyi gündüz mülayim cənub-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə və gündüz 1-3° şaxta olacaq.**

Atmosfer təzyiqi normadan yüksək 768 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 60-65 faiz olacaq. Gecə və səhər bəzi yolların buz bağlama ehtimalı var.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Gündüz tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 3-8° isti, dağlarda gecə 10-15°, yüksək dağlıq ərazilərdə 15-20° şaxta, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər bəzi yerlərdə yollar buz bağlayacaq.

*Q.QASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin nəqliyyat şöbəsinin müdiri Raman Əliyevə atası

ŞƏMSƏDDİN ƏLİYEVİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3252
SİFARİŞ 428
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00